İmam Əbu Muhəmməd əl-Bərbəhəri

شـرح السنـة

# ŞƏRH ƏS-SÜNNƏ

## *Etiqad əsaslarının izahı*

Tərcümə edən

*Elçin Quliyev*

Elmi redaktə və haşiyələr

*Əbu Zeyd Həbibli*



# - شرح السنة -

# ŞƏRH ƏS-SÜNNƏ

## (*Etiqad əsaslarının izahı*)


**Müəllif:**
İmam Əbu Muhəmməd əl-Bərbəhəri
(vəfatı: hicri 327-ci il)

**Tərcümə edən:**
Elçin Quliyev

**Elmi redaktə və haşiyələr:**
Əbu Zeyd Həbibli

# Müqəddimə

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ona həmd edir, Ondan yardım istəyir, Onun məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu azdıra biləcək, kimi də azdırsa, onu doğru yola yönəldəcək kəs yoxdur. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və son elçisidir. Allahın ona, əhlinə və əshabına salavatı və salamı olsun!

Sizlərə təqdim etdiyimiz növbəti kitab hicrətin 327-ci ilində vəfat etmiş Əhli-sünnət alimlərindən olan imam Əbu Muhəmməd əl-Bərbəhərinin qələmə aldığı "Şərh əs-sünnə", yəni "sünnətin – etiqad əsaslarının izahı" adlı kitabının tərcüməsi və orta həcmli şərhidir. Son zamanlarda ölkəmizdə özlərini Əhli-sünnətə nisbət edən, lakin həqiqətdə zəlalət əhli olan bidətçilərin baş qaldırdığını nəzərə alsaq, oxucuları həqiqi Əhli-sünnət etiqadını özündə əks etdirən bu növ kitablarlarla tanış etməyin önəmini anlamış olarıq.

Bu kitabı tərcümə etdiyinə görə qardaşımız Elçin Quliyevə öz təşəkkürümü bildirirəm. Kitabın tərcüməsi başa çatdıqdan sonra onun günümüzün oxucusu üçün kifayət etmədiyini hiss etdik. Çünki müəllif kitabda ərz etdiyi mövzuları müxtəsər şəkildə qeyd etmişdir. Bu da bəzi hallarda müəllifin qəsdinin tam anlaşılmamasına səbəb olur. Məlumdur ki, bu, müəllifin yaşadığı dönəmdə qələmə alınmış bir çox etiqad kitablarının xüsusiyyətidir. Bütün bunları nəzərə alaraq, oxucu üçün daha asan və anlaşılan olması üçün kitaba orta səviyyəli bir şərh yazmaq qərarına gəldik və həmin şərhi kitabın haşiyəsində qeyd etdik.

Uca Allahdan bu işimizdə bizi haqqa və ixlasa yönəltməsini və bu əməlimizi Öz qatında məqbul olan saleh əməllərdən etməsini diləyirik! Heç şübhəsiz ki, xeyirə və haqqa yönəldən, aləmlərin Rəbbi olan Uca Allahdır!

✍ ***Əbu Zeyd Həbibli***

# İmam Bərbəharinin tərcümeyi-halı

Əbu Muhəmməd əl-Həsən ibn Əli ibn Xələf əl-Bərbəhəri öz zamanında Hənbəli məzhəbinin böyük alimlərindən və sələfilərin imamlarından idi. Onun nisbət olunduğu "Bərbəhər" isə Hindistandan gətirilən dərmanın adıdır. O vaxt bəsrəlilər Hindistandan bu dərmanı gətirənə "Bərbəhəri" deyirdilər. İmam Bərbəhəri haqqı deyən, insanları Quran və sünnətə tabe olmağa çağıran, heç kimin qınağından qorxmayan və bidət əhlinə qarşı çox şiddətli bir insan idi. O, elm əhlinin arasında böyümüş və imam Əhmədin tələbələrindən dərs almışdı. İmam Bərbəhəri elm öyrənməyə çox həris idi. Onun elm aldığı alimlərdən biri mühəddis, fəqih, nümunəvi imam – Əhməd ibn Muhəmməd ibn Həccac ibn Əbdüləziz Əbu Bəkr əl-Mərvəzi olmuşdur. Həmçinin o, zahid, nümunəvi alim olan Əbu Muhəmməd Səhl ibn Abdullah ibn Yusuf ət-Tustəridən də elm almışdır.

***İmam Bərbəharini bir çox alimlər tərifləmişdir:***

• Əbu Abdullah əl-Fəqih onun haqqında belə deyib: "Əgər sən Bağdaddan olan bir kişinin Əbul-Həsən ibn Bəşşəri və Əbu Muhəmməd əl-Bərbəharini sevdiyini görsən, bil ki, o, sünnət əhlidir".

• İbn Kəsir onun barədə belə deyib: "O, Hənbəli məzhəbinin zahid və fəqih alimlərindən biri idi. Bidət əhlinə və fasiqlərə qarşı sərt, həm sultanın, həm də camaatın yanında dəyər və hörmət sahibi olan heybətli bir insan idi".

• İbn Əbu Yə`lə qeyd edir ki, Bərbəhəri öz zamanının şeyxi idi. Bidət əhlinə rədd verməkdə, haqqı onlara bəyan etməkdə hamıdan öndə idi. O, zahid, təqvalı və öz dini üçün çalışan bir adam idi, hətta sultanın yanında belə heybəti və hörməti var idi.

***İmam Bərbəharinin tələbələrindən:***

- İbn Bətta kimi tanınan imam, fəqih Əbu Abdullah ibn Ubeydullah ibn Muhəmməd əl-Ukbəri (vəfatı: hicrətin 387-ci ili);
- Əbul-Huseyn Muhəmməd ibn Əhməd ibn İsməil əl-Bəğdədi (vəfatı: hicrətin 387-ci ili).

İmam Bərbəharini dinləyən, onun dərslərində iştirak edən və onu sevənlər içərisində xeyli sayda sıravi insanlar, sadə adamlar da var idi. Bu barədə İbn Batta maraqlı bir hadisəni nəql edərək belə qeyd edir: İmam Bərbəharini sevənlər və onun məclislərində iştirak edənlər içərisində elm tələbəsi olmayan sıravi insanlar da var idi. Həmin insanlardan biri sərxoş vəziyyətdə bir gün bidət əhlindən bir nəfərin yanından keçərkən onun istehza ilə belə dediyini eşidir: "Bax bunlar hənbəlilərdir". Həmin sərxoş bidətçiyə dönərək ona belə cavab verir: "Hənbəlilər üç formada olur:

- Birinci: özlərini namaza, oruca həsr edən zahid zümrə;
- İkinci: elm tələb edən və elm öyrədən fəqih zümrə;
- Üçüncüsü isə sənin kimi sünnətə və haqqa müxalif olanları şillələyən (avam) zümrə".

Bunu deyib bidətçiyə bir şapalaq vurur (yəni demək istəyir ki, o həmin üçüncü zümrədəndir) ("ət-Tabaqat" 2/43).

Yuxarıda qeyd edildiyi kimi, imam Bərbəharinin insanların, hətta sultanın da yanında heybəti var idi. Bidət əhli çox çalışırdı ki, sultanın qəlbində ona qarşı nifrət oyansın. Hicrətin 321-ci ilində xəlifə əl-Qahir vəzirinə əmr edir ki, onu və yoldaşlarını tutub həbs etsinlər. Bəzi tələbələrini tuturlar, imam Bərbəhəri isə gizlənməyə başlayır və qərbdən şərqə köçür. Hicrətin 327-ci ilində vəfat edir. Allah ona rəhmət etsin. O, son dərəcə nümunəvi, Rəbbinə qarşı təqvalı olan bir imam idi. Bidət əhlinə və zındıqlara qarşı isə sanki öz qınından çıxan iti bir qılınc kimi idi. Allahın rəhməti onun və digər imamların üzərinə olsun! Amin![1]

---

[1] İmam Bərbəharinin tərcümeyi-halı üçün bax! Əbu Yələ "Tabaqatul-hənəbilə" 2/18-45, Zəhəbi "Siyəru əlamun-nubəla" 15/90-93, İbn Kəsir "əl-Bidəyə vən-nihəyə" 11/213-214.

# ŞƏRH ƏS-SÜNNƏ
## (*Etiqad əsaslarının izahı*)

İmam Bərbəhəri (Allah ona rəhmət etsin) demişdir:
Bizi İslama yönəldən və bununla bizə mərhəmət edən, həmçinin bizi insanlar üçün xeyirli ümmət edən Allaha həmd-sənalar olsun. Allahdan istəyirik ki, bizi Özünün sevdiyi və razı qaldığı şeylərə müvəffəq etsin, qəzəbləndiyi və sevmədiyi şeylərdən isə hifz edib qorusun.

**1)** Bilin ki, İslam elə sünnətdir, sünnət də elə İslamın özüdür. Onlardan biri olmasa, digəri də olmaz.[1]

**2)** Camaatla birlikdə olmaq sünnətdəndir. Kim camaatdan ayrılsa və başqa yola üz tutsa, artıq boynundan İslam ipini çıxarmış olar. Beləcə, həm özü azar, həm də başqalarını azdırar.[2]

**3)** "Camaat"ın əsas təməli – bünövrəsi Muhəmmədin ﷺ əshabıdır. Allah onların hamısına rəhmət etsin! Əhli-sünnət vəl-camaat (yəni

---

[1] "Sünnət" dedikdə, müxtəsər olaraq, Peyğəmbərin ﷺ yolu nəzərdə tutulur. Müəllifin də qeyd etdiyi kimi, Peyğəmbərin ﷺ sünnəti elə İslamın özüdür. Çünki sünnətsiz İslam təsəvvür olunmazdır.

[2] "Camaat" dedikdə, əsasən, haqq (yəni Quran və sünnət) üzərində toplanmış insanlar nəzərdə tutulur. Buna əsasən, haqq üzərində sabit qalan bir nəfər belə camaat sayılır. Elə bu səbəbdən də Uca Allah xəlili İbrahimi ﷺ ümmət adlandırmışdır: *"Həqiqətən, İbrahim Allaha qarşı müti, hənif bir ümmət idi. O, müşriklərdən deyildi"* (Ən-Nəhl: 120). Həmçinin "camaat" dedikdə tək bir rəhbətin ətrafında birləşən İslam cəmiyyəti və müsəlman toplumu nəzərdə tutulur. Buna əsasən, İslam dini müsəlmanların birliyini pozanları, bu birliyə xələl gətirənləri və İslam cəmiyyətinə qarşı çıxan və müsəlmanlar arasında parçalanma və ixtilaflara səbəb olanları şiddətli bir şəkildə qınamışdır. Uca Allah buyurur: *"Hamılıqla Allahın ipindən möhkəm yapışın və parçalanmayın!"* (Ali İmran: 103). Peyğəmbər ﷺ demişdir: *"Camaat olmaq rəhmət, parçalanmaq isə əzabdır"* (İbn Əbu Asim "əs-Sünnə" 93, hədis səhihdir. Bax: Əlbani "Səhih əl-cəmi" 3109).

sünnət və camaat əhli) da məhz onlardır. Kim dini onlardan götürməzsə, azar və bidətçi olar. Hər bir bidət zəlalətdir. Zəlalət və onun əhli isə oddadır.[1]

**4)** Ömər ibnul-Xattab (Allah ondan razı olsun) belə deyib: "Zəlalət yolunu doğru yol hesab edib o yol ilə yürüyən kəs üçün heç bir üzr yoxdur. Həmçinin doğru yolu zəlalət hesab edib onu tərk edənə də heç bir üzr yoxdur. Çünki artıq hər bir məsələ bəyan edilib, hüccət çatıb və üzr yeri qalmayıb".[2]
Bu ona görədir ki, sünnət[3] və camaat[4] dini insanlara bəyan edib və din insanlara bəllidir. İnsanların üzərinə düşən isə yalnız dinə tabe olmaqdır".

**5)** Allah sənə rəhm etsin! Bil ki, bu din yalnız Allah tərəfindən gəlib, insanların ağlı və rəyləri üzərində qurulmayıb.[5] Bu elm

---

[1] Kitabın əvvəlindən bura qədər olan sətirlər "sünnət" və "camaat", yəni "Əhli-sünnət vəl-camaat" məfhumunu açıqlayır. Müəllif qeyd edir ki, "camaat", yəni müsəlman toplumu dedikdə, ilk növbədə, Peyğəmbərin əshabı ﷺ nəzərdə tutulur. Çünki müsəlman toplumunun təməlini təşkil edənlər və bu ümmətin ilki məhz onlardır. Kim onlara tabe olsa və onların izi ilə getsə, bu karvana qoşulmuş sayılar və nəticədə müsəlman cəmiyyətinin, yəni "camaat"ın bir tərkib hissəsinə çevrilər. Kim də onlara müxalif olub, "camaat"dan ayrılsa, düz yoldan azar və nəticədə zəlalətə sürüklənər. Çünki camaatdan ayrılıb tək gəzən quzu tez bir zamanda qurdlara yem olmağa məhkumdur.

[2] Bax: İbn Bətta "Əl-İbənə əl-kubra" 162. Ömər ibnul-Xattaba nisbət olunan bu rəvayət sənəd yönündən zəif olsa da, mətn yönündən tam doğru bir sözdür və bu əsər səhih bir sənədlə Ömər ibn Əbdüləzizdən də rəvayət olunmuşdur. Bax: Muhəmməd əl-Mərvəzi "Sünnə" 95.

***Qeyd:*** Ömər ibnul-Xattabın sözünün mənası budur ki, İslam dinində insanlara qaranlıq qalacaq bir məsələ yoxdur. Çünki haqq bəllidir və bu dinin gecəsi də gündüzü kimi tam aydındır. Belə ki, hər hansısa bir zəlalət yolunu doğru yol hesab edib, o yol ilə yürüyən kəsə heç bir üzr yoxdur.

[3] Yəni Peyğəmbər ﷺ.

[4] Yəni səhabələr və haqq yolunda onlara tabe olan alimlər.

[5] Əli ﷺ demişdir: "Əgər din mücərrəd ağıl və rəy ilə olsaydı, o zaman ayaqların (yəni corabların) altına məsh çəkmək üstünə məsh çəkməkdən daha düzgün olardı. Lakin mən Peyğəmbəri ﷺ məhz corablarının üstünə məsh çəkən gördüm" (İbn Əbi Şeybə "əl-Müsənnəf" 1/181, Əbu Davud: 162 və 164, İbn Həcər əsərin səhih olduğunu qeyd etmişdir. Bax: "Ət-Təlxisul-habir" 1/160).

yalnız Allaha və Onun elçisinə aiddir. Öz nəfsi istəklərinin dalınca getmə, əks halda İslam dinindən çıxarsan. Sənin buna qarşılıq heç bir dəlilin və bəhanən də yoxdur. Peyğəmbər ﷺ artıq ümmətinə sünnəti bəyan edib və öz səhabələrinə onu açıqlayıb. Camaat onlardır, [1] "əs-səvadul-əzam" – əzəmətli topluluq da məhz onlardır.[2] "Əs-səvadul-əzam" – əzəmətli topluluq haqq və onun əhlidir.[3] Kim Allahın elçisinin səhabələrinə ؓ dində olan bir məsələdə müxalif olarsa, o artıq küfr etmişdir.[4]

**6)** Bil ki, insanların gətirdiyi elə bir bidət yoxdur ki, onun əvəzinə hansısa bir sünnəti tərk etməsinlər.[5] Dində yenilikdən çəkin, çünki hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir. Zəlalət və onun əhli isə oddadır.[6]

---

[1] Yəni camaatın əsası, bünövrəsi səhabələrdir.

[2] "Əs-səvadul-əzam" – "əzəmətli topluluq" dedikdə elə "camaat" nəzərdə tutulur. Belə ki, Peyğəmbər ﷺ demişdir: *"Allahın Əli camaatın üzərindədir. Elə isə əzəmətli topluluğa tabe olun!"* (Həsən hədisdir. Bax: "Əs-Silsilətus-səhiha" 1331).

[3] Yəni "əzəmətli topluluğa və camaata tabeçilik" dedikdə bir atalar sözündə qeyd edildiyi kimi, "palaza bürün, ellə sürün" demək deyil. Müəllifin də qeyd etdiyi kimi, camaat dedikdə məhz haqq əhli və doğru yol üzərində cəm olan topluluq nəzərdə tutulur.

[4] Yəni səhabələrin yoluna müxalif olmaq insanı zəlalətə və küfrə sürükləyən əsas amillərdəndir. Onlara müxalif olmaqla insanın düşə biləcəyi küfr isə müxalif olduğu məsələdən aslı olaraq, ya kiçik, ya da böyük küfr ola bilər. Uca Allah buyurur: "*"Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və <u>möminlərin yolundan başqa bir yolla getsə</u>, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir"* (Ən-Nisə: 115). Uca Allah bu ayədə səhabələrin yoluna müxalif olacaq kəsləri Cəhənnəm əzabı ilə hədələmişdir. Çünki bu ayə nazil olan vaxt yer üzündə Peyğəmbərin əshabından başqa mömin toplumu yox idi.

[5] Çünki sünnət ilə bidət bir-birinin ziddidir. Onlardan biri gəldikdə digərini aradan qaldırar. Tabiinlərdən Həssən ibn Ətiyyə belə demişdir: "Camaat dində hər hansı bir bidət ortaya çıxartsa, Allah o bidətin müqabilində mütləq bir sünnəti ortadan qaldıracaq və Qiyamət gününə qədər o sünnəti onlara geri qaytarmayacaqdır" (Dərimi "əs-Sünən" 1/45).

[6] Peyğəmbər ﷺ demişdir: *"Sözlərin ən doğrusu Allahın Kitabıdır. Yolların ən xeyirlisi isə Muhəmmədin yoludur. İşlərin ən şərli olanı (dində) sonradan ortaya*

**7)** Kiçik də olsa, bidətlərdən çəkin, çünki həmin bidətlər vaxt keçdikcə böyüyür. Bu ümmətdə ortaya çıxan hər bir bidət də belədir. O, əvvəlcə kiçik və haqqa oxşar olub. Elə bu səbəblə də həmin bidətə düşən kəs aldanıb, daha sonra isə düşdüyü bidətdən çıxa bilməyib. Nəticə etibarilə, o bidət böyüyüb və dindən hesab olunub. Onu edən kəs doğru yola müxalif olaraq tədricən İslam dinindən çıxıb.[1]

**8)** Hər hansı bir kəsdən bir söz eşitdikdə tələsmə, xüsusən də öz zəmanəndə. Bu sözü Peyğəmbərin səhabələrindən ﷺ və ya alimlərdən kiminsə dediyini soruşmadan və araşdırmadan bu məsələyə girmə. Əgər bu barədə onlardan bir əsər tapsan, ondan möhkəm tut və nə olursa olsun, onu kənara qoyub başqasını seçmə. Əks halda Cəhənnəm oduna düşərsən.

---

*çıxan şeylərdir. (Dində olan) hər yenilik bidət, hər bidət də zəlalətdir. Hər zəlalət isə Cəhənnəm odundadır"* (Müslim 867, Nəsai 1578).

[1] Deməli, bidətlərin hamısı eyni səviyyədə deyildir. Onlardan bəziləri digərlərinə nisbətdə daha şiddətlidir. Bidət olmayan asiliklər – kiçik və böyük olaraq iki hissəyə bölündüyü kimi, bidətlərin də bəziləri kiçik, bəziləri isə böyük olur. Çünki əsli etibarilə bidətlər də asiliklər cinsindən sayılır. Böyük və kiçik bidətlərin fərqi barədə alimlərin bir-birinə yaxın müxtəlif sözləri vardır. Misal olaraq, imam Şatibinin sözünü qeyd etmək olar. Belə ki, o, bidətin hansı hallarda və hansı şərtlər ilə kiçik olacağını bəyan edərək demişdir: "Birincisi, gərək həmin bidət üzərində israr edilməyə. Əsli etibarilə kiçik olan bidətlər üzərində israr edildikcə və zaman keçdikcə böyük bidətlərə çevrilir. İkincisi, gərək o bidətə dəvət edilməyə. Əsli etibarilə kiçik olan bidətlər insanlar arasında təbliğ edilməklə böyük bidətlərə çevrilir. Üçüncüsü, həmin bidətlər insanların çox olduğu ictimai yerlərdə və ibadət ocaqlarında, insanların gözü önündə edilməyə. Əks halda böyük bidətlərə çevriləcəkdir. Dördüncüsü, gərək insan qəlbini həmin bidətə bağlamaya və o bidəti kiçik və əhəmiyyətsiz bir şey kimi qəbul etməyə" (Şatibi "əl-İtisam" 2/404-412 ixtisarla və məna ilə nəql etdim). İmam Bərbəhəri də qeyd edir ki, bidətləri əhəmiyyətsiz sayma, kiçik belə olsa, hər bir bidətdən uzaq dur. Çünki kiçik və böyük hər bidət zəlalət yoludur. Dinimizdə ortaya çıxan bir çox böyük bidətlərin əsli də elə kiçik bidətlər olmuşdur. Necə deyərlər, nə qədər böyük alovlar vardır ki, kiçik qığılcımlardan əmələ gəlmişdir.

**9)** Bil ki, doğru yoldan azmaq iki cür olur:
Birincisi, məqsədi yalnız xeyrə çatmaq olduğu halda, düz yoldan azan. Belə adamın xəta etdiyi məsələdə ardınca getmək olmaz, çünki o özü həlak olmaq üzrədir.
Digəri isə inadkarlıq edərək, bilə-bilə haqqa qarşı çıxan və özündən əvvəlki müttəqilərə müxalif olan kəs. O həm özü azıb, həm də başqalarını azdırır. Beləsi bu ümmətdə inadkar şeytandır.[1] Onu tanıyan adam gərək insanları ondan çəkindirsin və onun haqqında danışsın ki, kimsə onun bidətinə düşüb həlak olmasın.[2]

**10)** Allah sənə rəhm etsin! Bil ki, bir insan Peyğəmbərə ﷺ tabe olmadıqca, təsdiq edib dəlillərə təslim olmadıqca onun İslamı tamamlanmır. Kim iddia etsə ki, İslam dinindən Muhəmmədin səhabələrinin ﵃ bizə çatdırmadığı nəsə qalıb və bizə çatmayıb, bu kəs onları yalançı saymışdır, onlardan ayrılmış və onlara böhtan

---

[1] Müəllif qeyd edir ki, haqq yoldan azmaq təkcə batilə və onun əhlinə tabe olmaqla, yaxud bilə-bilə haqqa qarşı çıxmaqla olmur. Həmçinin insan xeyir istədiyi, yaxud xeyir üzərində olduğunu zənn etdiyi və məqsədi yalnız xeyrə çatmaq olduğu halda da aza bilər. Elə bu səbəbdən də xeyir əhlindən xəta edən və haqq yolunda ayağı büdrəyən kəslərə xəta etdiyi məsələdə tabe olmaq icazəli deyildir. Misal olaraq, Əhli-sünnət mənsublarından heç kəsə icazəli deyildir ki, "əməl imandan deyil", – desin və bu məsələdə Əbu Hənifəni özü üçün nümunə seçərək ona tabe olsun. Çünki Əbu Hənifə elm, ictihad və xeyir əhli olsa da, bu məsələdə xəta etmiş və Əhli-sünnətin icmasına müxalif olmuşdur.
[2] Bidət və zəlalət əhli barədə onların batil etiqadları haqda danışmaq və insanları onların bidətlərindən və zəlalət fikirlərindən çəkindirmək sələfin yolu və mənhəcidir. Belə ki, Muhəmməd ibn Səhl əl-Buxari rəvayət edir ki, sələfin imamlarından əl-Fəryabinin yanında idik. O, bidət əhli barədə danışmağa başladı. Elə bu anda orada olanlardan biri ona belə dedi: bizə hədis rəvayət etsəydin, bu daha yaxşı olardı. Əl-Fəryabi qəzəblənərək (qızıl hərflərlə yazılası bu sözü) dedi: "Mənim bidət əhli barədə danışmağım, mənə altmış il nafilə ibadətdən daha sevimlidir" (İbn əl-Couzi "Təlbis əl-İblis" səh. 105). İmam Əhmədə sual verilir: (Çoxsaylı nafilə) namaz qılıb, oruc tutan və etikaf edən kəs sənə daha sevimlidir, yoxsa bidət və zəlalət əhli barədə danışan kəs? İmam isə cavabında belə deyir: "(Çoxsaylı nafilə) namaz qılıb, etikaf etməsi onun öz xeyrinədir. Amma bidət əhli barədə danışması isə bütün müsəlmanların mənfəəti üçündür ki, bu daha əfzəldir" ("Məcmuul-fətava" 28/231).

atmışdır. Bu kimsə İslama yenilik gətirən, haqq yolundan azan və başqalarını da azdıran bir bidətçidir.[1]

**11)** Allah sənə rəhm etsin! Bil ki, sünnətdə qiyas yoxdur.[2] Etiqadi mövzularda məsəllər çəkmək və nəfsi istəklərin dalınca getmək olmaz.[3] Əksinə, Peyğəmbərdən ﷺ nəql olunmuş hədisləri keyfiyyət vermədən, şərh etmədən və "necə?", "nə üçün?" suallarını vermədən təsdiqləmək lazımdır.[4]

**12)** Kəlam, dini mübahisələr, höcətləşmə və münaqişələr sonradan ortaya çıxmış yeniliklərdir. Hətta (kəlam və cədəl) əhlinin

---

[1] İmam Malik demişdir: "Kim İslam dinində bir bidət ortaya çıxarsa və həmin bidəti gözəl görsə, bununla o, Muhəmmədin ﷺ öz risalətinə xəyanət etdiyini iddia etmiş olar. Çünki Uca Allah "bu gün sizin üçün dininizi tamamladım" (əl-Maidə: 3) buyurur. O gün (yəni Peyğəmbərin ﷺ zamanında) dindən olmayan bir şey bu gün də dindən ola bilməz" ("əl-İtisam" 1/28 və ya 64).

[2] Burada "sünnət" ləfzi əqidə mənasında işlənmişdir. "Sünnət" ləfzinin əqidə mənasında işlənməsi müəllifin zamanında məşhur bir hal idi. Elə bu səbəbdən də müəllif kitabını "Şərhus-sünnə", yəni "əqidənin izahı" adlandırmışdır. Buna dair əlavə misal kimi imam Əhmədin "Üsul əs-sünnə", yəni "əqidənin əsasları" risaləsini də göstərmək olar. Müəllif "sünnətdə (etiqadi məsələlərdə) qiyas yoxdur" deməklə qiyas, yəni bənzətmə və müqayisə etmək yolu ilə etiqad qurmağın icazəli olmadığını bəyan etmişdir.

[3] Quran və sünnətdə varid olan hər hansı bir dəlil qarşısında həmin dəlili ləğv etməkdən, yaxud mənasını doğru olmayan istiqamətə yönəltməkdən ötrü məsəllər çəkmək icazəli deyildir. Misal olaraq, Uca Allahın hər gecənin son üçdə-birində ən yaxın səmaya enməsinə dəlalət edən hədislər qarşısında "əgər Allah enirsə, o zaman Ərşi Ondan xali olmalıdır", yaxud "yer kürə şəklində olduğu üçün hər an yer üzünün bir yerində gecənin üçdə biri olur" kimi məsəllər çəkmək qəti şəkildə qadağandır. Çünki bu məsəllər biz insanların aciz ağılının məhsuludur və ətraf mühitdə, məxluqatlar üzərində müşahidə etdiyimiz qanun-qaydalar əsasında gəldiyimiz nəticələrdir. Uca Allah isə bizə nisbətdə qeybdir və ağıl Onu, Onun ad və sifətlərinin həqiqi mahiyyətini dərk etməkdə acizdir. Uca Allah buyurur: "*Onların elmi Onu ehtiva edə bilməz*" (Taha: 110).

[4] Yəni Xaliqi məxluqa bənzədən Müşəbbihə firqəsi kimi "keyfiyyət vermədən" və Uca Allahın ad və sifətlərini batil mənalara təvil edən Muattilə firqəsi kimi "şərh etmədən" olduğu kimi qəbul edib təsdiqləmək.

dedikləri haqqa və sünnətə müvafiq olsa belə, yenə də bu (kəlam elmi) onun qəlbinə şübhə salar.[1]

**13)** Allah sənə rəhm etsin! Bil ki, Rəbb barədə kəlam elmi sonradan ortaya çıxıb. Bu bir bidət və zəlalətdir. Rəbb barədə Allahın Quranda Özünü vəsf etdiyi və ya Allahın elçisinin ﷺ öz səhabələrinə bəyan etdiyindən başqa bir şey danışmaq olmaz. Allah təkdir. *"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".*[2]

---

[1] Kəlam elmi bir növ "İslami" fəlsəfə sayılır. Əsasən, Yunan fəlsəfəsinin ərəb dilinə tərcümə və müsəlman cəmiyyətinə idxal edilməsi ilə ortaya çıxmışdır. İlk olaraq, bu elmə Cəhmiyyə və Mötəzilə firqələri yiyələnmiş, daha sonralar isə onlara cavab vermək və şübhələrini rədd etmək qəsdi ilə kulləbilər - əşari və maturidilər bu elmə girişmişlər. Beləcə, onlar da Cəhmiyyə və Mötəzilə firqəsinin düşdüyü "kəlam tələsi"nə düşmüş və özlərindən öncəkilərin düçar olduqları "kəlam müsibəti"nə düçar olmuşlar. Kəlamın ortaya çıxdığı ilk gündən bəri Əhli-sünnət imamları bu "elm"dən və onun əhlindən çəkindirmişlər.

• *İmam Əbu Hənifə demişdir:* "Allah Amr ibn Ubeydə lənət etsin! Çünki o, insanlar üçün heç bir faydası olmayan kəlam elminə yol açdı" (əl-Həravi "Zəmmul-kəlam" 5/221, rəvayət: 1020). Bir nəfər ondan soruşdu: İnsanların yeni ortaya çıxartdıqları "araz" və "cisimlər" (fəlsəfi terminlərdi) barədə danışmaq haqda rəyin nədir? İmam isə belə cavab verdi: "(Bütün bunlar) fəlsəfəçilərin sözləridir. Sənə əsərlərə (Kitab və sünnətə) və sələfin yoluna tabe olmağı tövsiyə edirəm. Hər bir yenilikdən uzaq dur! Çünki (dini məsələlərdə) hər bir yenilik bidətdir" (əl-Həravi "Zəmmul-kəlam" 5/207, rəvayət: 1006, Əsbahani "əl-Hüccə fi bəyənil-məhəccə" 1/105, Suyuti "Sovnul-məntiq" səh. 322).

• *İmam Malik demişdir:* "Kim dini kəlam elmi ilə öyrənərsə, zındıqlaşar..." (əl-Həravi "Zəmmul-kəlam" 5/71, rəvayət: 859).

• *İmam Şafi demişdir:* "Kiminsə kəlam elmindən nəyisə öyrənib nicat tapdığını görmədim" (İbn Batta "əl-İbənə əl-kubra" 2/536, rəvayət: 666).

• *İmam Əhməd demişdir:* "Kim kəlam elmi ilə məşğul olarsa, nicat tapmaz. Kim kəlam elmini öyrənərsə, əvvəl-axır Cəhmi olar" (İbn Batta "əl-İbənə əl-kubra" 2/538, rəvayət: 674).

[2] Əş-Şura: 11

**14)** Rəbbimiz başlanğıcı olmadan Əvvəl, sonu olmadan Axırdır.[1] O, bütün sirləri və gizlində olanları bilir. O Öz Ərşinə yüksəlib, elmi isə hər yerdədir. Onun elmindən kənar bir yer yoxdur.[2]

**15)** Rəbbin sifətləri barədə "necə?", "nə üçün?" suallarını yalnız Allah barədə şəkkə düşən kəs verə bilər. Quran Allahın kəlamıdır, Onun nazil etdiyi və nurudur. Quran məxluq deyil. Çünki Quran Allahdandır, Allahdan olan bir şey isə məxluq olmaz. Malik ibn Ənəs, Əhməd ibn Hənbəl, onlardan əvvəlki və sonrakı bütün fəqihlər belə deyiblər. Bu haqda mübahisə etmək küfrdür.[3]

**16)** Ruyətullaha, yəni Qiyamət günü Allahı görməyə iman gətirmək. Allahı həqiqi gözləri ilə görəcəklər.[4] Allah arada heç bir maneə və tərcüməçi olmadan onları hesaba çəkəcəkdir.[5]

---

[1] Peyğəmbər ﷺ demişdir: *"Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur"* (Müslim: 2713).

[2] Müəllif bu sözləri ilə Uca Allahın hər yerdə olduğuna və Xaliqin məxluqa hülul etdiyinə etiqad edən ilkin cəhmilərə və Hüluliyyə məzhəbinə cavab verir. Uca Allah buyurur: *"Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür"* (əl-Hədid: 4). Bu ayədə Uca Allah Özünün Ərşə yüksəldiyini, lakin elmi və hər şeyi görməsi ilə hər yerdə və məxluqatı ilə bərabər olduğunu bəyan edir.

[3] Müəllif bu sözləri ilə Quranın Allahın həqiqi kəlamı olduğunu inkar edən və onun məxluq (yaradılmış) olduğuna etiqad edən Cəhmiyyə və Mötəzilə firqələrinə cavab verir.

[4] Müəllifin bu sözləri həm "ruyətullah"ı tamamilə inkar edənlərə, həm də zahirdə bunu isbat edib, lakin mənasını "Allahı qəlb gözü ilə görmək" kimi təvil edənlərə bir cavabdır. Əhli-sünnətin etiqadına əsasən kafirlər deyil, məhz möminlər Qiyamət günü Cənnətdə Uca Allahı görəcək və bu onlar üçün Cənnət nemətlərinin ən əzəmətlisi olacaqdır. Bu barədə Uca Allah buyurur: *"O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır"* (əl-Qiyamə: 22-23). Həmçinin kafirlər barədə belə demişdir: *"Xeyr, o gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!"* (əl-Mutaffifin: 15)

[5] Peyğəmbər ﷺ demişdir: *"Sizlərdən hər biriniz ilə Rəbbi (Qiyamət günü) arada heç bir tərcüməçi və maneə olmadan danışacaqdır (yəni onu hesaba çəkəcəkdir)"* (Buxari 7443 və Müslim 1016).

**17)** Qiyamət günü qurulacaq tərəziyə iman gətirmək. Onunla xeyir və şər çəkiləcəkdir.[1] Bu tərəzinin iki gözü və bir dili (əqrəbi) var.[2]

**18)** Qəbir əzabına, həmçinin Münkər və Nəkir adlı iki mələyə iman gətirmək.[3]

**19)** Allahın elçisinin ﷺ hovuzuna iman gətirmək.[4] Salehdən عليه السلام başqa bütün peyğəmbərlərin hovuzu olacaq. Salehin عليه السلام hovuzu isə dəvəsinin döşüdür.[5]

**20)** Allahın elçisi ﷺ həm Qiyamət günü (hesab meydanında), həm də Sirat körpüsünün üzərində günahkarlar üçün şəfaətçi olacaqdır. Onları Cəhənnəmin dibindən çıxaracaqdır. Hər bir peyğəmbərin, o

---

[1] Uca Allah buyurur: *"Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik"* (əl-Ənbiya: 47).

[2] Abdullah bin Abbas رضي الله عنه tərəzinin vəsfi barədə belə demişdir: *"Tərəzinin bir dili və iki gözü olacaq. Bir gözünə saleh əməllər, digərinə isə asiliklər qoyulacaq"* (Beyhəqi "Şuabul-iman" 1/443).

[3] Peyğəmbər ﷺ demişdir: *"Cənazə qəbirə qoyulduqda (sorğu-sual üçün) onun yanına birinin adı Münkər, digərinin isə Nəkir olan özləri qara, gözləri isə göy olan iki mələk gələr..."* (Tirmizi 1071, Əlbani hədisin həsən-səhih olduğunu demişdir).

[4] Peyğəmbər ﷺ öz hovuzu barədə belə demişdir: *"Hovuzumun uzunluğu bir aylıq məsafə qədərdir və bütün küncləri eynidir (digər rəvayətdə: eni il uzunluğu eynidir). Suyu gümüşdən daha ağ, qoxusu müşkdən daha ətirlidir. Qədəhləri səmanın ulduzları kimidir. Onun suyundan içən kəs ondan sonra heç vaxt susamaz"* (Müslim 2292 və 2300).

[5] Qiyamət günü hər bir peyğəmbərin özünəməxsus hovuzu olacaqdır. Bu hovuzların ən böyüyü və ətrafına ən çox adam yığılacaq olanı isə məhz peyğəmbərimiz Muhəmmədin ﷺ hovuzu olacaqdır. Peyğəmbər ﷺ bu barədə belə demişdir: *"Hər bir peyğəmbərin Qiyamət günü hovuzu olacaq və onların hər biri hansının hovuzuna daha çox adam gələcək deyə öyünəcəkdir. Mən ümid edirəm ki, hovuzuna ən çox adam gələcək olan məhz mən olacam"* (Tirmizi 2443, Əlbani hədisin səhih olduğunu demişdir). Müəllifin qeyd etdiyi "Salehin عليه السلام hovuzu isə dəvəsinin döşüdür" ibarəsi bəzi hədislərdə varid olmuşdur. Lakin bu hədislərin heç biri səhih deyildir (Bax: Uqeyli "əd-Duafə" 3/64, İbn Couzi "əl-Mouduat" 2/417, Əlbani "Silsilə əd-daifə" 2/192, hədis: 772).

cümlədən də siddiqlərin, şəhidlər və salehlərin də şəfaəti olacaqdır. Bütün bu şəfaətlərdən sonra Allahın istədiyi kəslərə bol lütfü olacaqdır. Hətta bəzi günahkarlar yanıb kül olduqdan sonra oddan çıxarılacaqlar.[1]

**21)** Cəhənnəmin üzərində qurulan Sirat körpüsünə iman gətirmək. Allahın dilədiyi kəsləri Sirat (oradakı qarmaqlar) tutacaq, bəziləri Siratın üstündən keçib gedəcək, bəziləri isə elə oradan Cəhənnəmə düşəcəklər. Sirat üzərindən keçənlərin imanlarından asılı olaraq nurları olacaqdır.[2]

---

[1] Müəllif burada bir neçə şəfaət növünü qeyd etmişdir:
- Hesab meydanında haqq-hesabın tez başlaması üçün İslam peyğəmbərinin ﷺ edəcəyi və ona xas olan şəfaət (Bax: Buxari 3340 və Müslim 194).
- Cəhənnəm üzərində Sirat körpüsü qurulandan sonra hər peyğəmbərin öz ümmətinin Siratdan keçə bilmələri üçün edəcəkləri şəfaət (Bax: Buxari 4581, Müslim 183, "əl-Müsnəd" 12825, Tirmizi 2433).
- Günahlarına görə Cəhənnəmə girmiş mömin bəndələrin oradan çıxmaları üçün Peyğəmbərimizin ﷺ və digər peyğəmbərlərin, o cümlədən də Allahın sadiq və saleh qullarının edəcəkləri şəfaət (Bax: Buxari 4581, 6565 və Müslim 183).
- Mərhəmətlilərin ən rəhimlisi olan Uca Allahın şəfaəti. İzzət və Cəlal sahibi olan Allah bu ümmətdən "Lə iləhə illəlləah" deyib, lakin Allah üçün heç bir xeyir əməl etməyən bir zümrəni Öz rəhməti ilə Cəhənnəmdən çıxardacaqdır (Bax: Buxari 4581, 7510 və Müslim 183, 193).

[2] Peyğəmbər ﷺ demişdir: *"Haqq-hesab bitdikdən sonra Cəhənnəm üzərində körpü qurulacaq və şəfaətə icazə veriləcəkdir. (Peyğəmbərlər isə) «Allahım, xilas et, xilas et!», – deyib dua edərlər. «Ey Peyğəmbər, körpü nədir?» – deyə soruşduqda, Allah rəsulu ﷺ belə cavab verdi: «Ayağın büdrədiyi və sürüşdüyü bir yerdir. O yolun üzərində çəngəllər, qarmaqlar və dəmir tikanlar vardır. Bunlar Nəcd diyarında bitən və üzərində çoxlu tikanlar olan, Sədən deyilən bir bitkiyə bənzəyir. Möminlərdən kimisi onun üzərindən bir göz qırpımında, kimisi şimşəktək, kimisi külək sürətində, kimisi quş, kimisi cins at və kimisi də adi atlı kimi keçəcəklər. (Digər rəvayətdə: elə insan olacaq ki, körpünü sürünərək keçəcək). Bu körpüdə kimisi sağ-salamat qurtulacaq, kimisi didik-didik ediləcək, lakin axırda xilas olacaq. Bəziləri də Cəhənnəm odunda qalaqlanacaqlar». Hədisin ravisi Əbu Səid əl-Xudri ﵁ qeyd edir ki, mənə gəlib çatan məlumata əsasən, bu körpü tükdən nazik və qılıncdan iti olacaqdır*" (Müslim 302 və 329).

**22)** Peyğəmbərlərə və mələklərə iman gətirmək.[1]

**23)** Cəhənnəmin və Cənnətin haqq olmasına iman gətirmək. Cənnət yeddinci səmadadır, onun tavanı Ərşdir. Cəhənnəm isə yerin yeddinci qatında – altındadır. Hər ikisi də məxluqdur.[2] Cənnət və Cəhənnəm əhlinin sayını və oraya kimlərin girəcəyini artıq Allah bilir. Allahın əbədi qalması ilə bərabər, Cənnət və Cəhənnəm də əbədi qalacaq və heç vaxt yox olmayacaqdır. Adəm عليه السلام yaradılmış olan həmin əbədiyyət Cənnətində idi, Allaha asi olduqdan sonra oradan çıxarıldı.[3]

**24)** Məsih Dəccalın zühur edəcəyinə etiqad etmək.[4]

**25)** İsanın عليه السلام enməsinə iman gətirmək. O enəcək və Dəccalı öldürəcək, həmçinin evlənəcək[5], Muhəmmədin ﷺ ailəsindən bir

---

[1] Uca Allah buyurur: *“Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də iman gətirdilər. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər”* (Əl-Bəqərə: 285).

[2] Müəllif bu sözü ilə Cənnət və Cəhənnəmin hələ yaradılmadığını və Qiyamət günü yaradılacağını deyən Mötəzilə və Cəhmiyyə firqələrinə cavab vermiş olur.

[3] Əhli-sünnət alimləri atamız Adəmin عليه السلام çıxarıldığı cənnətin hansı cənnət olması barədə ixtilaf etmişlər. Onların çoxu elə müəllifin də qeyd etdiyi kimi həmin cənnətin bildiyimiz əbədiyyət Cənnəti olduğunu qeyd etmiş, digər alimlər isə o cənnətin Allahın atamız Adəm və anamız Həvva üçün yaratdığı və onların imtahan olunduqları xüsusi bir yer olduğunu demişlər.

[4] Dəccal Qiyamət gününə yaxın ortaya çıxacaq Qiyamətin böyük əlamətlərindən biridir. İlk əvvəl peyğəmbərlik, daha sonra isə ilahlıq iddia edəcəkdir. Xariqüladə qüvvəsi olacaq, bununla da insanları böyük bir fitnəyə düçar edəcəkdir. Ona tabe olanların və onun fitnəsinə aldananların çoxu yəhudilər, qadınlar və xəvariclər olacaqdır.

[5] Bəzi hədislərdə qeyd edilmişdir ki, İsa عليه السلام Şueyb peyğəmbərin nəslindən bir qız ilə evlənəcəkdir. Lakin bu və bu mənada olan hədislərin heç biri səhih – etibarlı deyildir. Ya şiddətli bir şəkildə zəif, ya da ki, ümumiyyətlə, uydurma rəvayətlərdir.

nəfərin arxasında namaz qılacaq.[1] Sonra isə o (yəni İsa ﷺ) öləcək və müsəlmanlar onu dəfn edəcəklər.

**26)** İmanın söz və əməldən, yaxud əməl, söz, niyyət və Peyğəmbərə ﷺ tabeçilikdən ibarət olduğuna etiqad etmək. İman artır və azalır. Allahın istədiyi qədər artır və ondan heç bir şey qalmayana qədər azala bilir.[2]

**27)** Peyğəmbərin ﷺ ölümündən sonra bu ümmətin ən xeyirlisi Əbu Bəkr, Ömər və Osmandır ﷺ. İbn Ömərdən bizə məhz belə rəvayət olunub. O belə deyərdi: *"Allahın elçisi ﷺ bizim aramızda ikən biz deyirdik ki, Allahın elçisindən ﷺ sonra ən xeyirli insan Əbu Bəkr, Ömər və Osmandır. O ﷺ bunu eşidirdi və inkar etmirdi".* [3] Onlardan sonra insanların ən fəzilətlisi: Əli, Talha, Zubeyr, Səd ibn əbu Vaqqas, Səid ibn Zeyd, Əbdürrəhman ibn Ouf, Əbu Übeydə Amir ibn Cərrahdır. Onların hamısı xəlifəliyə layiq idi. Onlardan sonra isə ən fəzilətli insanlar Allahın elçisinin ﷺ səhabələridir. Peyğəmbərin ﷺ özlərinə göndərildiyi ilk nəsil və hər iki qibləyə tərəf namaz qılmış olan ilkin Mühacirlər və Ənsarlardır. Onlardan sonra insanların fəzilətlisi Allahın elçisi ﷺ ilə bir və ya bir neçə il, bir ay, bir gün və ya bundan da az müddətdə yoldaşlıq edən kəslərdir. Onlara rəhmət oxumalı, fəzilətlərini dilə gətirməli, onları xeyirlə yad etməli, xətaları barədə

---

[1] Həmin şəxs Peyğəmbərin ﷺ nəslindən gələcək olan Muhəmməd ibn Abdullah, yəni Mehdidir. Yeddi, yaxud doqquz illik hakimiyyəti olacaq və bu müddət ərzində yer üzündən zülmü qaldırıb, ədaləti tam bir şəkildə bərqərar edəcəkdir.

[2] Müəllif bu sözləri ilə əməlin imandan olmadığını iddia edən, imanın artıb-azalmasını inkar edən Murciə firqəsinə cavab verir. Əhli-sünnətin icmasına əsasən, əməl imandandır, iman artır və azalır. Bu icmaya Əbu Hənifə və onun əshabı müxalif olmuşdur. Əhli-sünnət imamlarının imana verdikləri tərifi aşağıdakı kimi xülasə etmək olar:

- İman – qəlbin etiqadı, dilin iqrarı və zahiri orqanların əməlidir;
- İman – söz və əməldir. Yəni qəlbin və dilin sözü, qəlbin və orqanların əməli;
- İman – qəlbin etiqadı, dilin iqrarı, orqanların əməli və sünnətə tabeçilikdir.

[3] Buxari 3655, 3698

isə danışmamalısan.[1] Çünki Peyğəmbər ﷺ onlar barədə belə demişdir: *“Səhabələrim zikr olunduğu yerdə dilinizi saxlayın”*.[2] Sufyan ibn Uyeynə belə demişdir: “Kim Allahın elçisinin ﷺ səhabələri barədə pis bir söz desə, o, bidətçidir.” Həmçinin Peyğəmbər ﷺ belə demişdir: *“Mənim səhabələrim ulduz kimidirlər. Onların hansını izləsəniz, doğru yola yönələrsiniz”*.[3]

**28)** Allahın sevdiyi və razı qaldığı işlərdə rəhbərlərin sözünə qulaq asıb onlara itaət etməliyik. Kim insanların ittifaqı və razılığı ilə başçı olarsa, o, möminlərin əmiri sayılar. Rəhbərin əməlisaleh və ya günahkar olmasından asılı olmayaraq, heç kimə rəhbərsiz olduğuna etiqad edərək bir gecə belə gecələməsi icazəli deyildir.[4] Rəhbər ilə birlikdə həcc etmək, cihada çıxmaq və onun arxasında Cümə namazını qılmaq keçərlidir.[5] Cümə namazından sonra altı

---

[1] Uca Allah buyurur: *“Onlardan (səhabələrdən) sonra gələnlər deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!»”* (Əl-Həşr: 10)

[2] Təbərani “əl-Mucəmul-kəbir” 10/198, hədis: 10448, hədisi İbn Həcər həsən – yaxşı , Əlbani isə səhih – doğru hesab etmişdir (Bax: “Fəthul-Bəri” 11/477, “Səhihul-cəmi” 545).

[3] İbn Əbdülbər “Cəmiu bəyənil-ilmi və fadlihi” 2/925, hədis: 1760, hədis zəifdir.

[4] Əhli-sünnət adil və ya zalım olsun, hər əmr sahibinə Allaha asilik olmayacaq işlərdə itaət etməyi vacib görmüşdür. Bu, Əhli-sünnətin üzərində icma etdiyi əqidə əsaslarından biridir. Bu məsələdə Əhli-sünnətə əsasən iki firqə müxalif olmuşdur: xəvariclər və şiələr. Çünki xəvariclər adil, şiələr isə məsum (xətasız) olmayan rəhbərə itaəti icazəli görmürlər. Əli ibn Əbu Talib رضي الله عنه demişdir: *“İnsanlar üçün yaxşı və ya pis, bir başçının olması labüddür”* (İbn Əbi Şeybə “əl-Müsənnəf” 7/557, səhih sənədlə rəvayət olunmuşdur). Şeyxülislam İbn Teymiyyə belə demişdir: “Aqil insanlar belə deyərlər: *«Altmış il zalım rəhbərin hökmü altında yaşamaq bir gecə rəhbərsiz qalmaqdan daha xeyirlidir»”* (“Məcmuul-fətava” 30/136).

[5] Yəni adil, yaxud zalım olmasından aslı olmayaraq hər bir başçının rəhbərliyi altında həcc edilər, cihada çıxılar və onların arxasında namaz qılınar. Belə ki, Sufyan əs-Souri Şueyb ibn Hərbə xitab edərək demişdir: *“Ey Şueyb! Hər bir yaxşı və zalım imamın arxasında namaz qılmağı icazəli saymadıqca, cihad hökmünün Qiyamət gününə qədər qüvvədə olduğuna inanmadıqca, istər ədalətli olsun, istərsə də zalım, fərq etməz, hər bir rəhbərin hökmü altında qalıb səbir*

rükət nafilə namazları qılınır və hər iki rükətdən sonra salam verilir. Əhməd ibn Hənbəl də bu rəydə olub.[1] Məryəm oğlu İsa عليه السلام gələnə qədər xilafət haqqı Qureyşə məxsusdur.[2] Kim müsəlman rəhbərlərdən birinə qarşı çıxsa, o, xəvaricdir. Bununla o, müsəlmanların birliyini parçalamış və əsərlərə (yəni sünnətə, hədislərə) müxalif olmuşdur. Beləcə, bu halı ilə ölsə, cahiliyyət zamanının ölüsü kimi ölmüş olar.[3] Rəhbərlər zalım olsalar belə, onlarla döyüşmək və onlara qarşı qiyam etmək icazəli deyildir. Bu, Allahın elçisinin ﷺ Əbu Zər əl-Ğifəriyə عليه السلام dediyi sözdür:

---

*etməyi vacib bilmədikcə sənin yazdıqlarının (yəni elminin) sənə heç bir faydası olmayacaqdır”* (Ləlakəi “Şərhu Üsul əl-Etiqad” 1/154, rəvayət: 314).

[1] Abdullah ibn Ömərin رضي الله عنهما rəvayətinə əsasən, Peyğəmbər ﷺ Cümə namazından sonra iki rükət namaz qılardı. (Müslim 882) Həmçinin o ﷺ belə demişdir: *“Sizdən biriniz Cüməni qıldımı, ondan sonra dörd rükət namaz qılsın!”* (Müslim 881) Bu hədisləri cəm edərək Hənbəli məzhəbi Cümədən sonra ən azı iki, ən çoxu isə dörd rükət nafilə namaz qılmağın sünnət olduğunu demişlər. Əhməd ibn Hənbəl bu barədə belə demişdir: “İstəsə iki rükət, istəsə dörd, istəsə altı rükət qıla bilər. Bunlardan hansı birini etsə, ona kifayətdir” (“ər-Roudul-murbi” 3/390 – haşiyədə, “Mədərul-vatan” nəşriyyatı). Bu hədislərə əsasən, İbn Üseymin belə demişdir: “Mənə görə bu məsələdə daha münasib olan, insanın bəzən iki, bəzən də dörd rükət qılmasıdır. Altı rükət qılmağa gəldikdə isə İbn Ömərin hədisinin zahiri buna dəlalət edir ki, Allah rəsulu ﷺ belə edərdi” (“Şərhul-mumti” 5/103). İbn Teymiyyə isə belə demişdir: “Əgər məsciddə qılsa, dörd rükət, evdə qılsa, iki rükət qılması daha münasibdir” (“Zədul-məad” 1/440).

[2] Peyğəmbər ﷺ demişdir: *“Hətta insanlarda iki nəfər qalsa belə, bu iş (yəni rəhbərlik) yenə də Qureyşin haqqıdır”* (Buxari 3501 və Müslim 1820). Rəhbər seçiləcək şəxs üçün İslam şəriəti bəzi şərtlər və vəsflər təyin etmişdir ki, bunlardan biri də rəhbərin məhz Qureyş qəbiləsindən olması şərtidir. Bunun şərt olub-olmamasında İslam alimləri ixtilaf etmişlər. Göründüyü kimi, müəllif bunun şərt olduğu rəyindədir və bu rəyi dəstəkləyəcək bir çox səhih hədis və əsərlər mövcuddur. Lakin bu yerdə onu da qeyd etmək lazımdır ki, bu şərt rəhbər seçiminin öncəsi üçün keçərlidir. Yəni rəhbər seçildikdən, yaxud təyin edildikdən sonra bu və bu cür şərtlərin keçərliliyi öz qüvvəsini itirir. Belə ki, Qureyşdən olmayan bir şəxs rəhbər təyin edilsə, bu halda “o, Qureyşdən deyildir” əsası, yaxud bəhanəsi ilə ona qarşı çıxmaq və qiyam etmək icazəli deyildir.

[3] Peyğəmbər ﷺ demişdir: *“Kim rəhbərə itaətdən əl çəksə, camaatdan ayrılsa və bu halı ilə ölsə, o, cahiliyyət zamanının ölüsü kimi ölmüş olar”* (Müslim 1848).

*“Rəhbər həbəşi bir kölə də olsa, səbir et!”*[1] Həmçinin ənsarlara belə demişdir: *“Hovuzun ətrafında görüşənə qədər səbir edin”*.[2] Rəhbərə qarşı savaşmaq sünnətdən deyildir. Çünki bu əməldə həm din, həm də dünya üçün fəsad vardır.[3]

**29)** Əgər xəvariclər müsəlmanların canlarına, mallarına, ailələrinə təcavüz etsələr, onlarla döyüşmək icazəlidir. Əgər döyüşdən əl çəksələr, rəhbər onları axtarmamalı, yaralıların üstünə getməməli, onlardan qənimət götürməməli, onlardan əsir düşənləri öldürməməli, döyüşdən qaçanların isə dalınca düşməməlidir.[4]

**30)** Allah sənə rəhm etsin, bil ki, Allaha asilikdə bəşərə itaət yoxdur.

---

[1] Müslim 1837

[2] Buxari 3147 və Müslim 1845

[3] İbn Teymiyyə demişdir: “Nə zaman ki rəhbərin aradan getməsi üçün səy göstərilibsə, bununla ortaya çıxan fəsad onun rəhbər olaraq qalması ilə hasil olan fəsaddan daha böyük olub. Ona görə də daha böyük olan fəsad ilə kiçik fəsadın aradan qaldırılmasına cəhd göstərmək icazəli deyildir. Elə bu səbəbdən də Əhli-sünnətin məşhur nəzər nöqtəsinə əsasən, onlar rəhbərlər zalım olsalar belə, onlara qarşı çıxmağı və onlarla qılınc vasitəsilə döyüşməyi düzgün hesab etmirlər” (Minhəcüs-sünnə 3/391). Şeyxülislam digər yerdə belə deyir: “Beləcə onlar (yəni rəhbərə qarşı çıxan dəstələr) məğlub edildilər. Bu əməlləri ilə də nə dinlərini saxlaya bildilər, nə də ki dünyalarını qura bildilər (yəni həm dinləri, həm də dünyaları əldən getdi). Uca Allah isə nə dünyəvi, nə də ki dini bir qazancı, faydası olmayan bir işi (yəni rəhbərə qarşı çıxmağı) heç vaxt əmr etməz... Bütün bunlar bizə onu göstərir ki, Allah Rəsulunun ﷺ öz ümmətinə rəhbərlərin haqsızlıqlarına səbir etməyi, onlarla döyüşməməyi və onlara qarşı qiyam qaldırmamağı əmr etməsi onların dünya və axirətləri üçün daha xeyirlidir. Kim bilərəkdən və ya səhvən Allah Rəsulunun ﷺ bu əmrinə müxalif olarsa, o, fəsaddan başqa heç bir şey əldə etməyəcəkdir” (Minhəcüs-sünnə 4/527-531). İbn Əbil-İzz demişdir: “Rəhbərlər zalım olsalar belə, onlara qarşı itaətkarlıqdan ayrılmamaq lazımdır. Çünki itaətdən əl çəkib onlara qarşı çıxmaqla ortaya çıxan fəsad onların zülmü səbəbilə ortaya çıxan fəsaddan qat-qat artıq olur” (“Şərhul-əqidə ət-Təhaviyyə” 2/578).

[4] Çünki xəvariclər azmış firqə olsalar da, kafir hesab edilmirlər. Onlar müsəlman sayılırlar, müsəlmanlara qarşı həddi aşmaq isə icazəli deyildir. Müsəlman olan biri ilə savaşmaq isə yalnız zəruriyyət halında və şəriət ölçüləri çərçivəsində icazəlidir.

**31)** Kim İslam əhlindən olsa, onun (aqibətinin) xeyirli və ya pis olacağı barədə şahidlik etmə. Çünki onun hansı hal üzrə öləcəyini bilmirsən. Sadəcə olaraq, Allahın ona rəhm etməsinə ümid etməli, günahlarına görə də onun üçün qorxmalısan. Allahın onun qədərinə nə yazdığını bilmirsən. Ola bilsin ki, ölməzdən əvvəl o peşman olub tövbə etsin və ya həmin anda Allah onu bağışlasın. Ona görə də sən ancaq Allahın ona rəhm edəcəyinə ümid edib, günahlarına görə onun üçün qorxmalısan. Elə bir günah yoxdur ki, qul o günahdan tövbə edə bilməsin.[1]

**32)** Rəcm haqdır.[2]

**33)** Xufların üzərinə məsh çəkmək sünnətdir.[3]

---

[1] Tövbə qapısı iki hal istisna, daima açıqdır. Həmin iki hal:
- Günəşin (Qiyamət gününə yaxın) batdığı yerdən çıxması: Peyğəmbər ﷺ demişdir: *"Günəş batdığı yerdən çıxmayınca Qiyamət qopmaz. Batdığı yerdən çıxdıqda insanlar onu görəcək və hamı iman edəcəkdir. Həmin vaxt isə imanın heç kəsə fayda vermədiyi vaxtdır"* (Buxari 4636).
- Can boğaza gələndə: Peyğəmbər ﷺ demişdir: *"Can boğaza gələnə qədər Allah qulunun tövbəsini qəbul edir"*( Tirmizi 3537, İbn Macə 4253, Əlbani "Səhihul-cəmi" 1903).

[2] Rəcm, yəni daşqalaq etmək – zina etmiş evli birinə tətbiq olunan şəriət cəzasıdır.

[3] Bu məsələdə Peyğəmbərin ﷺ sünnətinə xəvariclər və şiələr müxalif olmuşlar. Belə ki, onlar dəstəmaz zamanı dəridən, yaxud pambıqdan olan ayaq geyimlərinin, yəni xufların və corabların üzərinə məsh çəkilməsini icazəli görməmişlər. Bu səbəbdən də bir çox Əhli-sünnət imamı öz etiqadlarında (yəni etiqada dair qələmə alınmış əsərlərdə) xuflar üzərinə məsh etməyi zikr etmiş və bunu sünnət əhli ilə bidət əhli arasında fərqləndirici bir əlamət kimi qeyd etmişlər. Muhəmməd ibn Nasr əl-Mərvəzi belə demişdir: "Xəvaric və rafizilər kimi bidət əhlindən bəzi tayfalar xuflar üzərinə məsh çəkməyi inkar etmişlər" ("əs-Sünnə" səh. 104). Tabiin imamlarından Sufyan əs-Souri demişdir: "Kim xuflar üzərinə məsh etməyi icazəli saymazsa, onu dininizdə ittiham edin!" (Əbu Nueym "əl-Hilyə" 7/32) Həmçinin Səhl ibn Abdullah ət-Tustəri xuflar üzərinə məsh etməyi Əhli-sünnətin əlamətlərindən biri kimi qeyd etmişdir (Ləlakəi "Şərh üsul əs-Sünnə" 1/33).

**34)** Səfərdə namazları qısaltmaq da sünnətdir.

**35)** Səfərdə ikən vacib orucu istəyən tutar, istəyən açar.

**36)** Şalvarda namaz qılmaqda bir qəbahət yoxdur.[1]

**37)** Nifaq – zahirdə İslamı izhar edib, daxildə küfrü gizlətməkdir.[2]

**38)** Bil ki, dünya iman və islam yurdudur. Buna əsasən də Muhəmmədin ﷺ ümməti dünyada ikən şəriət hökmlərində, miras bölgüsündə, kəsdikləri heyvanlarda və cənazə namazlarında (zahirən) mömin və müsəlman hökmündədirlər. İslamın bütün şəri əhkamlarına riayət etmədikcə heç kəsin həqiqi mömin olmasına dair şahidlik etmə! Əgər bu əhkamlardan birində naqisliyə yol veribsə, tövbə edənə qədər imanı naqis olar. Bil ki, kiminsə imanı

---

[1] Şalvar geyinmək ərəblərin adətindən deyildi. Ərəblər, adətən, izar (göbək ilə dizinin arasını örtən geyim) geyərdilər. Bu isə bədənin yaxşı örtünməsi və bədən əzalarının bəlli olmaması üçün daha münasib idi. Şalvar isə istər-istəməz bədən əzalarını bəlli edir. Bu və başqa səbəblərə görə fəqihlər şalvarda namaz qılmağın icazəli olub-olmamasını müzakirə etmişlər. Müəllifin də qeyd etdiyi kimi, bunun heç bir qəbahəti yoxdur. Əsas olan, namaz zamanı diz ilə göbək arasının örtülü olmasıdır. Dörd fiqhi məzhəbdə də mötəbər olan rəy məhz budur (Bax: "Əd-durrul-muxtar" 2/84, "əl-Məcmu" 3/176, "Bulğatus-səlik" 1/283, "əl-Muğni" 2/287). Müəllifin etiqad əsaslarına dair qələmə aldığı bu kitabda belə bir fiqhi məsələni qeyd etməsinin əsas səbəbi bəzi xəvaric firqələrinin bu məsələdə haqqa müxalif olmaları olmuşdur. Belə ki, onlardan bəziləri izardan fərqli olaraq, şalvarın insanın yanına dəydiyi bəhanəsi ilə natəmizliyə səbəb olacağı və nəticədə, bu cür paltarda qılınan namazın doğru olmayacağı qənaətinə gəlmişlər. Bu barədə Muhəmməd ibn Əhməd əl-Malti (v. h. 377) belə demişdir: "Fiqhi məsələlərdə harurilərin (yəni xəvariclərin) şaz (yəni haqqa və camaata müxalif) rəylərindən biri də budur ki, onlardan bir kəs dəstamaz aldımı, yerindən tərpənməmiş və olduğu yeri tərk etməmiş elə həmin yerdə namazını qılar. Çünki hərəkət edəcəyi təqdirdə yanı tərpənir (və nəticədə paltarının bulanma ehtimalı yaranır). Elə bu səbəbə görə onlar şalvarda namaz qılmazlar" ("ət-Tənbih vər-rad" səh. 68).

[2] Uca Allah münafiqlər barədə belə buyurur: *"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik, Biz möminlərə ancaq istehza edirik!"– deyirlər"* (Əl-Bəqərə: 14).

haqda həqiqi elm, yəni imanının kamil və ya naqis olmasını bilmək yalnız Allaha aiddir. Biz isə yalnız zahirdə İslamın ayinlərini zay etməsini gördükdə nəsə deyə bilərik.[1]

**39)** Qiblə əhlindən ölən biri üçün cənazə namazı qılmaq sünnətdir. Yəni qiblə əhlindən olub da daşqalaq olunan zinakar kişi, zinakar qadın, özünü öldürən, içki içən və digərləri üçün cənazə namazı qılmaq sünnətdir.[2]

**40)** Allahın kitabından hansısa bir ayəni, yaxud Allahın elçisinin ﷺ əsərlərindən nəyisə rədd etmədikcə və ya Allahdan başqası üçün qurban kəsmədiyi, yaxud Allahdan qeyrisi üçün namaz qılmadığı müddətcə biz qiblə əhlindən olan bir kəsi İslamdan çıxartmırıq. Əgər bunlardan birini etsə, o zaman onu İslamdan çıxartmaq sənə vacib olar.[3] Amma bunlardan birini etməyibsə, o kəs həqiqətdə yox, adda (yəni zahirən) müsəlmandır, mömindir.[1]

---

[1] Müəllifin burada qeyd etdiklərinin xülasəsi budur ki, əsli etibarilə biz kiminsə həqiqi mömin olduğunu deyə bilmərik. Çünki insanların qəlblərini bilə bilmirik. İnsan zahirdə İslamı izhar edib, daxilən kafir ola bilər ki, belə birinə də münafiq deyilər. Lakin kim İslamı izhar edərsə, biz onunla müsəlman kimi rəftar edərik. Muhəmməd ﷺ ümməti də bu dünyada zahirən müsəlman hökmündədir. Buna görə də onların mirasları şəriət qaydasına əsasən bölünməli, kəsdikləri heyvanların əti yeyilməli və cənazə namazları qılınmalıdır.

[2] Əhli-sünnətin etiqadına əsasən, böyük günah sahiblərinin cənazə namazları tərk olunmur. Çünki onlar müsəlmandırlar və onlarla müsəlman kimi rəftar olunmalıdır. Müəllifin bu sözləri həm də böyük günah sahiblərini kafir sayan xəvariclərə bir cavabdır. Çünki böyük günah sahiblərinin kafir sayılmayacaqlarına dair dəlillərdən biri belə birinin öldükdən sonra cənazəsinin yuyulması, cənazə namazının qılınması və müsəlman qəbiristanlığında dəfn edilməsidir. Bu, Peyğəmbərin ﷺ zamanından bu günə qədər dəyişməz olaraq gələn bir qaydadır. Əgər böyük günah sahibi asiliyinə görə kafir olsaydı, o zaman onun üzərində bu əhkamların tətbiqi də icazəli olmazdı.

[3] Əhli-sünnət alimlərinin öz kitablarında “kim belə desə, kafir olar”, “kim belə etsə, dindən çıxar” kimi sözləri ümumi hökm ifadə edən sözlərdir. Ümumi hökm ilə xüsusi hökm arasında isə fərq vardır. Belə ki, hər şirk olan əməli işləyən, yaxud hər küfr olan sözü dilə gətirən kəs kafir sayılmadığı kimi, hər küfrə və şirkə düşən kəs də üzrlü hesab edilə bilməz. Bu cür hökmlər nisbi olan, şəxsdən-

**41)** Peyğəmbərin ﷺ *“Qulların qəlbləri Rəhmanın barmaqlarının iki barmağı arasındadır”*[2] hədisi, yaxud *“Allah Təbarəkə və Təalə dünya səmasına enir”*[3], Arafa günü,[4] yaxud Qiyamət günü enəcək[5] kimi hədislər, yaxud Allah ayağını Cəhənnəmə qoymadıqca (Cəhənnəm əhlinin) ora atılması davam edəcək,[6] həmçinin Allahın quluna “*Əgər sən Mənə tərəf yeriyərək gəlsən, Mən sənə tərəf yüyürərək gələrəm”*[7] deməsi, Peyğəmbərin ﷺ *“Həqiqətən Allah Təbarəkə və Təalə Arafa günü enir”* hədisi, yaxud *“Allah Adəmi Öz surətində yaradıb”*[8], *“Mən öz Rəbbimi yuxuda ən gözəl surətdə gördüm”*[9] hədisi və buna oxşar ağlının dərk edə bilmədiyi digər hədisləri eşitdikdə sənə vacib olan bu hədislərə təslim olmaq, onları təsdiq etmək, Allaha həvalə etmək[10]

---

şəxsə müxtəliflilik ərz edən və hüccətin (dəlilin) çatması, üzrün aradan qalxmasına bağlı olan hökmlərdir.

[1] Çünki belə birisi daxilən öz küfrünü gizlədən münafiq də ola bilər.

[2] Müslim 2654

[3] Buxari 1145 və Müslim 758

[4] Təbərani “əl-Mucəmul-kəbir” 12/425, hədis: 13566, Əlbani hədisin həsən olduğunu qeyd etmişdir (Bax: “Səhih ət-Tərğib vət-Tərhib” 1112).

[5] Təbərani “əl-Mucəmul-kəbir” 9763, Dəraqutni “Ruyətullah” 163, Əlbani “Səhihut-tərğib” 3591-də hədisin səhih olduğunu qeyd edir.

[6] Buxari 4848 və Müslim 2848.

[7] Buxari 7405 və Müslim 2675

[8] Buxari 6227 və Muslim 2841

[9] Tirmizi 3233, 3235, imam Tirmizi hədisin səhih olduğunu qeyd etmişdir.

[10] Yəni həmin sifətlərin keyfiyyətini, necəliyini “təfvid” etmək – Allaha həvalə etmək. Burada məqsəd təfvid əhlinin iddia etdiyi kimi sifətlərin mənasını Allaha həvalə etmək deyildir. Bu barədə imam Malik demişdir: “Allahın Ərşə ucalması məlum, bu ucalmanın necəliyi məchul, ona iman etmək vacib və bu haqda sual vermək isə bidətdir” (Dərimi “Ər-rəddu aləl-cəhmiyyə” səh. 280, Sabuni “Əqidətus-sələf” səh. 39, Ləlәkəi “Şərh usuli etiqadi Əhlis-sünnə” 3/398-442, Zəhəbi “əl-Ərş” 2/167). Maliki və əşari alimlərindən olan Əbu Bəkr ibn əl-Arabi etiraf edərək belə demişdir: “İmam Malik bu rəydə idi ki, bu hədislərin hamısının mənası məlumdur. Elə bu səbəbdən də ona sual verənə belə cavab vermişdir: Allahın Ərşə ucalması məlum, bu ucalmanın necəliyi isə məchuldur” (“Arizətul-əhvəzi” 3/166). İnşəallah, yaxın gələcəkdə təfvid əhli və onların etiqadları barədə, həmçinin ortaya atdıqları şübhələrinə cavab olaraq müstəqil bir kitab qələmə almaq niyyətindəyəm. Müvəffəqiyyət Allahdandır!

və onlardan razı qalmaqdır. Bu cür hədislərdən heç bir şeyi öz nəfsi-havanla təfsir etmə. Çünki bunlara iman gətirmək vacibdir. Kim bunlardan bir şeyi öz nəfsi-havasına uyğun bir şəkildə təfsir edərsə, yaxud bu cür hədisləri tamamilə rədd edərsə, o, cəhmidir.

**42)** Kim iddia etsə ki, öz Rəbbini dünyada görüb, həmin kəs Allaha küfr etmiş olar.[1]

**43)** Allah barədə fikirləşmək bidətdir. Çünki Peyğəmbər ﷺ belə demişdir: *"Məxluqlar barədə fikirləşin, Allah barədə isə fikirləşməyin"*.[2] Belə ki, Rəbb barədə fikirləşmək qəlbə şəkk salır.[3]

**44)** Bil ki, qarışqa, milçək kimi həşəratlar, yırtıcı və digər bütün heyvanların hamısı Allahın əmrinə tabedir və Allahın izni olmadan heç nə etmirlər.

**45)** Allahın  əzəldən olanları da, olmayanları da bilməsinə iman gətirmək. Baş verən hər bir şeyi Allah ayrı-ayrılıqda hesaba alıb və sayıb. Kim desə ki, Allah keçmişdə və gələcəkdə olanları bilmir, artıq Əzəmətli Allaha küfr etmişdir.[4]

---

[1] Çünki bu iddianın sahibi Peyğəmbərin ﷺ bu sözünü yalanlamış sayılır: *"Bilin ki, sizdən heç kəs ölənə qədər (yəni bu dünyada) öz Rəbbini görməyəcəkdir"* (Müslim 169).

[2] Əbuş-Şeyx "əl-Azamə" 1/214-215, Əlbani hədisin həsən dərəcəsinə qalxdığını vurğulayır (Bax: "əs-Silsilə əs-Səhiha" 3/395, hədis: 1788).

[3] Ümumiyyətlə, Allahın Zatı barədə düşünmək əbəs, mənasız və faydasız bir şeydir. Çünki Allah sənin Özü barədə düşündüyün hər şeydən bəri və Ucadır. Bizə vacib olan Uca Allahın Zatı barədə deyil, Onun kövni və şəri ayətləri barədə təfəkkür etməkdir. Rəbbimizin bizə əmr etdiyi və bizdən istədiyi də məhz budur.

[4] Uca Allah buyurur: *"O, məxluqatın gələcəyini və keçmişini bilir"* (Əl-Bəqərə: 255)*;"Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz"* (Yunus: 61)*; "O, elm ilə hər şeyi əhatə edir"* (Ta ha: 98).

**46)** Vəlisiz, iki ədalətli şahidsiz, az və ya çox olmasından asılı olmayaraq mehirsiz nikah batildir.[1] Kimin ki, vəlisi yoxdur, rəhbər vəlisi olmayanın vəlisi olur.[2]

**47)** Kişi qadını üç dəfə boşayarsa, qadın ona haram olar. Başqa bir kişiyə ərə gedib ondan boşanmayınca, ona halal olmaz.[3]

**48)** "Əşhədu ən lə iləhə illəllah, əşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu" şəhadətini deyən bir müsəlmanın qanı yalnız bu üç halda halal olur: Evlilikdən sonra zina etsə, iman gətirdikdən sonra İslamdan çıxıb mürtəd olsa və haqsız yerə bir müsəlmanı öldürsə. Bu üçü istisna olmaqla, müsəlmanın qanı Qiyamət saatına qədər (toxunulmazdır) haramdır.[4]

---

[1] Bu fiqhi bir məsələdir. Bu məsələdə Əbu Hənifə digər üç imama – Malik, Şafi və Əhmədə müxalif olmuşdur. Belə ki, ona görə qadın vəlisiz özünü nikahlaya bilər. Müəllifin belə bir məsələni əqidə kitabında qeyd etməsinin əsas səbəbi bu məsələ ilə əlaqədar varid olan hədislərə əməl etməyi sünnətə tabeçiliyin tələbi olaraq görməsidir. Peyğəmbər ﷺ demişdir: *"Vəlisiz nikah batildir"* (Əbu Davud 2085, Tirmizi 1101, İbn Macə 1881, hədis səhihdir). İbn Munzir demişdir: "Bu məsələ ilə əlaqədar ən-Nomanın (yəni Əbu Hənifənin) dediyi sünnətə müxalifdir" ("əl-Ausat" 8/267). İbn Əbu Şeybə "əl-Müsənnəf" adlı əsər – hədis kitabında "ər-Raddu alə Əbi Hənifə", yəni "Əbu Hənifəyə cavab" adlı geniş bir bölüm açmış və orada Əbu Hənifənin əməl etmədiyi, yaxud müxalif olduğu hədisləri, o cümlədən də bu məsələni qeyd etmişdir.

[2] Peyğəmbər ﷺ demişdir: *"Vəlisi olmayanın vəlisi sultandır (yəni rəhbər, yaxud onu əvəz edən biri)"* (Əbu Davud 2083, Tirmizi 1102, İbn Macə 1879, hədis səhihdir. Bax: "İrvaul-ğalil" 1840). Bu hədis də vəlisiz nikahın batil olduğuna dəlalət edir. Belə ki, Peyğəmbər ﷺ vəlisi olmayan qadını belə öz ixtiyarına buraxmamışdır.

[3] Uca Allah buyurur: *"Boşanma iki dəfə olar. Bundan sonra qadını şəriətə müvafiq qaydada saxlamaq, yaxud xoşluqla buraxmaq gərəkdir... Əgər onu üçüncü dəfə boşayarsa, bundan sonra o qadın başqa bir kişiyə ərə getməyincə ona (əvvəlki ərinə) halal olmaz. Əgər sonrakı əri onu boşasa, Allahın hədlərini yerinə yetirəcəklərini güman etdikləri təqdirdə, yenidən əlaqə qurmalarında ikisinə də heç bir günah yoxdur. Bunlar Allahın hədləridir, onları anlayan adamlara bəyan edir"* (Əl-Bəqərə: 229-230).

[4] Müəllifin bu dedikləri eyni ilə Peyğəmbərin ﷺ hədisindən iqtibas edilmişdir (Bax: Buxari 6878 və Müslim 1676).

**49)** Allah nəyin fani olacağını vacib buyurubsa, hamısı fani olacaq. Bundan yalnız Cənnət, Cəhənnəm, Ərş, Kürsi, Lövhi-Məhfuz, Qələm və Sur istisna olacaq. Kim hansı əməl üzərində ölübsə, Qiyamət günü Allah onu həmin halda dirildəcək və istədiyi kimi onları haqq-hesaba çəkəcəkdir. Onların bir qismi Cənnətdə, bir qismi isə Cəhənnəmdə olacaqdır. Hansı məxluq əbədi qalmaq üçün yaradılmayıbsa, Allah onlara "torpaq olun!" deyəcək.[1]

**50)** Qiyamət günü bütün məxluqlar: Adəm övladları, yırtıcı heyvanlar və həşəratlar, hətta qarışqalar arasında belə qisasın olacağına etiqad etmək. Allah birinin qisasını digərindən alacaq. Cənnət əhlinin qisasını Cəhənnəm əhlindən, Cəhənnəm əhlinin qisasını Cənnət əhlindən alacaq. Hətta Cənnət əhli bir-birindən və Cəhənnəm əhli də bir-birindən qisas alacaqdır.[2]

**51)** İxlaslı əməl Allah üçündür.

**52)** Allahın qəza və qədərindən razı qalmaq, Allahın hökmünə səbir etmək[3] və Allahın dediklərinə iman gətirmək. Allahın təqdir

---

[1] Əbu Hureyrə ﷺ demişdir: *"Qiyamət günü Uca Allah bütün yaradılmışları: insanları, heyvanları və quşları hesaba çəkəcək və daha sonra heyvanlara və quşlara "torpaq olun!" deyəcəkdir. Elə bu zaman kafir: "kaş mən də torpaq olaydım",- deyəcəkdir"* (Təbəri təfsirində səhih bir sənədlə rəvayət etmişdir: 7/188 və 30/26, bax: "əs-Silsilə əs-Səhiha" 4/606, hədis: 1966). Uca Allah belə buyurur: "*O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: Kaş mən də torpaq olaydım!"* (Ən-Nəbə: 40)

[2] Əbu Hureyrə ﷺ demişdir: *"Yer üzündə gəzən elə bir heyvan və havada uçan elə bir quş olmayacaqdır ki, Qiyamət günü hesaba çəkilməsin. Daha sonra bir-birlərinin haqqını ödəmək üçün aralarında qisas olacaqdır, hətta buynuzu qırılmış qoçun belə qisası alınacaqdır"* (İbn Rahaveyh "əl-Müsnəd" 322). Uca Allah belə buyurur: *"Yer üzündə gəzən heyvanların və göydə uçan iki qanadlı quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanılacaqlar"* (Əl-Ənam: 38).

[3] Başa gələn müsibətlərə qarşı səbir etmək ilə onlardan razı qalmaq arasında fərq vardır. Qədərə qarşı səbir etmək: başa gələn müsibətlərə qarşı qəlbi qəzəbdən, dili etiraz və şikayətlərdən, əli isə üzə və başa vurmaqdan qorumaqdır. Bu, yəni qədərə qarşı səbir etmək bütün alimlərin ittifaqı ilə vacibdir. Qədərə qarşı razılıq göstərmək isə insanın başına müsibət gələn anda sanki bu müsibət gəlməmiş

etdiyinə, qədərin xeyrinə və şərinə, şirininə və acısına iman etmək. Allah qulların nə əməl etdiyini, axırda hara gedəcəyini bilir. Onlar Allahın elmindən kənara çıxa bilməzlər. Göylərdə və yerdə yalnız və yalnız Uca Allahın bildiyi bir şey ola bilər. Bil ki, başına gələn şey səndən yan keçməyəcək, səndən yan keçən isə başına gəlməyəcəkdir. Allahla yanaşı başqa bir Xaliq yoxdur.

**53)** Cənazə namazında təkbirlərin sayı dörddür.[1] Bu, Məlik ibn Ənəsin, Sufyan əs-Sovrinin, Həsən ibn Salehin[2], Əhməd ibn Hənbəlin və fəqihlərin sözüdür. Allahın elçisi ﷺ də belə demişdir.[3]

**54)** Hər bir yağış damlası ilə göydən enən bir mələyin olduğuna iman etmək. Həmin mələk o damcını Allahın əmr etdiyi yerə qoyar.[4]

**55)** Peyğəmbər ﷺ Bədr günü quyuya atılmış müşriklərlə danışdıqda, onların (müşriklərin ölülərinin) onun danışdıqlarını eşitdiklərinə iman gətirmək.[5]

---

kimi tam sakin və qəlb rahatlığı içərisində bunu qarşılamasıdır. Allahın hökmünə qarşı razılıq göstərmək səbir etməkdən daha ali bir mərtəbədir. Bunun hökmü isə daha doğru rəyə əsasən vacib yox, müstəhəbdir (yəni bəyənilən əməldir).

[1] Peyğəmbərdən ﷺ və onun əshabından rəvayət olunmuş səhih əsərlərin dəlalət etdiyi və əksər alimlərin dediyi də məhz budur. Lakin Allah elçisinin ﷺ və əshabının bəzi hallarda dörd təkbirdən artıq, məsələn: beş, yeddi, yaxud doqquz təkbir aldıqları da sabit olmuşdur. Bu barədə geniş məlumat almaq istəyən imam Əlbaninin "Əhkəmul-cənəiz" kitabına, 141-ci və ondan sonrakı səhifələrə müraciət edə bilər.

[2] Həsən ibn Saleh əl-Həmədani Küfənin fəqihlərindən və abidlərindən idi. Hicrətin 100-cü ilində dünyaya gəlmiş, 167-ci ildə vəfat etmişdir.

[3] Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Nəcaşi öldüyü gün onun ölümünü elan etdi, səhabələrlə birgə musalləyə (namaz qılınacaq yerə) çıxdı, səfləri düzəltdi və dörd təkbir gətirdi (Buxari 1245 və Muslim 951).

[4] Bu barədə Peyğəmbərdən ﷺ hər hansısa bir hədis sabit olmamışdır, lakin bəzi tabiinlərdən əsərlər nəql olunmuşdur. Bax: Əbuş-Şeyx "əl-Azamə" 3/968, "Təfsir ət-Təbəri" 14/19-20, "Təfsir İbn Kəsir" 3/322, 4/305.

[5] Ölülərin eşidib-eşitməməsi məsələsi alimlər arasında ixtilaflı bir mövzudur. Bu mövzu ilə əlaqədar alimlərin əsasən üç görüşü vardır:

**56)** Bir kəs xəstələndikdə Allahın onun xəstəliyinə görə ona əcr verməsinə iman gətirmək.[1] Şəhidə isə öldürüldüyünə görə əcr verir.[2]

---

- Ölülər mütləq şəkildə eşitmir.
- Ölülər mütləq şəkildə eşidir.
- Ölülər Allahın onlar üçün təyin etdiyi bəzi vaxtlarda müəyyən səsləri eşidir.

Bu məsələ ilə əlaqədar ən doğu olan rəy qeyd etdiyimiz sonuncu – üçüncü rəydir. Çünki Peyğəmbərin ﷺ sünnəti və səhabə əsərləri ölülərin eşitdiklərinə dəlalət edir. Həmin dəlillərdən biri də elə müəllifin qeyd etdiyi "Bədr quyuları" hədisidir. Buna əsasən, birinci rəyin xətalı olduğunu deyirik. Həmçinin əsərlərin ölülərin mütləq şəkildə deyil, məhz Allahın onlar üçün təyin etdiyi vaxtlarda və müəyyən səsləri eşitdiyinə dəlalət etdiyini görürük. Bu da ikinci rəyin xətalı olduğunu göstərir. Buna misal olaraq Peyğəmbərin ﷺ bu sözünü qeyd etmək olar: *"Bəndə (cənazə) qəbrinə qoyulduğu və dostlarının onu tərk edib getdikləri zaman onların ayaq səslərini eşidər"* (Buxari 1338 və Müslim 2870). Hədisə diqqət yetirdikdə ölülərin mütləq şəkildə – daima və hər səsi eşitmədiklərini anlamış olarıq. Belə ki, ölü daima deyil, məhz dostlarının onu tərk edib getdikləri zaman və hər səsi deyil, məhz onların ayaq səslərini eşidər. Həmçinin müəllifin qeyd etdiyi "Bədr quyuları" hədisini də misal göstərmək olar. Belə ki, Peyğəmbər ﷺ müşrik cəsədlərinin atıldığı Bədr quyularının başında duraraq *"İndi Rəbbinizin sizə vəd etdiyinin (əzabın) haqq olduğunu gördünüzmü?"* – demişdir. Bunu eşidən səhabələr *"ey Allahın elçisi ﷺ, məgər onlar səni eşidirlərmi?"* – dedikdə Allah elçisi ﷺ *"dediklərimi sizdən daha yaxşı eşidirlər"*, – deyə cavab verdi (Müslim 2874). Fikir verin! Səhabələr belə bu hala təəccüb etmişdilər. Çünki onların da bu məsələ ilə əlaqədar bildikləri və etiqad etdikləri bu idi ki, ölülər eşitmir. Elə bu səbəbdən də Aişə anamız bu hədisi *"Onlar indi mənim dediklərimin haqq olduğunu bilirlər"* ləfzi ilə rəvayət etmiş və Uca Allahın bu ayəsini oxumuşdur: *"Sözsüz ki, sən ölülərə eşitdirə bilməzsən"* (Ən-Nəml: 80). Lakin Allah rəsulu ﷺ öz əshabına ölülərin onu məhz o anda eşitdiyini xəbər verərək belə demişdir: *"Onlar indi mənim dediklərimi eşidirlər"* (Buxari 3980). Hədisin ravisi tabiin Qatədə belə demişdir: "Alçalsınlar, peşmançılıq duyub sıxıntı və həsrət içərisində qıvrılsınlar deyə Allah onlara həyat verdi ki, Peyğəmbərin ﷺ sözünü eşitsinlər" (Buxari 3976).

[1] Peyğəmbər ﷺ demişdir: *"Xəstəlikdən və digər sıxıntılardan əziyyət çəkən elə bir müsəlman yoxdur ki, ağac öz yarpaqlarını tökdüyü kimi, Allah da onun günahlarını bu sıxıntı səbəbilə töküb təmizləməsin"* (Buxari 5647 və Müslim 2571).

[2] Uca Allah buyurur: *"Allaha və Onun elçilərinə iman gətirənlər – məhz onlar doğru olanlardır. Şəhidlər isə öz Rəbbi yanındadırlar. Onların öz mükafatları və öz nurları vardır"* (Əl-Hədid: 19).

**57)** Uşaqların dünyada başlarına gələn bir şeyə görə onların ağrı çəkmələrinə etiqad etmək. Bu ona görədir ki, xəvariclərdən olan Bəkr ibn Uxti Abdulvahidin "uşaqlar ağrı çəkmirlər", – dedi və yalan danışdı.[1]

**58)** Bil ki, Cənnətə girən yalnız Allahın rəhməti ilə girəcəkdir.[2] Allah kimə əzab verərsə, yalnız onun günahlarına görə və günahlarının miqdarınca əzab verər. Əgər Allah göylərdə və yerlərdə olanların hamısına – istər saleh insanlara, istər günahkarlara əzab versəydi, yenə də onlara zülm edərək əzab vermiş sayılmazdı. Allaha zalım demək icazəli deyil. Çünki zalım – özünə aid olmayan və haqqı çatmayan bir şeyi əldə edənə deyərlər.[3] Yaratmaq və əmr etmək isə yalnız Allaha məxsusdur.

---

[1] Bəkr ibn Uxti Abdulvahid ibn Zeyd əl-Bəsri zahid birisi, o cümlədən də xəvariclərdən idi. Asilik edən hər kəsin, hətta zarafatla yalan danışanın belə kafir olduğuna etiqad edərdi. Onun batil fikirlərindən biri də "uşaqların ağrı çəkməmələri" fikri idi. İbn Həzm onun bu gülünc və batil sözünə cavab verərkən belə demişdir: "Hər birimiz uşaq olmuşuq və uşaq ikən dözə bilmədiyimiz ağrıları çəkdiyimizi xatırlayırıq" ("əl-Fasl" 3/68, Əşari "Məqalətul-İsləmiyyin" səh. 286-287).

[2] Peyğəmbər ﷺ demişdir: *"Heç kəs Cənnətə öz əməli ilə girməyəcəkdir"* (Buxari 6464 və Müslim 2818). Yəni Cənnətə girəcək olanlar öz əməllərinin müqabilində deyil, məhz Allahın rəhməti ilə Cənnətə girəcəklər. Çünki iş insanların əməllərinə qalsaydı, heç kəs Cənnətə girə bilməzdi. Cəhənnəmə girəcək olanlar isə Allahın onlara zülm etməsinə görə deyil, öz əməllərinə görə Cəhənnəmə vasil olacaqlar.

[3] Peyğəmbər ﷺ demişdir: *"Əgər Allah səmaların və yerin əhlinə əzab etsəydi, onlara zülm etmədən əzab edərdi. Əgər onlara rəhm etsə, Onun onlara olan rəhməti öz əməllərindən onlar üçün daha xeyirli olardı"* (Əbu Davud 4699, İbn Macə 77, hədis səhihdir). Müəllif də öz sözünü bu hədisdən iqtibas etmişdir. Daha sonra müəllif bu hədisi izah yönündən qeyd etmişdir ki, Uca Allah göy və yer əhlinə əzab etsəydi, yenə də zalım sayılmazdı. Çünki zalım – özünə aid olmayan və haqqı çatmayan bir şeyi əldə edənə deyilər. Göylərdə və yerdə olan hər şey isə Uca Allahın mülküdür və O öz mülkündə istədiyini edəndir. O etdiyindən soruşulmaz. Müəllifin bu sözləri Qədəri firqəsinə qarşı münaqişə yönündən deyilmiş tamamilə doğru və yerində olan bir sözdür. Çünki qədərilərə görə zülm – sənə aid olmayan, sənin haqqın çatmayan şeyi əldə etməyindir. Var olan hər şey isə Allahındır. Deməli, varlıq aləmində elə bir kəs yoxdur ki, Onun

Məxluqlar onun yaratdıqlarıdır, bu kainat da Onundur. O etdikləri haqda soruşulmaz, məxluqlar isə soruşulacaqlar. Allah barədə "nə üçün?", "necə" sualları verilməz. Allahla Onun məxluqları arasına heç kim girə bilməz.

**59)** Bir kəsin əsərlərə (yəni hədislərə) tənə edib, onları qəbul etmədiyini və ya Peyğəmbərin ﷺ verdiyi xəbərlərdən nəyisə inkar etdiyini görsən, onun müsəlman olmasında şübhə et! Çünki bu insanın fikirləri və tutduğu yol pisdir və o belə etməsi ilə Peyğəmbərə ﷺ və onun əshabına tənə etmiş sayılır. Çünki biz Allahı, Onun elçisini ﷺ, Quranı, xeyiri və şəri, dünya və Axirəti hədislərin vasitəsilə tanımışıq.[1] Sünnətin Qurana olan ehtiyacından daha çox Quranın Sünnətə ehtiyacı var.[2]

**60)** Xüsusilə qədər mövzusunda kəlama yönəlmək, mübahisə və münaqişə etmək bütün firqələrə görə qadağandır. Çünki qədər Allahın sirridir və Rəbbimiz peyğəmbərlərə qədər barədə danışmağı qadağan etmişdir. Həmçinin Allahın elçisi ﷺ də qədər mövzusunda mübahisə etməyi qadağan edib. Peyğəmbərin səhabələri, onlardan sonra gələn tabiinlər də bunu bəyənməyiblər. Alimlər, Allahdan qorxan kəslər də bu mövzuda danışmağı sevməyiblər və qədər barədə mübahisə etməyi qadağan ediblər. Buna görə sən də təslim olub, təsdiqləyib, iman gətirməli,

---

mülkündən kənarda qalsın və O həmin kəsə əzab etdikdə bu əzab zülm adlansın. Yuxarıda qeyd edilən hədisin şərhinə gəldikdə isə, yəni Uca Allah göy və yer əhlinin hamısına əzab etsə belə, bu əzabı ilə onlara zülm və haqsızlıq etmiş sayılmaz. Əksinə onlar bu əzaba haqq qazandıqlarına görə əzaba düçar olarlar. Çünki Uca Allah belə buyurur: *"Biz onlara zülm etmədik, lakin onlar özləri zalım idilər"* (Əz-Zuxruf: 76) ; *"Biz onlara zülm etmədik, lakin onlar özləri özlərinə zülm etdilər"* (Hud: 101).

[1] Peyğəmbər ﷺ demişdir: *"Çox çəkməz ki, kişi öz taxtında dirsəklənmiş halda oturarkən ona mənim hədisim danışılar, o isə belə deyər: "Bizimlə sizin aranızda (hökm vermək üçün) Allahın Kitabı vardır. Onun içində nəyin halal olduğunu görsək, onu halal, nəyin haram olduğunu görsək, onu da haram qəbul edərik". Diqqətli olun! Peyğəmbərin ﷺ haram etdiyi də eyni ilə Allahın haram etdiyi kimidir"* (Tirmizi 2664, hədis səhihdir. Bax: "Səhihul-cəmi" 2657).

[2] Çünki Quranı şərh edən və açıqlayan məhz sünnətdir.

Peyğəmbərin ﷺ dediklərinə etiqad etməli, bundan savayı olanlar barədə isə susmalısan.

**61)** Allahın elçisinin ﷺ gecə ikən səmaya aparılıb Ərşə qaldırılmasına və Allahla danışmasına iman gətirmək. O, Cənnətə daxil olub və Cəhənnəmi, həmçinin mələkləri görüb, Allahın kəlamını eşidib, Ona peyğəmbərlər göstərilib, Ərşin ətrafında olan divarları və Kürsini də görüb. O, səmalarda və yerlərdə olanları oyaq ikən görüb. [1] Cəbrayıl onu Buraqın üstündə apararaq səmalarda gəzdirib. [2] Namaz ona həmin gecə fərz edilib. Peyğəmbər ﷺ elə həmin gecə də Məkkəyə geri qayıtmışdır. Bu hadisə hicrətdən əvvəl baş vermişdir.[3]

**62)** Bil ki, şəhidlərin ruhları yaşıl quşların sinəsində, Cənnətdə uçuşur. Möminlərin ruhları Ərşin altındadır.[4] Kafir olanların və günahkarların ruhları isə Bərəhut quyusunda, Siccindədir.[1]

---

[1] Əhli-sünnətin etiqadına əsasən, Peyğəmbər ﷺ yuxuda deyil, oyaq ikən, həm cismi, həm də ruhu ilə birlikdə göylərə qaldırılmışdır. Əks halda o bu hadisəni Məkkə müşriklərinə xəbər verdikdə heç kəs bunu təəccüblə qarşılamaz və inkar etməzdi. Onların bunu inkar etmələrinə səbəb Peyğəmbərin ﷺ bütün bunların yuxuda deyil, məhz oyaq ikən baş verdiyini xəbər verməsi olmuşdu.

[2] Buraq – Peyğəmbərin ﷺ üzərində merac etdiyi heyvanın adıdır. Onun vəsfi barədə Allah elçisi ﷺ belə demişdir: *"O, ağ rəngli, uzunqulaqdan bir az böyük, amma qatırdan balaca bir heyvandır. Hər addımı gözün görəcəyi son həddə qədər idi"* (Buxari 3207 və Müslim 162).

[3] İsra ilə merac arasında fərq vardır. Belə ki, İsra – "gecə səyahəti" deməkdir, yəni Peyəmbərin ﷺ gecə ikən Məkkədən, yəni Məscidul-həramdan Qüdsə, yəni Məscidul-əqsaya Buraq üzərində səfər etdiyi gecə. Uca Allah bu barədə belə buyurur: *"Dəlillərimizdən bəzisini ona (Peyğəmbərə) göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidul-haramdan ətrafını bərəkətli etdiyimiz Məscidul-Əqsaya aparan Allah pak və müqəddəsdir. Həqiqətən, O, Eşidəndir, Görəndir"* (Əl-İsra: 1). Merac isə "göyə yüksəlmək" deməkdir. Yəni Peyğəmbərin ﷺ Məscidul-əqsadan yeddinci qat səmaya, oradan da Cənnətə və nəhayətdə Ərşə qədər yüksəlməsidir.

[4] Uca Allah buyurur: *"Allah yolunda öldürülənləri əsla ölmüş sanma! Əksinə, onlar diridirlər; özlərinin Rəbbi qatında ruzilənirlər"*( Ali-İmran: 169). Bu ayə barədə səhabə Abdullah ibn Məsuddan ؓ soruşulduqda o belə cavab verdi: *"Onların (yəni şəhidlərin) ruhları yaşıl quşların içindədir. Onların Ərşdən*

**63)** Ölən insanın qəbirdə əyləşdirilib, Allahın onun ruhunu qaytarmasına, Münkər və Nəkir adlı iki mələyin ondan iman və onun hökmləri barədə soruşmasına, daha sonra ruhunun ağrısız şəkildə ondan çıxarılmasına iman gətirmək. Ölən kəs onu ziyarət edəni tanıyır.[2] Mömin öz qəbrində nemətlərdən ləzzət alır, günahkara isə Allahın istədiyi şəkildə əzab verilir.[3]

**64)** Bil ki, xeyir və şər Allahın qəza və qədəri ilə olur.

**65)** İmran oğlu Musanın Tur dağına getdiyi gün onunla danışanın Allah olduğuna iman etmək. Musa Allahın kəlamını səslə və öz qulaqları vasitəsilə eşitmişdir. Onun qulağına çatan başqasının deyil, məhz Allahın kəlamı idi. Kim bundan başqasını desə, artıq əzəmətli Allaha qarşı küfr etmişdir.[4]

---

*asılmış qəndilləri (yuvaları) vardır. İstədikləri kimi Cənnətdə dolaşar və daha sonra həmin qəndillərə qayıdarlar”* (Müslim 1887).

[1] Bərahut – Yəmənin Hadramovt bölgəsində bir vadinin adıdır. Həmin vadidə elə bu adda, yəni Bərəhut adında son dərəcə dərin olan bir quyu mövcuddur. Quyunun dibi görünmədiyi üçün dərinliyinin dəqiq neçə metr olduğu bilinmir. Əli ibn Əbu Talibdən ﷺ belə dediyi rəvayət olunmuşdur: *“Ən xeyirli quyu Məkkədə yerləşən Zəm-zəm quyusudur. Ən şərli quyu isə kafirlərin ruhlarının içində toplandığı Bərəhut quyusudur”* (Əbdürrəzzaq “əl-Müsənnəf” 5/116, hədis: 9118, əl-Əzraqi “Əxbari Məkkə” səh. 50, səhih əsərdir).

[2] Peyğəmbər ﷺ demişdir: *“Bir kəs onu bu dünyada tanıyan ölmüş mömin qardaşının qəbrinin yanından keçərkən ona salam versə, onu tanıyar və salamına cavab verər”* (İbn Əbdülbər “əl-İstizkar” 1/185). Abdullah ibn Mübarək (“Məcmuul-fətava” 24/331), Əbdülhaq əl-İşbili, Qurtubi (“əl-Mufhim” 1/500), şeyxülislam İbn Teymiyyə (“Məcmuul-fətava” 24/173), İraqi (“Təxricul-İhya” 4/491), Suyuti (“Əlhavi” 2/302), Şoukəni (“Neylul-Əvtar” 3/304) və digər alimlər bu və bu mənada olan hədislərin səhih olduğunu qeyd etmişlər.

[3] Bu barədə Peyğəmbər ﷺ demişdir: *“Qəbir ya Cənnət bağlarından bir bağ, ya da Cəhənnəm çuxurlarından bir çuxurdur”* (Tirmizi 2460).

[4] Uca Allah buyurur: *“Allah Musa ilə sözlə danışdı”* (Ən-Nisə: 164); *“Musa təyin etdiyimiz vaxtda gəlib, Rəbbi onunla danışınca...”* (Əl-Əraf: 143).

**66)** Ağıl yaradılıb və hər bir insana Allahın istədiyi qədər ağıl verilib. İnsanlar ağıl cəhətdən fərqlənirlər. Hətta aralarındakı fərq səmalarla bir toz dənəsinin arasındakı fərq qədər olur. Hər bir insandan ona verilən ağıl qədər əməl tələb olunur. Ağıl sonradan qazanılmır, o yalnız Allahın lütfüdür.

**67)** Bil ki, Allah həm din, həm də dünya işlərində insanların birini digərindən üstün edib. Allah ədalətlidir. Allah barədə "zülm edib" və ya "qərəzlilik edib" demək icazəli deyil. Kim desə ki, "Allah möminlə kafiri bərabər tutub", o kəs artıq bidət etmişdir. Əksinə, Allah mömini kafirdən, itaətkarı günahkardan, qoruduğunu da köməksiz buraxdığı kəsdən üstün edib. Bu da Allahın ədalətli olmasına görədir. Bu, Allahın lütfüdür, onu istədiyinə verir, istədiyini də məhrum edir.[1]

**68)** Əməlisaleh, yaxud günahkar heç bir müsəlmandan din barədə nəsihəti gizlətmək halal deyildir.[2] Kim gizlətsə, artıq müsəlmanları aldatmışdır. Kim də müsəlmanları aldatsa, dinə xəyanət etmişdir. Dinə xəyanət edən kəs də Allaha, Onun elçisinə ﷺ və möminlərə xəyanət etmişdir.

**69)** Allah Təbarakə və Təalə Eşidəndir, Görəndir, hər şeyi Biləndir. Onun hər iki əli açıqdır. Allah insanları yaratmazdan əvvəl bilirdi ki, Ona asi olacaqlar. Onun məxluqatı barədə öncədən bildikləri onların üzərində həyata keçir. Onlar barədə bildiyi bu həqiqət onları İslama hidayət etməsinə mane olmur. Bu da Allahın onlara qarşı səxavətli, əliaçıq və lütfkar olmasından irəli gəlir. Həmd yalnız Ona məxsusdur.

---

[1] Uca Allah buyurur: *"Allah ruzi baxımından birinizi digərindən üstün etmişdir"* (Ən-Nəhl: 71); *"Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi? De: Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar"* (Əz-Zumər: 9).

[2] Yəni hər bir müsəlman din qardaşına qarşı son dərəcə səmimi olmalı, daima onun üçün xeyir istəməli, ona yaxşı işləri tövsiyə edib, onu daima pis və münkər olan əməllərdən çəkindirməlidir.

**70)** Bil ki, ölüm anında üç növ müjdələmək vardır:
- "Ey Allahın sevimli qulu, Allahın rizası və Cənnət ilə müjdə olsun sənə!" – deyilər;
- "Ey Allahın düşməni, Allahın qəzəbi və Cəhənnəmlə müjdə olsun sənə!" – deyilər;
- "Ey Allahın qulu, intiqamdan sonra Cənnətlə müjdə olsun sənə!" – deyilər.[1] Bu isə İbn Abbasın ﷺ sözüdür.[2]

**71)** Bil ki, Cənnətdə Allahı ilk görənlər (bu dünyada) gözləri görməyən korlar, daha sonra kişilər, sonra isə qadınlar olacaqdır.[3] Onlar Allahı (qəlb gözü ilə deyil), məhz həqiqi gözləri ilə görəcəklər. Allahın elçisi ﷺ belə demişdir: *"Bədrlənmiş ay gecəsində ayı gördüyünüz kimi, Rəbbinizi görəcəksiniz və Onu görmək üçün bir çətinlik çəkməyəcəksiniz"*.[4] Buna iman gətirmək vacibdir, bunu inkar etmək isə küfrdür.

**72)** Allah sənə rəhm etsin! Bil ki, zındıqlığın, küfrün, şübhələr və bidətlərin, zəlalətin və dində şəkkə düşməyin səbəbi yalnız və yalnız kəlam elmi, kəlam əhli, dini mübahisə və münaqişələrdir. Uca Allah *"Allahın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər"*[5] – dedikdən sonra insanın yenə də dini münaqişə və mübahisələrə cürət etməsi necə də təəccüblüdür! Sənə vacib olan əsərlərə və əsər əhlinə təslim olub, razı qalmaq, bununla kifayətlənib susmaqdır.

---

[1] Burada "intiqam" deyildikdə bəndənin Cəhənnəmdə, yaxud qəbirdə əzab çəkdikdən sonra Cənnətə haqq qazanması nəzərdə tutulur. Doğrusunu Allah bilir.
[2] Əl-İşbili "əl-Aqibə fi zikril-movt" səh. 118
[3] Korların Allahı ilk görəcəklərinə dair bəzi əsərlər nəql olunmuşdur. Onlardan biri də tabiin Həsən əl-Bəsridən nəql olunan rəvayətdir. Lakin əsərin sənədi zəifdir (Ləlakəi 924).
[4] Buxari 554 və Müslim 633
[5] Ğafir: 4

**73)** Allahın insanlara Cəhənnəm odunda əzab verəcəyinə iman gətirmək. Onların boyunlarında və əllərində qandallar, özləri isə zəncirlərə bağlanmış olacaqdır. Od onların içində, üstündə, altında da olacaq.[1] Bu ona görə qeyd edilir ki, Hişəm əl-Futi kimi cəhmilər deyir ki, Allah onlara yalnız odun kənarında əzab verəcək. Belə demək isə Allahın və Rəsulunun ﷺ sözünü rədd etmək deməkdir.[2]

**74)** Bil ki, fərz namazları beş vaxt qılınır. Onları nə artırmaq, nə də vaxtlarını azaltmaq olmaz. Səfərdə isə Məğribdən başqa bütün namazlar iki rükət qılınır. Kim namazların vaxtının beşdən çox və ya az olduğunu desə, o artıq bidət etmişdir. Uca Allah yalnız vaxtında qılınan namazı qəbul edir. Unudulan namaz isə istisnadır, çünki belə birisi üzrlü sayılar. Lakin yadına düşən kimi namazı qılmalıdır. Həmçinin müsafir olması da istisnadır. Belə halda istəsə, iki namazı birləşdirib bir vaxtda qıla bilər.[3]

---

[1] Uca Allah buyurur: *"O zaman ki boyunlarında dəmir halqalar və zəncirlər olduğu halda, qaynar suya tərəf sürüklənəcəklər, sonra odda yandırılacaqlar"* (Ğafir: 71-72); *"Onların üstündə də oddan təbəqələr, altında da oddan təbəqələr olacaqdır"* (Əz-Zumər: 16); *"Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir. Bununla, onların bətnlərindəkiləri və dərisi əridiləcəkdir"* (Əl-Həcc: 19-20).

[2] Hişəm ibn Amır əl-Futi öz zamanında Mötəzilə məzhəbinin şeyxlərindən biri olub. Onun ardıcıllarına "hişəmiyyə" deyilərdi. Allahın ad və sifətlərini inkar edənlərə ümumi bir vəsf olaraq cəhmi deyildiyinə görə, burada da müəllif onu cəhmi olaraq adlandırmışdır. Tərcümeyi-halı və batil fikirləri ilə tanış olmaq üçün bu əsərlərə müraciət etmək olar: "Siyər ələmun-Nubəla" 10/547, "Lisənul-mizən" 6/195

[3] Bu sözləri ilə müəllif namazları üzrsüz yerə birləşdirən rafizilərə cavab vermiş olur. Çünki onlar heç bir üzr olmadan Zöhr və Əsri, Məğrib ilə də İşanı birləşdirir və gün ərzində beş vaxt deyil, üç vaxt namaz qılırlar. Uca Allah isə belə buyurur: *"Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir"* (Ən-Nisə: 103). Namazın adları onun vaxtlarından götürülmüşdür. Gündəlik fərz olan namazların beş fərqli adı olduğuna görə, deməli, onların bir-birindən fərqli və ayrı beş vaxtı vardır.

**75)** Zəkat Peyğəmbərin ﷺ dediyi kimi, qızıl, gümüş, xurma, dənli bitkilər və heyvanlardan çıxarılır. Zəkat çıxaran kəs onu həm özü paylaya bilər, həm də başçıya verə bilər.

**76)** Bil ki, İslam dininə girmək "Əşhədu ən lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rasuluhu" şəhadətini deməklə olur.

**77)** Bil ki, Allah nə deyibsə, Onun dediyi kimidir və O Öz dediyinə xilaf olmur, dediyini yerinə yetirir.

**78)** Şəriətin hamısına iman etmək.

**79)** Bil ki, müsəlmanların bazarlarında nə qədər ki ticarət Quranda, İslamda və sünnətdə varid olmuş əhkamlara uyğundur və nə qədər ki bu ticarətə hiylə, zülm, haqsızlıq sirayət etməyib və o, Qurana və şəriət elminə müxalif deyil, o ticarət halaldır.

**80)** Allah sənə rəhm etsin! Bil ki, hər bir bəndə dünyada olduğu müddətdə (öz halına görə) daima qorxu içində olmalıdır. Çünki o hansı əməl üzərində öləcəyini, sonuncu əməlinin hansı əməl olacağını və Allahla hansı əməllə qarşılaşacağını bilmir. Öz nəfsinə qarşı həddini aşan insan isə ölüm yatağında Allahın rəhmətindən ümidini üzməməlidir. Allah barədə gözəl zəndə olmalı, günahlarına görə isə qorxmalıdır. Əgər Allah ona mərhəmət göstərsə, bu, Allahın lütfüdür, əgər ona əzab versə, bu, qulun günahına görədir.[1]

---

[1] Deməli, bəndə bütün həyatı boyunca qorxu və ümid arasında yaşamalı və bu əsas ilə Rəbbinə ibadət etməlidir. Yəni Uca Allahın əzabından qorxmalı, nə qədər saleh əməl sahibi olsa belə, öz əməllərinə güvənməməli və nə qədər asilikləri olsa belə, Rəbbinin rəhmətindən ümidini üzməməli və tövbə qapısına sarılmalıdır. Uca Allah belə buyurur: "*Allaha qorxu və ümidlə yalvarın*" (Əl-Əraf: 56). Qulun haqq yoldan azmaması üçün qorxu ilə ümid arasında orta bir yol tutması çox əhəmiyyətlidir. Belə ki, xəvariclər məhz qorxu üzərində Allaha ibadət etdikləri və dinlərini vəid ayələri (yəni Cəhənnəm ilə əlaqəli ayələr) üzərində qurduqlarına görə haqq yolundan azdılar. Bunun tam əksinə, murciələr isə ümid üzərində Allaha ibadət etdikləri və dinlərini vəd ayələri (yəni Cənnətlə

**81)** Allahın öz Peyğəmbərinə ﷺ Qiyamət gününə qədər ümmətində baş verəcək olanları xəbər verməsinə iman etmək.[1]

**82)** Bil ki, Allahın elçisi ﷺ belə demişdir: *"Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək. Onlardan biri istisna olmaqla qalanları hamısı Cəhənnəmdə olacaqlar. İstisna olan firqə isə Camaatdır. Dedilər ki, ey Allahın elçisi, onlar kimlərdir? Dedi ki, bu gün mənim və səhabələrimin olduğu yol üzərində olanlardır".*[2]
Ömərin ﷺ xilafətinə qədər din bu minvalla davam etdi. Osmanın ﷺ da xilafəti dövründə belə oldu. O zaman ki Osman ﷺ öldürüldü, (ümmət içərisində) ixtilaflar və bidətlər baş qaldırdı. İnsanlar dəstələrə və firqələrə bölündülər. Lakin insanların bir qismi elə dəyişikliyin ilk günündən haqq üzərində sabit qaldılar, haqqı dedilər və insanları da haqqa tərəf çağırdılar. Lakin filankəsin xilafətində[3] dördüncü nəslə qədər hər şey öz yolu ilə düz gedirdi. Bundan sonra hər şey tərsinə çevrildi, insanlar çox dəyişdi, bidətlər yayıldı, zəlalətə çağıran dəvətçilər çoxaldı. İnsanlar nə Allahın elçisinin ﷺ, nə də səhabələrin demədikləri şeyləri dilə gətirməklə imtahan olunurdu. Peyğəmbərin ﷺ

---

əlaqəli ayələr) üzərində qurduqlarına görə haqq yolundan azdılar. Əhli-sünnət isə qorxu və ümid üzərində Allaha ibadət etməyin vacibliyini bəyan etmişdir. Lakin hər ikisini də eyni səviyyədə tutmaq çətin, bəzi hallarda isə mümkünsüz olduğuna görə alimlər qeyd etmişlər ki, insan dünyada sağ olduğu müddətcə onda olan qorxu hissi ümid hissinə qalib gəlməlidir. Çünki dünya həyatı qorxu və ehtiyat meydanıdır. Belə ki, hər an insanın ayağı büdrəyə və insan haqq yolundan aza bilər. Ölüm yatağında isə bunun tam əksinə, ümid hissi qorxu hissinə qalib gəlməlidir. Çünki bu məqam artıq ümid məqamıdır. Belə ki, insan bu dünyada yaşadığını yaşamış və etdiyini etmişdir. Artıq geriyə yol yoxdur. Belə bir məqamda bəndənin Rəbbinin rəhmətinə ümid bəsləməsi və Onun barədə yaxşı zəndə olması vacibdir. Müəllif də sözlərində məhz bu həqiqətə eyham vurmaq istəmişdir.

[1] Uca Allah buyurur: *"O, qeybi Bilәndir və Öz qeybini razı qaldığı elçidən başqa heç kəsə açmaz"* (Əl-Cinn: 26-27).

[2] Tirmizi 2641, Əbu Davud 4596, İbn Macə 3991, hədis səhihdir. Bax: "Səhihul-cəmi" 5343.

[3] Müəllif burada Bəni Abbası nəzərdə tutur.

təfriqəçilikdən çəkindirməsinə rəğmən, onlar insanları parçalanmağa çağırırdılar. Beləcə, bir-birlərini təkfir etdilər. Hər kəs öz rəyinə və özlərinə müxalif olanların kafir hesab edilməsi fikrinə dəvət edirdi. Elmi olmayan cahillər, avam insanlar azdılar. Dünyanı onlara sevdirdilər və dünya cəzası ilə onları qorxutdular. Bəzi insanlar da dünyalarının pis olacağından qorxub, həmçinin dünya sevgisinə görə onlara tabe oldular. Beləcə, sünnət və sünnət əhli gözdən itdi. Nəticədə, ortaya bidətlər çıxdı və yayıldı, bu insanlar özləri də bilmədən müxtəlif yollardan küfrə düşdülər. Qiyası uydurdular. Onlar Rəbbin qüdrətini, ayələrini, hökmlərini, əmrlərini və qadağalarını öz ağılları ilə yozdular. Ağıllarına uyğun gələni qəbul etdilər, uyğun gəlməyəni isə rədd etdilər. Beləcə, İslam dini və sünnət, o cümlədən Əhli-sünnət öz doğma diyarında qərib oldu.

**83)** Bil ki, mutə nikahı və istihləl Qiyamət gününə qədər haramdır.[1]

**84)** Haşim övladlarının fəzilətini bil! Çünki onlar Peyğəmbərin ﷺ qohumlarıdır.[2] Qureyşin, ərəblərin və bütün qəbilə qollarının

---

[1] ***Mutə nikahı (yəni siğə)*** – qadınla müvəqqəti kəbin kəsdirməyə deyilir. Şiə məzhəbi bu nikahın halal olduğuna etiqad edir. Əli ibn Əbu Talib ؓ belə demişdir: *"Peyğəmbər ﷺ Xeybər günü mutəni (siğəni) və ev uzunqulağının ətini qadağan etdi"* (Buxari: 5115). Bu hədis müxtəlif şiə firqələri tərəfindən də nəql edilmişdir. Bax: Zeydi şiələrinin kitablarından "Müsnəd İmam Zeyd" səh. 271, Cəfəri şiələrinin kitablarından "əl-İstibsar" 3/178 hədis: 27, İsmaili şiələrinin kitablarından "Dəaim əl-İsləm" hədis: 858.
***İstihləl (hullə nikahı)*** isə qadının üçüncü dəfə boşandıqdan sonra öz ərinə halal olması üçün müvəqqəti və müqaviləli bir şəkildə nikaha girməsidir. Belə ki, qadın üç dəfə boşandıqdan sonra öz ərinə haram olur. Başqasına ərə getmədikcə əvvəlki ərinə qayıda bilməz. Bəziləri bundan ötrü kimdənsə xahiş edir ki, o qadınla evlənib cinsi əlaqədə olsun, sonra onu boşasın ki, birinci ərinə qayıda bilsin. Belə bir nikah haramdır. Peyğəmbər ﷺ demişdir: *"Hullə nikahı edənə də, elətdirənə də Allahın lənəti olsun"* (Əbu Davud 2076, İbn Macə 1936, səhih hədisdir).

[2] Peyğəmbər ﷺ demişdir: *"Uca Allah İsmayıl övladları içindən Kinənəni, Kinənə içindən Qureyşi, Qureyş içindən Haşim övladlarını və Haşim övladları içərisindən də məni seçdi"* (Müslim 2276).

fəzilətini bilməlisən.[1] Onların qədrini və hüquqlarını tanı! Bir qövmün azad etdiyi kölə də onlardan sayılır.[2] Digər insanların da İslamda olan haqlarını bilməlisən. Ənsarın üstünlüyünü və Peyğəmbərin ﷺ onlar barədə etdiyi vəsiyyətini bilməlisən.[3] Peyğəmbərin ﷺ ailəsini də unutma və onların da fəzilətini bil![4] Onunla ﷺ Mədinədə qonşuluq edənlərin də fəzilətini tanı![1]

---

[1] Heç şübhəsiz ki, fərdlər arasında olan üstünlük yalnız və yalnız imana və təqvaya görə təyin edilir. Yəni fərdlər arasında ərəb olanın əcəmdən, əcəmin ərəbdən heç bir üstünlüyü yoxdur. Belə ki, Uca Allah buyurur: *"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır"* (Əl-Hucurat: 13). Müəllifin qeyd etdiyi bu məsələ qəbilə olaraq Qureyşin digər qəbilələrdən və nəsil olaraq Haşim övladlarının digər nəsillərdən cins baxımından, yəni ümumi üstünlüyünü bəyan etmək üçündür, Qureyşdən, yaxud Haşim övladlarından hansısa bir fərdin digərlərindən mütləq üstünlüyünü bildirmək üçün deyil. Əksinə Qureyşin, yaxud Haşim övladlarının içində fasiq, hətta kafir olanları da ola bilər. Şeyxülislam İbn Teymiyyə demişdir: "Əhli-sünnət etiqad edir ki, ərəb cinsi ibranilər, suryanilər, romalılar, farslar və digər millətlər də daxil olmaqla əcəm cinsindən daha üstündür. Qureyş qəbiləsi ərəblərin, Haşim övladları isə Qureyşin ən üstün olanıdır. Peyğəmbər ﷺ isə Haşim övladlarının ən üstünüdür. Ümumiyyətlə, o həm şəxs olaraq, həm də nəsəb baxımından məxluqatın ən üstün olanıdır" ("İqtida əs-Siratıl-mustəqim" 419-420). Həmçinin belə demişdir: "Ümumi üstünlük xüsusi, yəni fərdi üstünlüyə dəlalət etmir. Belə ki, ərəb olmayanlar içində xeyli sayda insanlar var ki, ərəblərin çoxundan xeyirlidirlər" ("Məcmuul-fətava" 19/29).

[2] Peyğəmbər ﷺ demişdir: *"Qövmün azadlı köləsi onlardandır"* (Buxari 6761).

[3] Peyğəmbər ﷺ demişdir: *"Ənsara nifrət etmək münafiqliyin, onları sevmək isə imanın əlamətidir"* (Buxari 17 və Müslim 74). Onlar barədə etdiyi vəsiyyəti isə belədir: *"Mən sizə ənsara qayğı göstərməyi tövsiyə edirəm. Çünki onlar mənim can-ciyərim və sirdaşlarımdır. Onlar artıq öz borclarını yerinə yetirmişlər. Bundan sonra onları qazanacaqları mükafatlar gözləyir. Odur ki, onların yaxşı işlərini qəbul edin və onların təqsirlərindən keçin!"* (Buxari 3799 və Müslim 2510)

[4] Peyğəmbərin ﷺ ailəsi dedikdə, əsasən, onun zövcələri, nəsli, Əlinin, Abbasın, Əqilin və Cəfərin ailələri nəzərdə tutulur. Peyğəmbər ﷺ demişdir: "*Mən sizə iki ağır əmanət qoyub gedirəm. Bunların birincisi, Allahın Kitabıdır. Onda hidayət və nur vardır. Allahın kitabına bağlanın və ondan möhkəm tutunun... (İkinci tövsiyəm) Əhli-beytimdir. Mən əhli-beytim barədə sizə Allahı xatırladıram. Mən*

**85)** Allah sənə rəhm etsin, bil ki, elm əhli daima cəhmilərin sözünə rədd verib. Daha sonra filankəslərin xəlifəliyi gəldi və savadsız insanlar böyük məsələlər barədə danışmağa başladılar. Peyğəmbərin ﷺ hədislərinə tənə etdilər, qiyas və rəyə əsaslandılar. Özlərinə müxalif olanlara isə kafir dedilər. Cahil, qafil, elmi olmayan insanlar da onlara qoşuldular və nəticədə özləri də bilmədən küfrə düşdülər. Beləcə, ümmət bir çox yöndən həlak oldu, bir çox yöndən küfrə düşdü, bir çox yöndən zındıqlaşdı, azdı, bir çox yöndən parçalandı və bidətlərə düşdü. Yalnız Peyğəmbərin ﷺ sözü və əmri, həmçinin səhabələrin əmri üzərində möhkəm duran, onları xətada ittiham etməyən, onların izindən kənara çıxmayan, onların yolu ilə kifayətlənən, onların yolundan və məzhəbindən üz döndərməyən, onların əsl İslam və iman üzərində olduqlarına əmin olan kəs müstəsna oldu. Beləcə, öz dinində səhabələri təqlid elədi və rahatlıq tapdı. Həmçinin bildi ki, din (yeni bir şey uydurmaqla deyil) məhz Muhəmmədin ﷺ əshabını təqlid etməklə olur.[2]

**86)** Kim desə ki, Quran ilə olan tələffüzüm (yəni Quran qiraətim) məxluqdur, bil ki, həmin kəs bidətçidir.[3] Kim sussa, Quran barədə

---

*əhli-beytim barədə sizə Allahı xatırladıram. Mən əhli-beytim barədə sizə Allahı xatırladıram"* (Müslim 2408).

[1] Mədinənin və onun əhlinin fəziləti barədə Peyğəmbərdən ﷺ bir çox səhih hədis varid olmuşdur. Həmin hədislərin birində Allah elçisi ﷺ belə demişdir: *"Mədinə əhlinə pislik etmək istəyən hər kəs duz suda əridiyi kimi əriyəcəkdir"* (Buxari 1877 və Müslim 1363).

[2] Burada təqlid deyildikdə "ittiba", yəni Peyğəmbərin və onun əshabının yoluna tabe olmaq və bu cığırla irəliləmək nəzərdə tutulur.

[3] Quran qiraətinin məxluq adlandırılmasının icazəli olub-olmamasında Əhli-sünnət alimləri ixtilaf etmişlər. Bu məsələdə ən gözəl üslub, ümumiyyətlə, bu mövzuya baş vurmamaq və bu cür çoxmənalı söz və ifadələrdən uzaq durmaqdır. Hər bir halda, Əhli-sünnətdən kimsə Quran qiraətinin məxluq olduğunu desə və bununla da kəlamın özünü yox, məhz qarinin qiraətini nəzərdə tutsa, bu sözü ilə o, Quranın məxluq olduğunu demiş sayılmaz. Sadəcə olaraq, bu tələffüz, qiraət məsələsini ilk dəfə dilə gətirənlər və ortaya çıxaranlar cəhmilər və Mötəzilə məzhəbi olduğuna və bununla da onların Quranın məxluq

nə “məxluqdur”, nə də “məxluq deyil” deməsə, o kəs də cəhmidir.[1] Bunu bu şəkildə Əhməd ibn Hənbəl demişdir.[2] Allahın elçisi ﷺ belə demişdir: *“Məndən sonra yaşayacaq olanlarınız çoxsaylı ixtilaflar görəcəkdir. Sizə vacib olan mənim və hidayət sahibi olan Raşidi xəlifələrin sünnətinə (yoluna) tabe olmanızdır. Bu yoldan möhkəm tutunun və azı dişləriniz ilə yapışın”.*[3]

**87)** Bil ki, cəhmilərin həlak olmalarının əsas səbəbi onların Allah barədə düşünmələri oldu. Nəticədə “nə üçün?”, “necə?” suallarını ortaya çıxardılar, hədisləri tərk etdilər və qiyasa əsaslandılar. Dini öz rəylərinə qiyas etdilər. Beləcə, açıq-aydın küfr etdilər və insanları da küfrə saldılar. Bundan sonra iş o yerə gəlib çatdı ki, onlar Allahın sifətlərini inkar etməyə başladılar. Əhməd ibn Hənbəl kimi bəzi alimlər cəhmilərin kafir olduqlarını, qiblə əhlindən sayılmadıqlarını və qanlarının halal olduğunu dedilər. Belə ki, onlardan nə miras götürülməz, nə də ki onlara miras verilməz. Çünki onlar deyirlər ki, cümə namazı, camaat namazı, bayram namazı və zəkat yoxdur. Həmçinin deyirlər ki, kim “Quran məxluqdur” deməsə, kafirdir. Onlar Muhəmmədin ﷺ ümmətinə qılınc qaldırmağı halal saydılar və əvvəlkilərin yoluna müxalif oldular. İnsanları Peyğəmbərin ﷺ və onun əshabının dilə gətirmədiyi şeylərlə imtahan etdilər. Məscidləri və camiləri boş qoymağa çalışdılar, İslamı dəyərsiz hala gətirmək istədilər. Cihadı tərk etdilər, camaatı parçaladılar və hədislərə müxalif oldular. Nəsx olunmuş dəlillərlə danışdılar, mütəşabih olan ayə və hədisləri dəlil gətirdilər. İnsanları öz dinlərində və rəylərində şəkk və şübhəyə saldılar. Allah barədə dini mübahisələr etdilər. Həmçinin

---

olduğuna eyham vurmaq istədiklərinə görə bir çox Əhli-sünnət alimi bu sözü dilə gətirməyi bəyənməmiş və bunu şəriətə müxalif olan münkər və bidət əməllərdən saymışdır.

[1] Əhli-sünnətin etiqadına əsasən, Quranın həqiqi bir şəkildə Allahın kəlamı olduğuna iman etməli və mütləq “Quran məxluq deyildir” deməlisən. Bu məsələdə susmaq icazəli deyil.

[2] Sabuni “Əqidətus-sələf və əshabul-hədis” səh. 171, Beyhəqi “əl-Etiqad” səh. 110, Lələkəi 1/178, Abdullah ibn Əhməd “əs-Sünnə” 1/179, 279.

[3] Əbu Davud 4607, İbn Macə 43, Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.

dedilər ki, qəbr əzabı, Hovuz, şəfaət yoxdur, Cənnət və Cəhənnəm hələ yaradılmayıb. Beləliklə, Peyğəmbərin dediklərinin çoxunu inkar etdilər. Onların təkfirini və qanlarını halal sayan alimlər elə məhz bu səbəblərə görə halal saymışlar. Çünki kim Allahın Kitabından bir ayəni inkar etsə, o bütün kitabı inkar etmiş sayılır. Kim Peyğəmbərdən gələn bir hədisi inkar etsə, bütün hədisləri inkar etmiş sayılır. Belə birisi isə Əzəmətli Allaha qarşı küfr etmişdir. Beləcə, onlar bir müddət bu minvalla davam etdilər və bu işlərində özlərinə qarşı sultandan dəstək də tapdılar. Qılınc və qamçı qaldırmağa başladılar. Sünnət və camaat elmi[1] tədricən unudulmağa başladı, onlar bu elmin yayılmasını zəiflətdilər. İş o yerə çatdı ki, onların öz bidətlərini və dəvətlərini izhar etmələri və çox olmaları səbəbilə sünnət və camaat elmi gizli qaldı. Onlar bundan ötrü məclislər qurur, öz rəylərini izhar edir və bu haqda kitablar yazırdılar. İnsanları şirnikləşdirmək və onlara vəzifə vəd etməklə onları bu rəyə həvəsləndirirdilər. Bu, dəhşətli bir fitnə idi. Belə bir fitnədən yalnız Allahın qoruduğu kimsələr nicat tapa bildi. Onların dərsində kim otururdusa, ən azından ya öz dinində şübhəyə düşürdü, ya onların yoluna tabe olurdu, ya da ki onların haqq üzərində olduğunu iddia edirdi. Özünün haqq, yaxud batil üzərində olduğunu bilmədiyi üçün şəkkə düşürdü. Beləcə, insanlar həlaka sürükləndilər. Nəhayət, Cəfər adlı əl-Mutəvəkkil[2] deyilən hökmdar gəldi və Allah onun əli ilə bidətləri söndürdü, haqqı və sünnət əhlini üzə çıxardı. Bu günə qədər bidət əhlinin çox, sünnət əhlinin isə az olmasına rəğmən, onların (Əhli-sünnətin) dili uzun oldu. Günümüzdə də həmin azmış firqənin əlamətlərindən qalıb. Bəziləri ona əməl edir və insanları da bu zəlalətə çağırırlar. Onlara mane olan, dəvətlərinin və əməllərinin qarşısını alan isə yoxdur.

---

[1] Camaat elmi – sələfin, yəni səhabə və tabiin elmi, yaxud alimlərin icması.

[2] Əbul-Fadl Cəfər ibn Muhəmməd ibn Harun ər-Rəşid abbasi xəlifələrindən idi. Hicri 205 və ya 207-ci ildə dünyaya gəlmişdir. Hicri 232-ci ildə qardaşı Vasiq vəfat etdikdə ona beyət edilmişdir. Xilafətə gələndən sonra cəhmilərin fitnəsinə və haqq əhlinə qarşı edilən zülmlərə son qoydu. Sünnətə və onun əhlinə yardım etməyə başladı. (Zəhəbi “Siyər ələmun-Nubəla” 12/30, Suyuti “Tarixul-xuləfa” səh. 346)

**88)** Bil ki, bidət daima hər bir səs-küyçünün dalınca gedən, hər külək əsən tərəfə meyil edən avam camaat tərəfindən çıxıb. Belə insanların dini olmur. Uca Allah belə buyurur: *"Amma elm onlara gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər"*;[1] *"Onlara məhz elm gəldikdən sonra öz aralarındakı paxıllıq ucbatından ixtilafa düşdülər"*;[2] *"Halbuki kitab verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər"*.[3] Belələri şər alimləri, tamah və bidət sahibləridirlər.

**89)** Bil ki, daima haqq və sünnət üzərində olan bir toplum olacaq. Allah onları və onların əli ilə də başqalarını doğru yola yönəldəcək. Onların vasitəsilə sünnəti dirildəcək. Onlar Allahın ixtilaf zamanı "az olmaq"la vəsf etdiyi kimsələrdir. Uca Allah buyurur: *"Halbuki kitab verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər"*.[4] Onları isə istisna edərək belə buyurur: *"Allah isə Öz izni ilə iman gətirənləri ixtilafda olduqları məsələlərdə haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər"*.[5] Həmçinin Peyğəmbər ﷺ belə demişdir: *"Ümmətimdən Qiyamət gününə qədər haqq üzərində zahir olan bir dəstə olacaqdır. Allahın hökmü gələnə qədər onları yardımsız buraxanlar onlara heç bir zərər toxundura bilməyəcəklər"*.[6]

**90)** Allah sənə rəhm etsin, bil ki, elm çoxlu (hədis) rəvayət etməklə və ya çoxlu kitab əldə etməklə deyil. Əsl alim elmi və kitabları az olsa belə, bildiyinə və sünnətə əməl edən kimsədir. Kim Quran və sünnətə müxalif olsa, elmi və kitabları çox olsa belə, o kəs bidətçidir.

---

[1] Əl-Casiyə: 17
[2] Əş-Şura: 14
[3] Əl-Bəqərə: 213
[4] Əl-Bəqərə: 213
[5] Əl-Bəqərə: 213
[6] Buxari 3640, 7460 və Müslim 1037, 1920, 1921

**91)** Allah sənə rəhm etsin. Bil ki, kim Allahın dinində öz şəxsi rəyi, təfsiri və ya qiyasla danışsa, sünnət və camaatdan[1] dəlil gətirməsə, o kəs Allaha qarşı bilmədiyi bir şeyi danışmışdır. Kim də Allaha qarşı bilmədiyini danışsa, deməli, o özündən uydurub danışan bir kəsdir. Haqq məhz Allahdan gələndir. Sünnət – Peyğəmbərin ﷺ yoludur. Camaat isə Əbu Bəkrin, Ömərin və Osmanın xilafəti zamanı səhabələrin üzərində ittifaq etdikləri məsələlərdir.[2] Kim Peyğəmbərin ﷺ sünnəti və səhabələrin yolu ilə kifayətlənsə, inşəallah, bidət əhlinin hamısına qalib gələr, bədəni rahatlıq tapar və onun dini salamat olar. Çünki Allahın elçisi ﷺ xəbər verib ki, mənim ümmətim firqələrə bölünəcək. Daha sonra həmin firqələrdən kimin xilas olacağını bəyan edərək belə demişdir: *"Onlar bu gün mənim və səhabələrimin olduğu yol üzərində olanlardır".*[3] Bax bu əsl şəfa, gözəl açıqlama, nur saçan işıq və aydın bir yoldur. Peyğəmbər ﷺ belə demişdir: *"Dərinliyə getməkdən və xırdaçılıq etməkdən uzaq durun! Qədim dininizə sarılın!"*[4] Bil ki, qədim din dedikdə Peyğəmbərin ﷺ ölümündən Osmanın vəfatına qədər olan vaxt nəzərdə tutulur. Osmanın ؓ ölümü parçalanmanın və ixtilafın ilk anı oldu. Ümmət bir-biri ilə

---

[1] Yəni sələf – səhabə və tabiin, yaxud alimlərin icması.

[2] Müəllifin burada müsəlman ümmətinin icmasını məhz ilk üç xəlifə zamanı ilə məhdudlaşdırmasının səbəbi Osmanın ؓ şəhadəti ilə ortaya çıxan və sürətlə yayılan fitnələrdir. Belə ki, illər sonra təşəkkül edəcək zəlalət firqələrinin tumurcuqları da elə o zaman, yəni Osmanın şəhadətindən sonra ortaya çıxan fitnələr ilə baş qaldırmışdı. Tabiin imamlarından Muhəmməd ibn Sirin belə demişdir: "İlk dönəmlərdə insanlar hədislərin isnadı (yəni ravilər) barədə bir-birlərinə sual verməzdilər (yəni "sənə bu hədisi kim rəvayət edib", – deyə soruşmazdılar. Çünki hər kəs bir-birinə etibar edirdi). O zaman ki fitnə baş qaldırdı (Osmanın şəhadəti ilə baş verən fitnəni nəzərdə tutur), ravilər barədə soruşmağa başladılar (Səhih Müslimin müqəddiməsi, səh. 15).

[3] Tirmizi 2641, Əbu Davud 4596, İbn Macə 3991, hədis səhihdir. Bax: "Səhihul-cəmi" 5343.

[4] Müəllifin hədis olaraq qeyd etdiyi bu kəlam, əslində, səhabə Abdullah ibn Məsudun sözüdür. Bax: Dərimi 1/66, hədis: 142,143, Ləlakəi 1/87, rəvayət: 108. Lakin bu mənaya dəlalət edən hədislər müxtəlif ləfzlər ilə Peyğəmbərdən ﷺ də nəql olunmuşdur. Belə ki, Allah elçisi ﷺ demişdir: *"Dində dərinliyə getməkdən uzaq durun! Sizdən əvvəlki qövmləri həlak edən də elə bu oldu"* (Bəzzar "əl-Müsnəd" 5338); *"Dində xırdaçılıq edən həlak oldu!"* (Müslim 2670)

döyüşməyə və öz aralarında bölünüb parçalanmağa başladılar. Onlar tamahlarının və nəfsi istəklərinin dalınca düşdülər, dünyaya tərəf meyil etdilər. Heç kəsin Allahın elçisinin səhabələrinin etmədiyi bir yeniliyi dinə daxil etməyə haqqı yoxdur. Həmçinin heç kəsin nə özünün uydurduğu, nə də bidətçilərdən kiminsə uydurduğu bir şeyə dəvət etməyə haqqı yoxdur. Bidətə dəvət edən elə o bidəti uyduran kəs kimidir. Kimsə belə bir şeyi[1] iddia edər, yaxud dilinə gətirərsə, artıq sünnəti rədd etmiş, haqqa və camaata – sələfin icmasına müxalif olmuş və bidətləri icazəli saymışdır. Belə birisi isə bu ümmət üçün İblisdən də zərərlidir. Kim bidətçilərin sünnətdən nəyi tərk etdiyini və nədən ayrı düşdüyünü bilib ona möhkəm sarılarsa, o, sünnət və camaat sahibi sayılar.[2] Belə birisi özünə tabe olunmağa, yardım edilməyə və qorunmağa layiqli biridir. O, Peyğəmbərin ﷺ vəsiyyət etdiyi kəslərdəndir.

**92)** Allah sizə rəhm etsin. Bilin ki, bidət əhlinin kökü, əsasən, dörd firqədir. Sonra bu dörd firqədən yetmiş iki bidət törəndi. Sonra bu bidətlərdən də yeni bidətlər törənməyə başladı və nəhayət, iki min səkkiz yüz fikir ortaya çıxdı. Yalnız bir firqə istisna olmaqla bu təriqətlərin hamısı zəlalətdir və oddadır. Həmin istisna olan firqə də məhz bu kitabda olanlara etiqad edib, qəlbində bu haqda heç bir şübhə olmayandır. Belə birisi sünnət sahibidir və inşəallah, nicat tapan kəsdir.[3]

**93)** Allah sənə rəhm etsin, bil ki, əgər insanlar bidətlərin qarşısında durub, onu adlayıb keçməsəydilər, Peyğəmbərdən ﷺ və səhabələrdən ﵃ varid olmayan sözləri ortaya çıxarmasaydılar, heç bir bidət mövcud olmazdı.

---

[1] Yəni dində yeniliklərin icazəli olmasını.

[2] Rəvayət etdiyi hədislərlə, elmi ilə əməl edən və bu yöndə insanlara nümunə olan kəslərə, adətən, "sünnət sahibi" deyilərdi.

[3] Müəllifin qəsdi burada öz kitabını təzkiyə etmək deyil. Onun məqsədi bu kitabda qeyd olunan Əhli-sünnət məzhəbinin etiqad əsaslarıdır.

**94)** Allah sənə rəhm etsin. Bil ki, mömin olan bir qul Allahın nazil etdiklərindən bir şeyi inkar etmədikcə, Allahın kəlamına nəsə əlavə etmədikcə, ondan nəsə azaltmadıqca, yaxud Allahın və Rəsulunun ﷺ dediklərindən bir şeyi inkar etmədikcə kafir olmaz. Allah sənə rəhm etsin, Allahdan qorx və özünü gözlə, dində həddi aşmaqdan uzaq dur! Çünki bunun haqq yol ilə heç bir əlaqəsi yoxdur.

**95)** Bu kitabda sizin üçün vəsf etdiklərimin hamısı Allahın və Onun elçisinin ﷺ dedikləri, həmçinin səhabələrdən, tabiinlərdən, üçüncü nəsildən dördüncü nəslə qədər olanlardan varid olan sözlərdir. Ey Allahın qulu, Allahdan qorx! Sənə vacib olan bu kitabda yazılanları təsdiq etməyin, onlara təslim olmağın, razı qalmağın və (mənasını anlamadığın şeyləri isə) Allaha həvalə etməyindir. Bu kitabı qiblə əhlindən heç kəsdən gizlətmə. Ola bilsin ki, Allah bu kitab vasitəsilə çaşqınlıq içində olanı çaşqınlığından, bidətçini bidətindən, zəlalətdə olanı da zəlalət yolundan qurtarsın və beləcə o, nicat tapsın. Allahdan qorx və ilkin dövrlərdə olan İslamdan möhkəm tutun, o da mənim bu kitabda sənə vəsf etdiklərimdir. Allah bu kitabı oxuyan, onu yayan, ona əməl edən, ona dəvət edən və onu dəlil gətirən kəsə və onun valideynlərinə rəhm etsin! Çünki bu (kitabda yazılanlar), Allahın və Onun elçisinin ﷺ dinidir. Kim bu kitaba müxalif olan bir şeyi qəbul etsə, o, Allaha həqiqi dinlə ibadət etmiş sayılmaz və belə birisi bu kitabın hamısını rədd etmiş sayılar.[1] Necə ki bir kəs Allahın Kitabına iman gətirsə, lakin bir hərfində şəkk etsə, o, əslində, Allahın dediklərinin hamısını inkar etmiş sayılar və belə birisi kafirdir. Necə ki "lə iləhə illəllah" şəhadəti yalnız doğru niyyətlə, ixlas və yəqinliklə deyən kəsdən qəbul olunar, eləcə də

[1] Təbii ki, burada müəllifin qəsdi bu kitabda qeyd edilmiş hər fəri məsələ deyil, çünki kitabda az da olsa, elə mövzular vardır ki, alimlər o mövzular üzərində ixtilaf etmişlər və bunun müəllifə gizli qalması da düşünülə bilməz. Buna əsasən, deyə bilərik ki, burada müəllifin qəsdi kitabın əsasını təşkil edən və Əhli-sünnətin etiqad əsaslarını özündə ehtiva edən mövzulardır ki, bu mövzulardan birinə müxalif olan kəs bütün etiqad əsaslarını inkar etmiş hökmündədir.

sünnətin bir qismini tərk etdikdə, Allah ondan sünnəti qəbul etməz. Çünki kim sünnətdən bir şeyi rədd etsə, o bütün sünnəti rədd etmiş sayılar. Sənə vacib olan (haqqı) qəbul etmək, mübahisələri və inadkarlığı tərk etməkdir. Çünki bütün bunların Allahın dini ilə heç bir əlaqəsi yoxdur. Xüsusilə də sənin zamanın pis zamandır. Elə isə Allahdan qorx!

**96)** Fitnə baş verdikdə evində otur, fitnənin həndəvərindən qaç, təəssübkeşlikdən çəkin! Müsəlmanlar arasında dünyəvi məqsədlərə görə nə döyüş olubsa, hamısı fitnədir. Sən tək və şəriki olmayan Allahdan qorx! Fitnə zamanı ortaya çıxma, döyüşmə, tərəf saxlama, nə də onların etdiyindən heç birini bəyənmə![1] Belə bir deyim var: "Kim xeyir və şər olmasından asılı olmayaraq, bir qövmün etdiyini sevərsə, onu edənin özü kimi olar". Allah bizi də, sizi də Özünün razı qaldığı şeylərə müvəffəq etsin və Ona asi olmaqdan uzaq etsin!

**97)** Ulduzlara az bax! Yalnız namazın vaxtlarını təyin etmək məqsədilə baxmağın istisnadır. Bundan savayı şeylər üçün onlardan istifadə etmə, çünki bu insanı zındıq olmağa aparıb çıxarır.[2]

---

[1] Allah elçisi ﷺ demişdir: *"Gələcəkdə fitnələr olacaq. Həmin fitnələr zamanı yerində oturan durandan, ayaq üstə duran gəzəndən, gəzən isə fitnəyə doğru səy göstərəndən daha xeyirli olacaq. Kim özünü fitnəyə məruz qoysa, fitnə onu həlak edəcəkdir. (Fitnə zamanı) kim bir sığınacaq yeri tapsa, ora sığınsın!"* (Buxari 3601 və Müslim 2886)

[2] Tabiinlərdən Qatədə belə demişdir: "Uca Allah bu ulduzları üç səbəbdən ötrü xəlq edib: səma üçün zinət, şeytanları daşqalaq edib qovmaqdan ötrü və yolu, istiqaməti tapmaq üçün əlamət. Kim ulduzları bundan başqa bir şey üçün yozsa, o artıq səhvə yol vermiş, öz nəsibini zay etmiş və elmi olmayan bir işə girişmiş sayılar" (Buxari "Bəbun fin-nucum" 4/107). Ulduzlardan qiblənin istiqamətini, namaz vaxtlarını, yönü və istiqaməti təyin etmək kimi bəzi dini və dünyəvi məsləhətlər üçün istifadə etmək olar. Uca Allah belə buyurur: *"O (Allah), əlamətlər yaratdı. İnsanlar ulduzlar vasitəsilə də getdikləri yolu müəyyənləşdirirlər"* (Ən-Nəhl: 16).

**98)** Kəlam elminə nəzər salmaqdan və kəlam əhli ilə oturub-durmaqdan həzər et! Hədislərə və hədis əhlinə tabe ol! Sualını onlara ver, yalnız onlarla otur-dur və məhz onlardan elm götür!

**99)** Bil ki, Allaha edilən ən üstün ibadət Allah qorxusudur. Qorxu, həzər etmək, şəfqət və həyanın yolu Allahdandır. Şövq və məhəbbətə çağıran kəslə oturmaqdan həzər et! Eləcə də qadınla xəlvətdə qalan kəsdən və məzhəb təriqətlərindən də çəkin, çünki bunların hamısı zəlalətdədir.[1]

**100)** Allah sənə rəhm etsin, bil ki, Allah Təbarəkə və Təalə bütün insanları Özünə ibadət etməyə çağırıb, sonra isə istədiyi kimsələrə mərhəmət göstərib və İslama yönəldib.

**101)** Əlinin, Muaviyənin, Aişənin, Talhanın, Zubeyrin və onlarla birlikdə olanların müharibəsi barədə danışma! Onlar barədə mübahisə etmə və onların işlərini Allaha həvalə et![2] Peyğəmbər ﷺ belə demişdir: *"Mənim səhabələrim və qohumlarım barədə pis bir şey danışmayın!"*[3] Həmçinin demişdir: *"Allah Təbarəkə və Təalə Bədr döyüşündə iştirak edənlərə baxdı və belə dedi: İstədiyinizi edin, mən artıq sizi bağışladım".*[4]

**102)** Allah sənə rəhm etsin, bil ki, müsəlman öz malından könül xoşluğu ilə nəyisə verməzsə, onun malı halal deyildir. Hətta kimdəsə haram mal olarsa və o bu mala zamindirsə (yəni bu mala

---

[1] Burada müəllif Allaha eşq və məhəbət üzərində ibadət etdiklərini deyən sufi təriqətlərindən danışır.

[2] Uca Allah buyurur: *"Onlar bir ümmət idi ki, gəlib getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-suala tutulmayacaqsınız"* (Əl-Bəqərə: 134).

[3] Hədis müəllifin qeyd etdiyi bu ləfzlə zəifdir. Əlbani "Daiful-cəmi" 1537. Lakin başqa bir hədisdə Peyğəmbərin ﷺ belə dediyi nəql olunmuşdur: *"Mənim əshabımı söyməyin! Mənim əshabımı söyməyin! Nəfsim Əlində olan Allaha and olsun ki, sizdən birinizin Uhud dağı qədər verdiyi sədəqə əshabımın bir, yaxud yarım ovuc qədər verdiyi sədəqəsinə çata bilməz"* (Buxari 3673 və Müslim 2540).

[4] Buxari 3007 və Müslim 2494

görə cavabdehlik daşıyırsa), onun izni olmadan o maldan heç kimin götürməyə ixtiyarı yoxdur. Çünki ola bilsin ki, o (yəni bu malı haqsızcasına götürən insan) tövbə etsin və həmin malı öz həqiqi sahibinə geri qaytarmaq istəsin. Belə olan təqdirdə əgər sən o maldan götürərsənsə, artıq haram mal götürmüş sayılarsan.

**103)** Qazanc yollarından hansının səhih olması bəllidirsə, bu işdə sərbəstsən. Amma qazancın haram olması bəlli olarsa, o zaman (ölməyib həyatda qalmağın üçün) zəruri ehtiyaclar qədər götürmək olar. Sənin "mən qazancı tərk edim və insanlar mənə nə versələr, onu götürərəm" deməyin də düzgün deyildir. Bu cür hərəkəti nə səhabələr, nə də günümüzə qədər alimlər etməyiblər. Ömər ibnul-Xattab ﷺ belə demişdir: *"Aşağı səviyyəli işlə məşğul olub ruzi qazanmaq insanlara möhtac olmaqdan daha xeyirlidir".*[1]

**104)** Cəhmilərdən başqa, arxasında namaz qılmaq üçün yararlı olan kəsin arxasında qılınan namaz səhihdir. Çünki onlar muattilədir.[2] Onların arxasında namaz qılsan, namazı yenidən əda et! Əgər cümə namazında imam cəhmi və eyni zamanda sultan olarsa, onun arxasında namaz qıl, lakin daha sonra həmin namazı yenidən əda et! Əgər (namazda) imamın sultan, yaxud başqa biri olsa və əgər o, sünnət əhlidirsə, o zaman onun arxasında namazı qıl və yenidən namazı əda etmə!

**105)** Əbu Bəkr və Ömərin Allahın elçisi ﷺ ilə birlikdə Aişənin otağında dəfn olunduğuna etiqad etmək. Onların qəbrinin yanına gəldikdə Allahın elçisinə ﷺ salam verdikdən sonra onları da salamlamaq vacibdir.

---

[1] İbn Əbid-Dünyə " İslahul-mal" 321, İbn Hibbən "əs-Siqat" 8/204, İbn Əbdülbər "ət-Təmhid" 18/329

[2] Muattilə – Uca Allahın ad və sifətlərini inkar edən, yaxud batil mənalara təvil edən (yəni yozan) firqələrə deyilir.

**106)** Qılıncından, yaxud əsasından qorxduğun kəslər istisna olmaqla, hər bir kəsə yaxşılığı əmr edib, pislikdən çəkindirməyin vacibdir.[1]

**107)** Salam Allahın bütün qullarına verilər.[2]

**108)** Kim məsciddə Cümə və camaat namazlarını üzrsüz yerə tərk etsə, o bidətçidir. Üzr isə ya insanın xəstələnib camaat namazına çıxmağa taqəti olmaması, ya da zalım rəhbərdən qorxaraq namaza

---

[1] Uca Allah buyurur: *"Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz"* (Ali-İmran: 110).

[2] Hərbi olmayan, yəni müsəlmanlarla savaşmayan kafirlərə salam verməyin hökmü barədə alimlər ixtilaf etmişlər. Ona görə də tabiinlərdən Əuzai belə demişdir: "Əgər kafirlərə salam versən, bil ki, (səndən öncə) saleh insanlar (yəni sələflər – səhabə və tabiinlər) salam vermişlər. Yox, əgər kafirlərə salam verməsən, bil ki, (səndən öncə) saleh insanlar da onlara salam verməmişlər" ("Zədul-məad" 2/388). İxtilafın əsas səbəbi isə Peyğəmbərdən ﷺ bunu qadağan etməsinə dair hədisin varid olmasıdır. Hədisdə belə deyilir: *"Yəhudi və nəsranilərə siz birinci salam verməyin!"* (Müslim 2167). Hədisin başqa ləfzində *"yəhudilərə"*, yaxud *"onlara siz birinci salam verməyin"* qeyd edilir. İbn Qeyyim bu hədis ilə əlaqəli şeyxi İbn Teymiyyədən belə dediyini nəql etmişdir: "Peyğəmbərin ﷺ *"onlara siz birinci salam verməyin!"* – sözünə gəldikdə, Allah elçisi bu sözü Qureyza yəhudiləri ilə hərb etmək üçün yola çıxdıqda demişdir. Çünki salam əmin-amanlıq üçündür, o ﷺ isə onlarla hərb etmək üçün yola çıxmışdı" ("Əhkəmu əhliz-zimmə" 3/1326). Bu mənaya dəlalət edən hədislərin birində Allah elçisi ﷺ belə demişdir: *"Sabah mən yəhudilərin yanına gedirəm. Onlara siz birinci salam verməyin. Əgər onlar sizə salam versələr, "və aleykum" – "sizə də" deyin!"* (İbn Macə 3699, səhih hədisdir). Sufyan ibn Uyeynəyə "kafirlərə salam vermək icazəlidirmi?" – deyildikdə belə cavab vermişdir: "Bəli, icazəlidir. Çünki Uca Allah belə buyurur: *"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir"* (Əl-Mumtəhinə: 8). Həmçinin İbrahim ﵇ atasına *"sənə salam olsun!"* (Məryəm: 47) – demişdir" ("Təfsir əl-Qurtubi" 11/111). Həmçinin sələfdən bəziləri Uca Allahın *"Peyğəmbər dedi: "Ey Rəbbim! Bunlar iman gətirməyən adamlardır!" Onlara "Salam!" deyib, vaz keç"* (Əz-Zuxruf 88-89) – ayəsini də hərbi olmayan kafirlərə salam verməyin icazəli olmasına dəlil kimi zikr etmişlər (Bax: İbn Əbi Şeybə "əl-Musənnəf" 25867, 25750).

getməməsidir. Bundan başqa səbəbə görə məscidə getməyən üçün üzr yoxdur.[1]

**109)** İmamın arxasında namaz qılıb, lakin niyyətində ona tabe olmayanın namazı yoxdur.[2]

**110)** Yaxşılığı əmr edib pislikdən çəkindirmək əl, dil və qəlblə olur, qılıncla olmur.[3]

**111)** Hər hansı bir müsəlmandan şübhəli şey ortaya çıxmadıqca onun halı örtülü olaraq qalar.[4]

**112)** Kitab və sünnətdə mövcud olmayan və insanların batini elm olaraq iddia etdikləri hər bir elm bidət və zəlalətdir. Heç kəsə belə

---

[1] Ümumiyyətlə, məscidləri tərk etmək Əhli-sünnətin vəsfi deyildir. Əksinə, Əhli-sünnət daima – bütün əsrlər boyunca məhz camaat və məscid əhli olmaqla tanınmışlar. Məscidləri tərk etmək, adətən, xəvariclərin və rafizi şiələrin vəsfi olmuşdur.

[2] Müəllifin qeyd etdiyi bu məsələ rafizi şiələrində məşhurdur. Onlar öz məzhəblərindən olmayan bir imamın arxasında namaz qılar, zahirən ona tabe olduqlarını və "vəhdət" nümayiş etdirərlər, lakin niyyətlərində ona tabe olmazlar. Öz aralarında buna "təqiyyə namazı" deyərlər. Belə namaz müəllifin də qeyd etdiyi kimi tamamilə batildir.

[3] Peyğəmbər ﷺ belə demişdir: *"Kim şəriətə müxalif bir əməl görsə, onu əli ilə dəyişsin, əgər buna gücü çatmazsa, dili ilə, buna da gücü çatmazsa, qəlbi ilə onu dəyişsin (yəni qəlbi ilə o əməli inkar etsin). Bu isə imanın ən zəif dərəcəsidir"* (Müslim: 78). Müəllif burada "yaxşılığı əmr edib, pisliklərdən çəkindirmək qılıncla olmur" deyərkən Mötəzilə, Xəvaric və Şiə firqələrinə cavab vermiş olur. Çünki bu firqələr yaxşılığı əmr edib, pisliklərdən çəkindirməni dinin və etiqadın əsaslarından biri kimi qəbul etmiş, lakin bununla zalım rəhbərlərə qarşı qiyam etməyi nəzərdə tutmuşlar. Belə ki, onlara görə yaxşılığı əmr edib pislikdən çəkindirməyin əsli zalım rəhbərə qarşı qiyam etməkdir.

[4] "Məsturul-hal", yəni halı örtülü olan – batini halı bilinməyən müsəlmana deyilir. Belə birisi zahirdə adil hökmündədir. Tabiinlərdən İbrahim ən-Nəxai demişdir: "Müsəlmanlar arasında adil olan kəs aşkarda heç bir şübhəli halı olmayan kəsdir" (Beyhəqi "əs-Sünən" 10/124, Əbu Nueym "əl-Hilyə" 9/224).

bir şeyə əməl etməsi və insanları da ona tərəf çağırması icazəli deyildir.

**113)** Özünü bir kişiyə hədiyyə edən qadın həmin kişiyə halal olmaz. Əgər o kişi qadından istifadə edərsə, ikisinə də cəza tətbiq olunar. Qadın yalnız vəlisinin icazəsi, iki ədalətli şahid və mehrlə ərə gedə bilər.

**114)** Bir kimsəni Allahın elçisinin ﷺ səhabələrindən kiməsə tənə etdiyini görsən, bil ki, o şər fikirli bir bidətçidir. Çünki Peyğəmbər ﷺ belə demişdir: *"Mənim səhabələrim zikr olunduqda dilinizi qoruyun!"*[1] Peyğəmbər ﷺ sağlığında ikən bilirdi ki, o öldükdən sonra onlardan xəta edənlər olacaqdır. Buna baxmayaraq, onlar barədə yalnız xeyir danışırdı. Həmçinin o demişdir: *"Mənim səhabələrimi tərk edin, onlar barədə ancaq xeyir danışın".*[2] Onların xətaları və aralarında olan döyüşlər barədə, həmçinin onlar haqqında bilmədiyin bir şeyi danışma! Bu barədə danışan birini də dinləmə, çünki belə birinə qulaq versən qəlbin salamat qalmaz.

**115)** Bir kəsin hədislərə tənə etdiyini, yaxud onları qəbul etmədiyini və ya hədislərdən başqasını istədiyini eşitsən, onun islamından şübhə et və onun nəfsinə uyan bir bidətçi olmasında qətiyyən şübhən olmasın!

**116)** Bil ki, sultanın zülmü Allahın Peyğəmbəri ﷺ vasitəsilə fərz etdiyi vaciblərdən heç bir şeyi azaltmağa əsas vermir. Rəhbərin zülmü onun öz əleyhinədir. Onunla birlikdə etdiyin ibadətlərin və xeyir əməllərin, yəni onunla birgə qıldığın Cümə və camaat namazların, onunla birgə etdiyin cihadın inşəallah tamdır və

---

[1] Təbərani "əl-Mucəmul-kəbir" 2/96, hədis: 1427, hədis səhihdir. Bax: "əs-Silsilə əs-sahihə" 34.

[2] Hədisi bənzər bir ləfzlə imam Əhməd "əl-Müsnəd" (3/266, hədis: 13812)-də rəvayət etmiş, Əlbani də "əs-Silsilə əs-sahihə" (1923)-də səhih olduğunu qeyd etmişdir.

səhihdir. Bir sözlə, bütün xeyir əməllərdə onunla birlikdə ol! Sənə öz niyyətinə görə əcr vardır.

**117)** Bir kimsəni rəhbər üçün bəddua edən görsən, bil ki, o, bidətçidir.[1] Əgər bir kimsəni rəhbərin islahı üçün dua edən görsən, bil ki, o, inşəallah, sünnət əhlidir. Çünki Fudeyl ibn İyad[2] belə demişdir: "Əgər mənim müstəcəb[3] bir duam olsaydı, onu yalnız rəhbər üçün edərdim". Əhməd ibn Kamil bizə xəbər verərək dedi: Hüseyn ibn Muhəmməd ət-Təbəri bizə xəbər verərək dedi: Mərdəveyh əs-Saiğ[4] bizə xəbər verərək belə dedi: mən Fudeylin belə dediyini eşitdim: "Əgər mənim müstəcəb bir duam olsaydı, onu yalnız rəhbər üçün edərdim". Ona belə deyildi: "Ey Əbu Əli, bu sözü bizim üçün açıqla!" Belə cavab verdi : "Əgər mən o duanı özüm üçün etsəm, məndən ötə keçməyəcək (yəni başqasına faydası olmayacaq). Amma o duanı rəhbər üçün etsəm, o islah olar və onun islahı ilə də insanlar və diyarlar düzələr".[5] Biz zülm və haqsızlıq edəcəkləri təqdirdə, rəhbərlərin islahı üçün dua etməklə əmr olunmuşuq, onlar üçün bəddua etməklə əmr olunmamışıq.

---

[1] Əbu Həmzə deyir ki, Kəbənin yanması xəbəri (bu hadisə Həccacın zamanında baş vermişdi. İbn Zübeyrin mühasirəsi zamanı mancanaqdan atılan od parçası Kəbəyə tuş gəlmiş və Kəbənin örtüyü yanmışdı) mənə çatdıqda Məkkəyə doğru yola çıxdım. Mənimlə tanış olana qədər orada İbn Abbasın ﵁ yanına gedib-gəlirdim. Mənimlə həmsöhbət oldu. Bir gün İbn Abbasın yanında Həccacı söydüm. O isə cavabında mənə belə dedi: *"Nəbadə şeytana yardımçı olasan!"* (Buxari "ət-Tərix əl-Kəbir" 2352) Əbu İshaq əs-Səbi belə demişdir: *"Rəhbərlərini söyən qövm onun xeyrindən məhrum olar"* (İbn Əbdülbər "ət-Təmhid" 21/287 və "əl-İstizkar" 8/579, Əbu Amr əd-Dəni "əs-Sunənul-varidə fil-fitən" 146).

[2] Əhli-sünnətin alimlərindən, zühd və təqva əhli biri idi. Hicrətin 187-ci ilində vəfat etmişdir.

[3] Müstəcəb, yəni Allah qatında məqbul olan.

[4] Fudeyl ibn İyadın xidmətçisi idi. Əhli-sünnət etiqadı üzərində olan etibarlı biri idi. Hicrətin 235-ci ilində vəfat etmişdir.

[5] Müəllifin sənədi ilə zikr etdiyi bu əsəri Əbu Nueym də "əl-Hilyə" (8/91)-də rəvayət etmişdir. Abdullah ibn Mübarək Fudeyl ibn İyadın bu sözü barədə belə demişdir: "Ey xeyirxah müəllim! Səndən başqa bu cür sözü deməyə kim cürət edərdi?!" (Ləlakəi 1/197)

Çünki onların zülm və haqsızlıqları onların öz əleyhlərinə, islah olmaları isə həm özlərinin, həm də müsəlmanların xeyrinədir.[1]

**118)** Möminlərin analarını ancaq xeyirlə yad et![2]

**119)** Bir kimsəni davamiyyətli olaraq fərz namazlarını rəhbərlə və ya başqası ilə birlikdə camaatla qıldığını görsən, bil ki, o, inşəallah, sünnət əhlidir. Bir kimsənin rəhbərlə birlikdə olsa belə, fərz namazlarını camaatla qılmağa səhlənkarlıq etdiyini görsən, bil ki, o, bidət əhlidir.

**120)** Halal – sənin halallığına şahidlik etdiyin və üzərinə and içdiyin şeydir. Haram da bunun kimidir. Qəlbində sıxıntı və tərəddüd yaradan şey isə şübhədir.

**121)** Məstur – halı örtülü olan kəsdir. Məhtuk isə günahları aşkara çıxan kəsdir.[3]

**122)** Bir kimsənin "filankəs müşəbbihədir", "filankəs təşbihlə danışır" dediyini eşitsən, onu dinində ittiham et və bil ki, o, cəhmidir.[4] Bir kimsənin "filankəs nasibidir" dediyini eşitsən, bil

---

[1] İmam Əhməd bu barədə belə demişdir: "Mən gecə-gündüz sultan üçün müvəffəqiyyət diləyir və Allahın ona kömək olması üçün dua edirəm və bu əməli özümə vacib bilirəm" (Xalləl "əs-Sünnə" 14, İbn Kəsir "əl-Bidəyə vən-nihəyə" 10/337).

[2] Uca Allah buyurur: *"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"* (Əl-Əhzab: 6).

[3] Halı örtülü olan, yəni batini halı bilinməyən müsəlman gizlində asilikləri olsa belə, zahirdə adil hökmündədir. Çünki bizə vacib olan onunla məhz onun zahirinə görə rəftar etməyimizdir. Bunun əksi isə asilikləri aşkarda olan kəsdir ki, belə birisinə də "məhtuk" deyilir.

[4] Allahın ad və sifətlərini inkar edən, yaxud batil mənalara yozan Muattilə firqəsi Allahın sifətlərinin isbatını təşbih (bənzətmə) saymış, isbat edənləri isə "müşəbbihə" adlandırmışdır. Bu barədə imam İshaq ibn Rahaveyh belə demişdir: "Cəhm ibn Səfvanın və onun həmfikirlərinin əlaməti böhtan ataraq Əhli-sünnətə "müşəbbihə" deməlidir" (Ləlakəi "Şərh usuli etiqadi Əhlis-sünnə" 937).

ki, o, rafizidir.[1] Bir kimsənin "tövhiddən danış!", "mənə tövhidi şərh et!" dediyini eşitsən, bil ki, o, xaricidir, mötəzilidir.[2] Həmçinin bir kimsə "filankəs cəbridir" deyirsə, yaxud icbar (məcburiyyət) və ya adillik barədə danışırsa, bil ki, o, qədəridir.[3] Çünki bu adların (ləqəblərin) hamısı sonradan ortaya çıxıb və bunları bidət əhli icad edib.[4]

**123)** Abdullah ibn Mübarək belə demişdir: "Rafizilik (yəni əhli-beyt düşmənlərindən bəraət edib uzaq durmaq) barədə Küfə əhlindən heç nə öyrənməyin! Həmçinin inqilablar haqqında Şam əhlindən, qədər mövzusunda Bəsrə əhlindən, ircalıq barədə Xorasan əhlindən, sarf (valyuta mübadiləsi) haqqında Məkkə əhlindən və musiqi barədə Mədinə əhlindən heç bir şey götürməyin! Bir sözlə, bu mövzularda bu diyarların əhlindən heç bir şey öyrənməyin!"[5]

---

[1] Rafizilərin əlaməti Əhli-sünnətə böhtan ataraq "nasibi" deməleridir. Əslində, nasibi ləqəbi əhli-beytə düşmən olanlara verilən bir ləqəbdir. Rafizilər isə özlərinin əhli-beyt barədə olan batil etiqadlarını qəbul etməyən hər kəsə, xüsusən də, Əhli-sünnətə bu ləqəbi vermişlər.

[2] Müəllif burada məhz mötəzilənin qəsd etdiyi "tövhid"i nəzərdə tutur. Onlar tövhid dedikdə Allahın ad və sifətlərini inkar etməyi nəzərdə tuturlar.

[3] Çünki qədərilərə (yəni qədəri inkar edənlərə) görə, qədərə iman etmək insanın əməllərində məcbur olması anlamına gəlir. Buna əsasən də onlar qədərə iman edən hər kəsə "cəbri" deyirlər. Həmçinin onlar qədəri isbat etməyi Uca Allahın ədalətinə də zidd gördükləri üçün "Ədl" (yəni Allahın adil olması) inancını etiqadlarının əsası etmiş və bununla da məhz qədərin inkarını nəzərdə tutmuşlar.

[4] İslam dini digər dinlər arasında orta bir din olduğu kimi, Əhli-sünnət məzhəbi də İslam daxilində olan məzhəblər arasında orta bir məzhəbdir. Həm həddi aşmaq və ifratdan, həm də təfritdən, yəni laqeydçilik və səhlənkarlıqdan tamamilə uzaqdır. Bu səbəbdən də ifrat əhli daima onları səhlənkarlıqda, təfrit əhli isə həddi aşmaqda ittiham etmişdir. Belə ki, rafizilər onları nasibilikdə, nasibilər isə rafizilikdə, xəvariclər onları murciəlikdə, murciələr isə xəvariclikdə ittiham etmişdir. Həmçinin qədərilər onları cəbrilikdə, cəbrilər isə qədərilikdə, muattilə onları təşbihdə, təşbih əhli isə muattiləlikdə ittiham etmişdir. Heç şübhəsiz ki, Əhli-sünnət bu ittihamlardan tamamilə bəridir.

[5] Rafiziliyin beşiyi Küfə diyarı sayılır. Onlar əhli-beyt düşmənlərindən bəraət etmək adı altında bu ümmətin ən əfzəl kəsimləri olan səhabələrə düşmən kəsilmiş və dinlərini onlara nifrət üzərində qurmuşlar. Şam əhli isə inqilablara meyilli idi. Qədər fitnəsi Bəsrədə, ircalıq isə Xorasan diyarında geniş

**124)** Bir kimsəni Əbu Hureyrəni, Ənəs ibn Məliki, Useyd ibn Hudeyri ﷺ sevən görsən, bil ki, inşəallah, o, sünnət əhlidir.[1] Bir kimsəni Əyyubu[2], ibn Aunu[3], Yunus ibn Ubeydi[4], Abdullah ibn İdris əl-Əudini[5], Şabini[6], Malik ibn Miğvəli[7], Yezid ibn Zureyi[1],

---

yayılmışdır. Məkkə şəhəri isə ticari bir məkan idi. Oranın tacirləri valyuta mübadiləsi məsələsində səhlənkarlıqlara yol verir və şəriətin qoyduğu çərçivədən kənara çıxardılar. Bu hal Məkkədə yayğın idi. Hətta onlardan bəziləri ribanın bəzi növlərini icazəli bilirdilər. Mədinə əhli isə daima musiqi məsələsində səhlənkar olmuşdur. Musiqini halal bilmələrinə dair onlardan bir çox nəqllər varid olmuşdur. Bu səbəbdən ötrü daima qınanmışlar. İmam Əuzai demişdir: “Kim Küfə əhlinin nəbiz (üzümdən olmayan, lakin sərxoşluq verən içki növü) barədə, Məkkə əhlinin sarf (valyuta mübadiləsi) barədə və Mədinə əhlinin musiqi barədə olan rəyini götürərsə, o artıq özündə bütün şəri toplamış sayılar” (İbn Teymiyyə “əl-İstiqamə” 1/274).

[1] Müəllifin məhz bu üç səhabənin adını qeyd etməsi misal baxımından olan bir qeyddir. Onu da qeyd edim ki, bu üç səhabə rafizilərin ən çox nifrət etdikləri səhabələrdəndir.

[2] Əyyub əs-Sixtiyəni ətbəut-tabiindən olan təqva əhli bir alimdir. Sünnəti müdafiə və bidət əhlinə qarşı şiddətli olması ilə tanınmışdır. Hicri 131-ci ildə vəfat edib.

[3] Abdullah bin Aun ətbəut-tabiindən olan Bəsrə əhlinin imamlarından biridir. İbn Mehdi onun barədə belə demişdir: “İraqda sünnəti İbn Aundan daha yaxşı bilən yoxdur”. İbn Xalid demişdir: “Muhəmməd ibn Sirinin təqvası daima bizi heyrətə salardı. İbn Aun bu məsələdə onu bizə unutdurdu (yəni İbn Aunun təqvasına daha çox heyran qalmışdıq)”. Hicri 150-ci ildə vəfat edib.

[4] Yunus bin Ubeyd Bəsrə əhlinin böyük alimlərindən və sünnət sahibi birisi idi. Bidət əhlinə qarşı çox şiddətli idi. Təqvası – Allah qorxusu səbəbilə hər nəql etdiyi hədisdən sonra xəta edə bilər deyə üç dəfə “əstəğfirullah!” deyərək Allahdan bağışlanma diləyərdi. Hicri 139-cu ildə vəfat edib.

[5] Abdullah bin İdris əl-Əudi Küfə əhlinin böyük alimlərindən biridir. Özü küfəli olsa da, verdiyi fətvaları, adətən, Mədinə əhlinin məzhəbinə uyğun olardı. Bir çox məsələdə Küfə (rəy) əhlinə müxalif olmuşdur. İmam Malik ilə arasında yaxın bir dostluğu var idi. Hicri 192-ci ildə vəfat edib.

[6] Amir bin Şərahil əş-Şabi tabiinlərdən idi. Məkhul onun barədə belə demişdir: “Şabidən daha fəqih olan birini görmədim”. Onun məşhur kəlamlarından biri belədir: “Alimlərin asi olanlarından, abidlərin isə cahillərindən uzaq durun!” Hicri 104-cü ildə vəfat edib.

[7] Malik bin Miğvəl Küfə əhlinin alimlərindəndir. İbn Sad onun barədə demişdir: “Çox hədis nəql edən, etibarlı və fəzilət sahibi birisi idi”. İbn Mehdi belə

Muaz ibn Muazı[2], Vahb ibn Cəriri[3], Həmməd ibn Sələməni[4], Həmməd ibn Zeydi[5], Malik ibn Ənəsi[6], Əuzaini[7], Zəidə ibn Qudəməni[8] sevən görsən, bil ki, o, sünnət əhlidir. Həmçinin bir kimsəni Əhməd ibn Hənbəli, Həccac ibn Minhəli[9], Əhməd ibn Nasri[10] sevən, onları xeyirlə yad edən və onların dediklərini deyən görsən, bil ki, o, sünnət əhlidir.

**125)** Bir kimsəni bidət əhlindən biri ilə oturub-duran görsən, (ilk növbədə) onu həmin bidətçidən çəkindir və o bidətçini ona tanıt! Onu tanıyandan sonra yenə də onunla oturub-durmağa davam edərsə, artıq özünü ondan qoru, çünki o, bidət əhlindəndir.[11]

---

demişdir: "Əgər Küfə əhlindən Malik ibn Miğvəli xeyirlə yad edən birini görsən, ona etibar edə bilərsən". Hicri 159-cu ildə vəfat edib.

[1] Yezid bin Zurey imam Əhmədin hədisdə şeyxlərindəndir. Bişr ibn Haris onun barədə belə demişdir: "Hədis rəvayətində onun kimi güclü və etibarlı birini gördüyümü xatırlamıram". Hicri 182-ci ildə vəfat edib.

[2] Muaz bin Muaz Bəsrənin hədis hafizlərindən biridir. Yəhya ibn Səid onun barədə belə demişdir: "Nə Bəsrədə, nə Küfədə, nə də Hicazda hədis elmində Muaz bin Muazdan daha möhkəm birisi yoxdur". Hicri 196-cı ildə vəfat edib.

[3] Vahb bin Cərir bin Hazim Bəsrənin alimlərindən idi. İmam Əhməd onu "sünnət sahibi" olaraq vəsf etmişdir. Hicri 206-cı ildə vəfat edib.

[4] Həmməd bin Sələmə sünnət imamlarındandır. Əffan ibn Müslimin dediyi kimi Quran qiraətinə, gecə ibadətlərinə, xeyir və saleh əməllərə düşkün biri idi. Hicri 167-ci ildə məsciddə namaz qıldığı halda vəfat etmişdir.

[5] Həmməd bin Zeyd Bəsrə əhlinin imamı və hədis hafizlərindən idi. Əbdürrəhman ibn Mehdi demişdir: "Hədis elminin imamları dörd nəfərdir: Əuzai, Malik ibn Ənəs, Sufyan əs-Souri və Həmməd ibn Zeyd". Hicri 179-cu ildə vəfat edib.

[6] Malik ibn Ənəs Mədinə əhlinin fəqihi və imamı idi. Hicri 179-cu ildə vəfat etmişdir.

[7] Əbdürrəhman bin Amr əl-Əuzai Şam əhlinin fəqihi və imamı idi. Hicri 157-ci ildə vəfat edib.

[8] Zəidə bin Qudamə Küfənin böyük hədis imamlarından idi. Hicri 161-ci ildə vəfat edib.

[9] əl-Həccəc bin Minhəl sünnət sahibi alimlərdən idi. Hicri 217-ci ildə vəfat edib.

[10] Əhməd bin Nasr Quranın məxluq olub-olmaması fitnəsində şəhid edilən Əhli-sünnət alimlərindən biridir. Hicri 231-cı ildə öldürülmüşdür.

[11] Sufyan əs-Souri Bəsrə şəhərinə gəldikdə Rabi ibn Subeyhin halı və onun insanlar yanında olan dəyəri barədə fikirləşməyə başladı. Sonra da onun

**126)** Bir kəsə hədislərdən dəlil gətirdikdə onu istəməyib, yalnız Qurandan dəlil tələb etdiyini görsən, bil ki, bu insan zındıqdır. Onun yanından qalx və onu tərk et!

**127)** Bil ki, bidətlərin hamısı pisdir və hamısı qılınca (yəni inqilablara, fitnəyə) çağırır.[1] Onların ən pisi və küfrə ən yaxın olanı rafizilər, mötəzil və cəhmilərdir. Çünki onlar insanları Allahın ad və sifətlərini inkara və zındıqlığa təhrik edirlər.

**128)** Bil ki, Muhəmmədin əshabından ﵃ birinə tənə etmək istəyən kəs əslində Muhəmmədin ﷺ özünə tənə etmək istəyir. Belə birisi artıq qəbrində Muhamməda ﷺ əziyyət vermişdir.

---

məzhəbi barədə soruşdu. Ona dedilər ki, onun məzhəbi sünnət üzərindədir. İmam əs-Souri yenə də soruşdu: oturub-durduqları, dostları, ətrafı kimlərdir? Dedilər ki, qədərilər. İmam belə dedi: "Deməli, elə o da qədəridir" (İbn Batta "əl-İbanə əl-kubra" 426, daha sonra İbn Batta Sufyan əs-Sourinin sözünə dəstək olaraq bu ayəni qeyd edir: *"Ey iman edənlər! Sizdən olmayanları özünüzə dost tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər. Sizin sıxıntıya düşmənizi istəyərlər".* Ali İmran: 118-ci ayə).

Uqbə ibn Əlqamə rəvayət edir ki, Artaə ibn əl-Munzirin (Allah ona rəhmət etsin) yanında idim. Həmin məclisdə olanlardan bəziləri belə dedilər: "Bir nəfər var: əhli-sünnət ilə oturub-durur, amma onun yanında bidət əhlinin adı çəkilən kimi həmən buna etiraz edərək, "onlar barədə danışmayın!" deyir. Belə biri barədə fikriniz nədir? Artaə belə dedi: "O da elə onlardandır. Onun halı sizi aldatmasın". Uqbə ibn Əlqamə sözünün davamında deyir ki, Artaənin bu sözünü qəbul etmədim və bu cür şeylərin həqiqətini üzə çıxarmaqda mahir bir usta olan İmam Əuzainin yanına getdim və ona olub keçənləri nəql etdim. İmam isə cavabında belə dedi: "Artaə doğru deyib. Həqiqət elə onun dediyi kimidir. Əgər bir kimsəni daima bidət əhli ilə gəzən görsən, o şəxs həmin bidətçinin fikrində və etiqadında olmadığına dair and içsə belə, ona inanma!" (İbn Əsakir "Tarix Diməşq" 8/15).

[1] Sələflərdən bəziləri belə deyərdi: "Bidət əhli sözdə, etiqadda ixtilaf etsə də, qılınc üzərində ittifaq ediblər (yəni digər məsələlərdə ixtilaf etsələr də, rəhbərə qarşı çıxmaq məsələsində ittifaq ediblər)" (Dərimi "əs-Sünən" 1/44).

**129)** Hər hansı bir insandan sənə bidətlərdən nəsə görünsə, ondan həzər et. Çünki onun səndən gizlətdiyi aşkara çıxardığından çoxdur.

**130)** Əhli-sünnətdən pis yolun yolçusu olan, asi və fasiq, lakin sünnət üzərində olan günahkar birini görsən, onunla yoldaşlıq et, onunla birlikdə otur, çünki onun asiliyi sənə zərər verməz. Amma ibadətlərində möhkəm və çalışqan, ibadətlərinə həris, lakin bidətçi olan birini görsən, onunla oturma, yoldaşlıq etmə, onun sözünü dinləmə və onunla birgə yolda gəzmə! Çünki mən onun öz yolunu sənə xoş göstərməyəcəyindən və sənin də o yola düşüb həlak olmayacağından arxayın deyiləm.[1]

Yunus ibn Ubeyd oğlunun bir bidətçinin evindən çıxdığını görüb ona belə dedi: "Ey oğlum, sən haradan gəlirsən?" Dedi ki, filankəsin[2] yanından. (Yunus) dedi: "Sənin müxənnəs[3] birinin evindən çıxmağın mənim üçün filankəsin evindən çıxmağından daha sevimlidir. Ey oğlum, çünki sənin Allahın dərgahına zinakar, fasiq, oğru, xain kimi getməyinə razıyam, amma bidətçilərin sözünü dediyin halda, Allahla görüşməyinə razı deyiləm".[4]

Məgər görmürsən ki, Yunus ibn Ubeyd müxənnəs birinin oğlunu dinindən azdırmayacağını, amma bidətçinin isə onu azdıracağını və hətta küfrə də düçar edəcəyini bilirdi?!

---

[1] Bu məqamda imam Şafinin qızıl hərflərlə yazılası bir kəlamını xatırlamaq yerinə düşərdi. Belə ki, imam demişdir: "Bəndənin (Qiyamət günü – hesab meydanında) şirkdən başqa bütün asiliklər ilə Allahın önünə çıxması bidətlər ilə çıxmasından daha xeyirlidir" (Beyhəqi "əl-Etiqad" səh. 158). İmam Əhməd belə demişdir: "Əhli-sünnətdən böyük günah sahiblərinin qəbirləri bağça, bidət əhlindən zahid olanların qəbirləri isə bir çuxurdur. Əhli-sünnətin fasiqləri Uca Allahın dostları, bidət əhlinin zahidləri isə Uca Allahın düşmənləridirlər" ("Tabaqatul-Hənəbilə" 1/184).

[2] Kitabın digər əlyazma nüsxəsində filankəs əvəzinə Amr ibn Ubeydin adı yazılmışdır. Adı çəkilən bu şəxs isə kəlam elmini insanlar içərisində yayan ilkin bidətçilərdən sayılır.

[3] Həm kişi, həm də qadın cinsi üzvü olan kəslərə deyilir.

[4] Bu hadisəni Əbu Nueym "əl-Hilyə" 3/20-21, Xatib "Tarix Bağdad" 12/172-173, İbn Batta isə "İbanə əl-kubra" hədis: 464-də səhih bir sənədlə rəvayət etmişlər.

**131)** Xüsusən, yaşadığın dövrdə kiminlə oturub-durduğuna, kimə qulaq asdığına və kiminlə yoldaşlıq etdiyinə fikir ver və ehtiyatlı ol! Çünki insanlar, Allahın qoruduğu kəslər istisna olmaqla, sanki riddət (küfr) içindədirlər.[1]

**132)** Bir kimsəni İbn Əbu Duədi[2], Bişr əl-Mərisini[3], Suməməni[4], Əbu Huzeylini[5], Hişəm əl-Futini və bunların ardınca gedənləri və bunların tərəfdarlarını yad edən görsən, həmin adamdan çəkin,

---

[1] Peyğəmbər ﷺ demişdir: *"Kişi öz dostunun dinindədir. Sizlərdən hər kəs kimlə dostluq elədiyinə fikir versin!"*(Əbu Davud 4833 həsən hədis) Abdullah ibn Məsud ؓ demişdir: "İnsanları dostlarına görə tanıyın. Çünki insan, adətən, sevdiyindən başqası ilə dostluq eləməz" (Əbdürrəzzaq 7894). İmam Əuzaiyə belə dedilər: bir nəfər var, deyir ki, mən sünnət əhli ilə də oturub-dururam, bidət əhli ilə də. İmam isə cavabında belə dedi: "Deyəsən, bu insan haqq ilə batili eyniləşdirmək istəyir" (İbn Batta "əl-İbanə əl-kubra" 435, daha sonra İbn Batta Əuzainin sözünə dəstək olaraq, bu ayəni qeyd edir: *"Onlar möminlərlə rastlaşdıqda; "Biz iman gətirdik", - deyərlər. Öz şeytanları (yəni azmış dostları) ilə olduqda isə:"Biz sizinləyik", - deyərlər".* Əl-Bəqərə: 14-cü ayə). Abdullah ibn Mübarək və Əbdürrəhman əl-Əuzai belə demişlər: "Kim öz bidətini bizdən gizlətsə də, heç vaxt öz ətrafını bizdən gizlədə bilməyəcək" (İbn Batta "əl-İbanə əl-kubra" 425 və 513, Ləlləkai 257).

[2] Əhməd ibn Əbu Duəd Cəhmi məzhəbinin mənsublarındandır. İmam Əhmədin zamanında yaşayırdı. İmam Əhmədə "Əhməd əs-sünnə" (yəni sünnətin Əhmədi), İbn Əbu Duədə isə "Əhməd əl-bidə" (yəni bidətin Əhmədi) deyilərdi. Quranın məxluq (yaradılmış) olduğu fikrinə dəvət edənlərin öncülərindən idi. Xəlifə Mötəsim və Vasiqin zamanında qazilərin rəhbəri vəzifəsinə malik olmuşdur. Xəlifələri "Quran məxluqdur" deməklə camaatı imtahana çəkməyə sövq edənlərdən biri və ən əsası da elə o idi. Hicrətin 240-cı ilində həlak olub.

[3] Əbu Əbdürrəhman Bişr əl-Mərisi hənəfi fəqihlərindəndir. Fiqh elmini Əbu Hənifənin tələbəsi olan Qazi Əbu Yusufdan götürmüşdür. Kəlam elmi ilə məşğul olmuş və bu yolla da azmışdır. Quranın məxluq olduğu etiqadına dəvət edənlərdən və irca əqidəsi üzərində həddi aşanlardan idi. Hətta ona Murciə məzhəbinin "əl-Mərisiyyə" və Mötəzilə məzhəbinin "əl-Bişriyyə" firqəsi nisbət edilmişdir. Hicrətin 218-ci ilində həlak olmuşdur. Cənazəsində elm əhlindən heç kəs iştirak etməmiş və hamı onu tərk etmişdi.

[4] Suməmə ibn Əşras əl-Bəsri öz zamanında Mötəzilə məzhəbinin öncülərindən idi. Hicrətin 213-cü ilində həlak olub.

[5] Muhəmməd ibn Hüzeyl əl-Alləf əl-Bəsri öz zamanında bidətçilərin və kəlam əhlinin imamlarından idi. Hicrətin 227-ci ilində həlak olub.

çünki o, bidətçidir. Çünki adları zikr olunan adamlar riddət (küfr) üzərində olublar. Onları, yaxud onlardan birini xeyirlə yad edən kəsi tərk et!

**133)** İslamda insanları imtahan edib yoxlamaq bidətdir, lakin bu gün insanlar sünnət ilə imtahan olunurlar, məhz (Peyğəmbərin ﷺ) bu sözünə əsasən: *"Həqiqətən, bu elm dindir. Dininizi kimdən götürdüyünüzə diqqət edin!"*[1]; *"Hədisi yalnız şahidliyi qəbul olunan adamdan götürün!"*[2] Fikir ver, əgər o şəxs sünnət əhlidirsə, tanınmış və etibarlı adamdırsa, onun nəql etdiyi hədisləri yaza bilərsən, əks halda onu tərk etməlisən.[3]

---

[1] Bu kəlam mərfu, yəni Peyğəmbərin ﷺ sözü olaraq sabit olmamışdır. Bu kəlamı Peyğəmbərin ﷺ sözü olaraq İbn Ədiy "əl-Kamil" 1/155-də nəql etmişdir. Hədisin sənədi həddən ziyadə zəifdir. Bax: İbn Couzi "əl-Vahiyət" 1/131, Əlbani "Daiful-cəmi" 2021. Lakin bu kəlam tabiinlərdən Muhəmməd ibn Sirinin sözü olaraq səhih bir sənədlə nəql olunmuşdur. Bax: Müslim "Muqəddimə əs-Səhih" 1/14, Əbu Nueym "əl-Hilyə" 2/278, Xatib əl-Bağdadi "əl-Kifəyə" səh. 161

[2] İbn Ədiy "əl-Kamil" 1/159, 2/798, İbn Couzi "əl-Vahiyət" 1/131, Xatib əl-Bağdadi "əl-Kifəyə" səh. 125-126. Hədis zəifdir.

[3] Müəllifin də qeyd etdiyi kimi, insanları etiqadlarına görə və səbəbsiz yerə imtahana çəkmək əsli etibari ilə bidətdir. İnsanlarla zahiri hallarına görə rəftar olunmalı və batinləri isə Allaha həvalə edilməlidir. Buna dəlil olaraq Peyğəmbərin ﷺ bu kəlamını qeyd etmək olar: *"Kim bizim qıldığımız namazı qılar, qibləmizə yönələr və kəsdiyimiz qurbandan yeyərsə, o, Allah və Onun elçisinin ﷺ zimməti – himayəsi altında olan müsəlmandır. Belə kimsələrin haqqına girməklə Allaha xəyanət etməyin!"* (Buxari 391) Lakin şəri bir ehtiyac halında və zəruriyyət yarandıqda insanları etiqadlarına görə imtahan etmək icazəli, bəzi hallarda isə vacibdir. Belə ki, Uca Allah Mədinəyə hicrət edən qadınları imtahan etməsi üçün Peyğəmbərə ﷺ əmr edərək buyurur: *"Ey iman gətirənlər! Mömin qadınlar hicrət edib sizin yanınıza gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını daha yaxşı bilir. Əgər bunların mömin olduqlarını bilsəniz, onları kafirlərə qaytarmayın. Nə bunlar onlara halaldır, nə də onlar bunlara halaldırlar..."* (Əl-Mumtəhənə: 10). Həmçinin Peyğəmbər ﷺ cariyənin mömin olub-olmadığını yoxlamaq üçün ona: *"Allah haradadır?"* – deyə sual vermiş, o da "səmadadır", – dedikdə, Peyğəmbər ﷺ bu dəfə *"bəs mən kiməm?"* – deyə soruşmuşdur. O da: "Sən Allahın Rəsulusan", – dedikdə Peyğəmbər ﷺ həmin cariyənin ağasına: *"onu azad et, çünki o, mömünədir"*, – demişdir (Müslim 537). Həmçinin elə müəllifin də qeyd etdiyi kimi, insanları

**134)** Əgər haqq üzərində və səndən əvvəlki sünnət əhlinin yolu üzərində sabit olmaq istəyirsənsə, kəlam əhlindən, dini mübahisə və münaqişə edənlərdən, həmçinin qiyas əhlindən uzaq dur! Çünki onların dediyini qəbul etməsən də, sadəcə olaraq, onları dinləməyin belə sənin qəlbinə şəkk-şübhə salacaq. (Qəlbə hər hansı bir şübhənin düşməsi isə) onu qəbul etməyin üçün kifayətdir ki, nəticədə də həlak olarsan. Əgər kəlam, dini münaqişələr, (batil) qiyas olmasaydı, zındıqlıq, bidət və zəlalət də heç vaxt olmazdı. Bütün bunlar bidətin, dində şəkkə düşməyin və zındıqlığın qapısıdır.

**135)** Sən öz qeydinə qal! Hədislərdən, hədis və təqlid əhlindən möhkəm tutun! Din yalnız və yalnız təqlid ilə, yəni Peyğəmbərin ﷺ və onun əshabının yoluna tabeçiliklə olur. Bizdən əvvəlkilər bizi çaşqınlıq içərisində buraxmayıblar. Onlara tabe ol və rahatlıq tap. Hədislərdən və onun əhlindən yan keçmə! Mütəşabih dəlillərdə dayan və (onları) heç nəyə qiyas etmə![1] Bidət əhlinə cavab vermək üçün özündən hiylələr icad etmə![2] Çünki sənə onlar barədə susmaq

---

sünnət və elm naminə imtahan etmək icazəlidir. Çünki hər kəs kimdən elm aldığına diqqət yetirməli və elminə, səlim etiqadına əmin olduğundan başqasından elm əxz etməməlidir. Bu, saleh sələflərimizin yolu və mənhəci olmuşdur. Belə ki, Zəidə ibn Qudamə demişdir: "Qədəri olan birinə, yaxud tanıdığın bir bidətçiyə və ümumən, heç kəsə onu imtahan etmədikcə hədis rəvayət etmə!" ("əl-Muhaddisul-fasil beynər-ravi vəl-vai" səh. 574) Süleyman ət-Teymi, Əbu Hatim ər-Razi də imtahan etmədikcə keç kəsə hədis rəvayət etməzdilər (Əbu Nueym "əl-Hilyə" 3/33, "Siyər əlamun-Nubəla" 13/189). Təbii ki, bu növ imtahan təkcə hədis rəvayəti və elm tələbi ilə məhdudlaşmır. Belə ki, Ömər ibn Əbdüləziz İbn Əbi Musanı vali təyin etmək istədikdə onu imtahana çəkmişdir ("Məcmuul-fətava" 15/329). Əhməd ibn Əbdullah ibn Yunus demişdir: "Mosul əhlini əl-Muəfə ibn İmran ilə imtahan et! Əgər onu sevsələr, bil ki, sünnət əhlidirlər, sevməsələr, bil ki, bidət əhlidirlər" (Ləlakəi 1/74, rəvayət: 58, İbn Səd "ət-Tabaqatul-kubra" 9/493).

[1] Kitabın bəzi əlyazma nüsxələrində bu cür qeyd olunmuşdur: Mütəşabih dəlillərdə dayan və onları batil mənalara yozma!

[2] Çünki xətanı xəta ilə aradan qaldırmaq icazəli deyil.

əmr olunub.[1] Onların sənə təsir göstərmələrinə imkan vermə.[2] Muhəmməd ibn Sirinin fəzilət sahibi olmasına baxmayaraq, bidət əhlindən olan bir nəfərin nəinki sualına cavab vermədiyini, hətta onun dilindən Allahın Kitabından bir ayə belə eşitmək istəmədiyini bilmirsənmi? Ondan bunun səbəbini soruşduqda belə demişdir: "Qorxuram ki, o, ayəni təhrif edər və bununla da mənim qəlbimə şübhə düşər".[3]

**136)** Bir kimsəni Peyğəmbərin ﷺ hədislərini eşitdikdə "biz Allahı təzim edirik" dediyini eşitsən, bil ki, o, cəhmidir, Peyğəmbərin ﷺ hədislərini inkar etmək istəyir və onu bu sözü ilə edir. Bu sözü ilə hədisləri dəf edir və iddia edir ki, o, bu yolla Allahı uca və pak tutur.[4] (Qiyamət günü) Allahı görmək, Allahın ən aşağı səmaya enməsi və bu kimi hədisləri eşitdikdə onları dəf etmək üçün belə deyir. Məgər bu, Peyğəmbərin ﷺ hədislərini inkar etmək deyilmi? Əgər "biz Allahı bir yerdən başqa bir yerə intiqal etmək vəsfindən bəri sayırıq", – desə, artıq iddia etmiş olur ki, Allahı bundan daha yaxşı tanıyan yoxdur.[5] Belələrindən çəkin! Avam insanların çoxu bu hal üzərindədir. İnsanları da bu cür kəslərdən çəkindir!

---

[1] Yəni elmin və bu işdə əhliyyətin yoxdursa, bidət əhlinə cavab vermək ilə məsul deyilsən.

[2] Çünki kimisə oddan xilas edəcəm deyə, insanın özünü oda – təhlükəyə atması icazəli deyildir.

[3] Dərimi 1/91, İbn Vaddah "əl-Bidət" səh. 53, Əcurri "əş-Şəriət" səh. 57

[4] Yəni cəhmilər Uca Allahın ad və sifətlərinə dəlalət edən hər hansı bir hədisi eşitdikdə, həmin hədisi inkar etməkdən ötrü "biz Allahı naqislik ifadə edən vəsflərdən uzaq bilirik" – deyərlər. Çünki onların etiqadlarına görə, Uca Allahın ad və sifətlərinə dəlalət edən hədisləri qəbul etmək Uca Allahı naqisliklə vəsf etmək deməkdir.

[5] Yəni cəhmilər Uca Allahın hər gecənin son üçdə-birində ən aşağı səmaya enməsini bir məkandan digər məkana intiqal (keçid) kimi dəyərləndirirlər. Beləcə, onlar bununla Xaliqin sifətini məxluqun sifətinə bənzətmiş və qaçmaq istədikləri təşbihin içinə düşmüş olurlar. Sələfin imamlarından İshaq ibn Rahaveyhə "Allah ən aşağı qat səmaya endikdə Ərşini tərk edirmi?" – deyə sual verildikdə, o da: "Allah, Ərşi Ondan xali olmadan enməyə qadirdirmi?" – deyərək suala sualla cavab vermiş, sual verən "bəli, qadirdir", – dedikdə, imam ona belə demişdir: "Elə isə nə üçün bu barədə (boş və mənasız) danışırsan?!" (Zəhəbi "əl-Ülüvv": 448)

**137)** Əgər kimsə haqqı axtarmaq qəsdi ilə səndən bu kitabda keçən hansısa məsələni soruşsa, onunla danış və onu düz yola yönəlt. Əgər sənin yanına mübahisə etmək üçün gəlsə, ondan çəkin. Çünki mübahisə, dini münaqişə, çəkişmək, qəzəblənmək sənə qadağan olunub. Bütün bunlar insanı haqq yoldan azdırır. Fəqihlərimizdən və alimlərimizdən hələ eşitməmişik ki, onlardan kimsə mübahisə etsin və dini münaqişələrə girsin.[1]

• Həsən əl-Bəsri demişdir: "Hikmətli adam nə mübahisə etməz, nə də ki yaltaqlıq, öz bildiyi elmi yayar. Əgər qəbul olunsa, Allaha həmd edər, yox, əgər qəbul olunmasa, yenə də Allaha həmd edər".[2]

• Bir kişi Həsənin yanına gəlib ona belə dedi: "Mən səni din haqqında mübahisəyə çağırıram". Həsən isə ona belə cavab verdi: "Mən artıq öz dinimi tanıyıram. Əgər sən dinini itirmisənsə, get onu özün axtar".[3]

• Peyğəmbər ﷺ (bir gün) otağının qapısının yanında iki nəfərin mübahisə etdiyini eşidir. Onlardan biri belə deyirdi: "Məgər Allah belə deməyibmi?" Digəri də ona eyni ilə "məgər Allah belə deməyibmi?" – deyirdi. Allahın elçisi qəzəbli halda çıxır və belə deyir: "Məgər sizə bu əmr olunub, yoxsa mən sizə Allahın kitabında olanların birini digərinə vurmaq üçün göndərilmişəm?!"[4] Beləcə, onlara mübahisəni qadağan etdi.

• Abdullah İbn Ömər ﵄, Malik ibn Ənəs, elmdə onların üstündə və onlardan aşağıda olanlar, bir sözlə, günümüzə qədər gələn hər alim dini münaqişələri bəyənməzdi. Allahın sözü insanların

---

[1] Burada müəllifin nəzərdə tutduğu münaqişə məhz kəlam əhlinin metodu ilə edilən dini münaqişələrdir. Haqq üzərində və haqqı müdafiə uğrunda, Quran və sünnətə uyğun bir şəkildə münaqişə etmək zəruriyyət olduqda icazəli, bəzi hallarda isə müstəhəb, hətta vacib də ola bilər. Bu cür münaqişə halları imam Əhməddən, imam Şafidən və digərlərindən nəql olunmuşdur. Uca Allah buyurur: *"İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et"* (Ən-Nəhl: 125).

[2] Nueym ibn Həmmad "Zəvaid aləz-zuhd li-İbni Mübarək", rəvayət: 30

[3] Lələkəi "Etiqad Əhlis-Sünnə" 1/128, rəvayət: 215, Əcurri "əş-Şəriət" səh. 57

[4] Əhməd 2/195-196, İbn Əbu Asim "əs-Sünnə" 406, hədis həsəndir.

sözündən daha böyükdür. Uca Allah isə belə buyurub: *"Allahın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər".*[1]

• Bir kişi[2] Ömərdən ﷺ "xoşluqla alanlar"ın[3] nə mənaya gəldiyini soruşduqda, o belə demişdir: "Əgər sən başı keçəl olsaydın,[4] sənin boynunu vurardım".[5]

• Peyğəmbər ﷺ belə demişdir: *"Mömin mübahisə etməz. Mən mübahisə edənlər üçün Qiyamət günü şəfaətçi olmayacam. Xeyri az olduğuna görə mübahisəni tərk edin!"*[6]

**138)** Bir kəsdə sünnətin bütün xislətlərinin cəm olunduğu bilinmədikcə, ona "sünnət sahibi" demək heç kəsə icazəli deyildir. Sünnət bütövlükdə həmin adamda cəm olmadıqca, ona "sünnət sahibi" deyilməz.

**139)** Abdullah ibn Mübarək belə demişdir: "Haqdan azmış yetmiş iki firqənin əsli dörd firqəyə qayıdır: qədərilik, murciəlik, şiəlik və xəvariclik. Məhz bu dörd firqədən yetmiş iki firqə şaxələnmişdir".[7]

• Kim Əbu Bəkri, Öməri, Osmanı və Əlini ﷺ Allahın elçisinin bütün səhabələrindən üstün görər və digər səhabələr barədə də ancaq xeyir danışar, onlar üçün dua edərsə, belə birisi əvvəlindən sonuna qədər tamamilə şiəlikdən bəri olmuş olar.

---

[1] Ğafir: 4

[2] Sabiğ ibn Əsəl adlı bu adam əsli İraqdan olan birisi idi. Ömər ibn Xəttabın ﷺ xilafəti zamanı Mədinə şəhərinə gəlmişdi. Yanında kitabları var idi, yəni oxuyan birisi idi və daima Quranda olan mütəşabih ayələr barədə sual verər və camaatın zehnini qarışdırardı. İmam Ömər ﷺ bunu eşitdikdə onu yanına çağırmış və cəzalandırmışdı. Daha sonra onu azad etmiş və öz diyarına yollamış, lakin insanların onunla oturub-durmasını qadağan etmişdi. Əməllərindən peşman olduqdan və tövbə etdikdən sonra imam Ömər ﷺ bu qadağanı aradan qaldırmışdır.

[3] *"And olsun (möminlərin canını) xoşluqla alanlara!"* (ən-Nəziət: 2)

[4] Başı keçəl olmaq xəvariclərin vəsfi idi.

[5] Ləlakəi "Etiqad Əhlis-Sünnə" 4/702, rəvayət:1137, Əcurri "əş-Şəriət" 153

[6] Təbarani "əl-Mucəmul-kəbir" 7659, çox zəif bir hədisdir.

[7] İbn Batta "əl-İbanə əl-kubra" rəvayət: 278

• Kim “iman söz və əməldir, artır və azalır” desə, belə birisi əvvəlindən sonuna qədər tamamilə murciəlikdən bəri olmuş olar.

• Kim “əməlisaleh, yaxud da günahkar, fərq etməz, hər bir imamın (rəhbərin) arxasında namaz qılmaq, onunla birlikdə cihada çıxmaq olar” desə, silahla rəhbərə qarşı qiyam etməyi icazəli görməzsə və onların islahı üçün dua edərsə, belə birisi əvvəlindən sonuna qədər Xəvaric məzhəbindən bəri olmuş olar.

• Kim desə ki, “qədərin xeyri də, şəri də Allah tərəfindən təqdir olunub, Allah istəyini azdırır və istədiyinə də hidayət verir”, o, əvvəlindən sonuna qədər Qədəriyyə məzhəbindən bəri olmuş olar və belə birisi sünnət əhlidir.

**140)** Ortaya çıxan hər bir bidət Allaha qarşı küfrdür. Kim bidət olan sözü dilinə gətirərsə, şəkk yoxdur ki, o, kafir olmuş olar.[1] Kim “rəcət” (yəni qayıdış) etiqadında olsa və desə ki, Əli ibn Əbu Talib sağdır, Qiyamət günündən əvvəl qayıdacaq və etiqad etsə ki, Muhəmməd ibn Əli, Cəfər ibn Muhəmməd, Musa ibn Cəfər imamət barədə danışıblar,[2] onlar qeybi bilirlər, belələrindən həzər et! Çünki belə birisi və bu sözləri deyən hər kəs Əzəmətli Allaha qarşı küfr etmişdir.

**141)** Tumə ibn Amr[3] və Sufyən ibn Uyeynə belə demişdir: “Kim Osman və Əlidən heç birini digərindən üstün görməzsə, o kəs şiədir. Belə birisi adilliklə vəsf olunmaz, onunla kəlmə kəsilməz və oturub-durulmaz. Kim Əlini Osmandan önə çəkərsə, o, rafizidir və Peyğəmbərin səhabələrinin izindən üz döndərmiş sayılar. Kim bu dördünü səhabələrin hamısından üstün tutsa, digər sahəbələrə isə

---

[1] Burada insanın dindən çıxmasına səbəb olan etiqadi bidətlər nəzərdə tutulur.
[2] Belə ki, şiə firqələri iddia edirlər ki, adları zikr olunan bu şəxslər və digərləri özlərinin Allah tərəfindən seçilmiş və təyin edilmiş ilahi imamlar olduqlarını iddia ediblər. Şübhəsiz ki, bu onların üzərinə atılmış bir böhtandır və onlar bu cür sayıqlamalardan tamamilə uzaqdırlar.
[3] Ətbəüt-tabiindən, Küfə əhlindən olan abid və saduq (hədis rəvayətində etibarlı) birisidir.

rəhmət oxusa və onların xətalarından danışmasa, o kəs bu məsələdə doğru istiqamətdə və hidayət yolunda sayılar".

**142)** Peyğəmbərin ﷺ Cənnətlik olduqlarını xəbər verdiyi on nəfərin Cənnətdə olacağına dair yəqinliklə şahidlik etmək sünnətdir.[1]

**143)** Peyğəmbərdən ﷺ və onun əhli-beytindən başqa heç kəsi salavat deməklə xüsusiləşdirmə![2]

**144)** Bil ki, Osman ibn Əffan ﷺ məzlum olaraq öldürülmüşdür və onu öldürən kəs zalım hökmündə idi.[3]

**145)** Kim bir hərfində belə şəkk etmədən və bir hərfini belə inkar etmədən bu kitabda olanları təsdiqləsə və onlara etiqad etsə, onu özünə rəhbər tutsa, o kəs kamil bir şəkildə sünnət və camaat əhlidir, belə birisində sünnət (etiqad əsasları) tamamlanmışdır.

---

[1] Səid ibn Zeyd ibn Amr ﷺ Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: *"On nəfər Cənnətdədir: Əbu Bəkr Cənnətdədir, Ömər Cənnətdədir, Osman, Əli, Zubeyr, Talha, Əbdürrəhman (ibn Ouf), Əbu Ubeydə (ibnul-Cərrah), Səd ibn Əbu Vaqqas Cənnətdədirlər".* Səid ibn Zeyd doqquz nəfərin adını qeyd edəndən sonra susdu. Ondan onuncunun adını soruşanda, belə cavab verdi: *"Səid ibn Zeyd Cənnətdədir"* (Tirmizi: 3748, hədis səhihdir).

[2] ***Məsələnin xülasəsi belədir:*** Əsli etibarilə salavat Peyğəmbərimiz ﷺ barədə deyilir və digər peyğəmbərlər barədə də deyilə bilər və deyilməlidir. Həmçinin Peyğəmbərimiz ﷺ ilə yanaşı, onun əhli-beytinə də salavat deyilməsi daha yaxşıdır: "sallallahu alə Muhəmməd və alə əli Muhəmməd" – kimi. Hətta bəzi alimlər bunun vacib olduğunu qeyd etmişdir. Lakin burada başqa bir sual ortaya çıxır: məsələn, "sallallahu alə Əli", yaxud "sallallahu alə Fatimə" formasında əhli-beyt mənsublarından, yaxud "sallallahu alə Ömər" formasında səhabələrdən hər hansısa birini ayrılıqda salavat deməklə xüsusiləşdirmək olarmı? Bu məsələdə alimlər ixtilaf etmişlər. Daha doğru olan rəyə əsasən, bu, icazəli deyil. Çünki bu, əsrlər boyunca müsəlman ümmətinin sünnəti (adəti) olmamışdır və bu, bidət əhlinin şüarıdır. Bu barədə daha geniş və təfsilatlı məlumat əldə etmək istəyən kəs İbn Qeyyimin "Ciləul-əfhəm fi fadlis-saləti alə Muhəmməd xeyril-ənəm" adlı kitabına müraciət edə bilər.

[3] Osmanı ﷺ Küfə və Bəsrə əhlindən olan xəvariclər öldürmüşdü və onları bu işə təhrik edənlərdən biri də əsli yəhudi olan ibn Səba idi.

Kim də bu kitabda olanların bir hərfini belə inkar etsə və ya bir hərfində belə şəkk etsə, o, bidət əhlidir.

**146)** Kim Quranın bir hərfini və ya Allahın elçisindən ﷺ varid olan hədislərdən nəyisə inkar etsə və ya onlara şəkk etsə, Allahın önünə təkzib edən kəs kimi çıxacaqdır. Ona görə də Allahdan qorx, ehtiyatlı ol və imanını qoru!

**147)** Allaha asilik sayılan işlərdə heç kəsə: nə xeyir əhlinə, nə də başqasına yardım etməmək sünnətdəndir.[1] Allaha asilikdə bəşərə tabeçilik yoxdur. Günahı və günahkarları sevməməli, əksinə Allah üçün onlara nifrət etməlisən.

**148)** Böyük və kiçik günahlara görə Allaha tövbə etməyin bütün qullara vacib olduğuna etiqad etməlisən.[2]

**149)** Allahın elçisinin ﷺ Cənnət əhli olduğuna şahidlik etdiyi kəslərin Cənnət əhli olduğuna şahidlik etməyən kəs bidətçi, azmış və Allahın elçisinin ﷺ dediklərində şəkk edən kimsədir.[3]
Məlik ibn Ənəs belə demişdir: "Kim Peyğəmbərin ﷺ sünnətinə əməl edər və səhabələrə dil uzatmazsa, əməllərində naqislik olsa belə, bu etiqadla ölsə, peyğəmbərlər, sıddıqlar, şəhidlər və salehlərlə birlikdə olacaqdır".

• Bişr ibnul-Haris demişdir: "İslam sünnət, sünnət isə İslamdır".

• Fudeyl ibn İyad belə demişdir: "Mən Əhli-sünnətdən bir nəfəri gördükdə sanki Peyğəmbərin səhabələrindən birini görürəm. Bidət

---

[1] Uca Allah buyurur: *"Xeyir və təqvaya səbəb olacaq işlərdə bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir"* (əl-Maidə: 2).

[2] Uca Allah buyurur: *"Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə, nicat tapasınız"* (ən-Nur: 31); *"Məhz tövbə etməyənlər zalımlardır"* (əl-Hucurat: 11).

[3] Müəllif burada Cənnətlə müjdələnmiş səhabələri kafir sayan və onların Cəhənnəmdə olacaqlarına etiqad edən rafizilərə işarə edir.

əhlindən bir kişini gördükdə isə sanki münafiqlərdən birini görürəm”.

• Yunus ibn Ubeyd demişdir: “Bu gün sünnətə çağıran insan qəribə görünür. Onun dəvətinə cavab verən və sünnəti qəbul edən isə ondan da qəribə görünür”.[1]

• Abdullah İbn Avn ölüm yatağında ikən “sünnətdən möhkəm yapışın, sünnətdən möhkəm yapışın, bidətlərdən isə çəkinin” demiş və bunu ölənə qədər təkrarlamışdı.

• Əhməd ibn Hənbəl belə demişdir: “Yoldaşlarımdan biri vəfat etdi və bəziləri onu yuxuda gördülər. Deyirdi ki, Əbu Abdullaha (yəni Əhmədə) deyin ki, sünnətdən möhkəm yapışsın. Çünki Allah məndən ilk növbədə sünnət haqda soruşdu”.

• Əbul-Aliyə demişdir: “Kim günahları görünmədiyi halda, sünnət üzərində ölsə, o, sıddıqdır”.

• Həmçinin belə deyiblər: “Sünnətdən yapışmaq qurtuluşdur”.

• Sufyan əs-Sovri belə deyib: “Kim bir bidətçiyə qulaq verərsə, Allahın mühafizəsindən kənara çıxar və bidətlərə tərəf meyil edər”.[2]

• Davud ibn Əbu Hind belə demişdir: “Allah İmran oğlu Musaya bidət əhli ilə oturub-durmamasını əmr etdi. Çünki onunla yoldaşlıq etdiyin halda, onun dediklərinin sənin qəlbinə düşməsi və üzü üstə sürüklənib Cəhənnəm oduna atılması təhlükəsi vardır.”

• Fudeyl ibn İyad deyib ki, kim bidətçi ilə yoldaşlıq etsə, ona hikmət verilməz.[3]

---

[1] Əbu Nueym “əl-Hilyə” 3/21
[2] İbn Batta “əl-İbənə əl-kubra”, rəvayət: 444
[3] Beyhəqi “Şuabul-iman” 7/64, rəvayət: 9482

• Fudeyl ibn İyad belə demişdir: “Bidət əhli ilə bir yerdə oturma. Mən qorxuram ki, sənin üzərinə Allahın lənəti enər.”[1]

• Fudeyl ibn İyad demişdir: “Kim bidətçini sevsə, Allah onun əməlini puç edər və İslam nurunu da qəlbindən çıxarar”.[2]

• Fudeyl ibn İyad demişdir: “Kim bidət əhli ilə oturub-durarsa, bu onun korluğuna səbəb olar”.[3]

• Fudeyl ibn İyad demişdir: “Əgər yolda bir bidətçini görsən, həmən yolunu dəyiş və başqa yolla get!”[4]

• Fudeyl ibn İyad belə demişdir: “Kim bir bidətçini uca tutsa, İslamın dağılmasına yardım etmişdir. Kim bidətçinin üzünə gülsə, Allahın Muhəmmədə ﷺ nazil etdiyinə dəyər verməmişdir. Kim öz qızını bidətçiyə ərə versə, artıq qızı ilə qohumluq əlaqələrini kəsmişdir. Kim bidətçinin cənazəsinin ardınca getsə, evinə qayıdana qədər ona Allahın qəzəbi enər”.[5]

• Fudeyl ibn İyad demişdir: “Mən yəhudi və nəsrani ilə birlikdə əyləşib yemək yeyərəm, amma bidətçi ilə yeməyə oturmaram. İstəyərəm ki, mənimlə bidətçi arasında dəmirdən bir hasar olsun”.[6]

• Fudeyl ibn İyad demişdir: “Əgər Allah bir kişinin bidətçiyə nifrət etdiyini görsə, onun əməlləri az olsa belə, Allah onu bağışlayar. Sünnət əhlindən olan bir kəsin bidətçinin üzünə gülməsi nifaqdan başqa bir şey deyildir. Kim üzünü bidət əhlindən yan çevirərsə, Allah onun qəlbini imanla doldurar. Kim bidətçini qovarsa, Allah onu Qiyamət günü əmin-amanlıqda edər və kim bidət əhlini aşağı

[1] Ləlakəi “əs-Sünnə, rəvayət: 262
[2] İbn Batta “əl-İbənə əl-kubra”, rəvayət: 440
[3] Əbu Nueym “əl-Hilyə” 8/103
[4] İbn Batta “əl-İbənə əl-kubra, rəvayət: 493, Əbu Nueym “əl-Hilyə” 8/103
[5] Əbu Nueym “əl-Hilyə” 8/103
[6] Ləlakəi “əs-Sünnə”, rəvayət: 1149

tutarsa, Allah da onu Cənnətdə yüz dərəcə ucaldar. Heç vaxt bidət əhlini sevənlərdən olma!”[1]

**سبحانك اللهم و بحمدك أشهد أن لا إله إلا أنت أستغفرك و أتوب إليك**

**وصلى الله على مُحَمَّد وعلى آله وصحبه وسلم**

[1] Əbu Nueym “əl-Hilyə” 8/103, Ləlakəi “əs-Sünnə”, rəvayət: 266

## Mündəricat[1]


| Mövzular | Paraqraf |
|---|---|
| Sünnət və camaat anlayışı | 1, 2, 3, 5, 89, 91 |
| Din mücərrəd ağıl və rəy üzərində qurulmayıb | 5, 41, 91 |
| Bidət anlayışı və onunla bağlı olan məsələlər | 6, 7, 10, 92, 93 |
| Zəlalətə düşməyin səbəbləri və ondan qorunmağın yolları | 4, 8, 9, 82, 85, 87, 88, 115 |
| Peyğəmbərin ﷺ sünnətinə və onun əshabının yoluna tabe olmağın vacibliliyi | 5, 8, 10, 59, 91, 115, 135, 149 |
| Bidət əhlini bəyan etməyin, onlar barədə danışmağın və onlardan çəkinməyin və çəkindirməyin vacibliliyi | 9, 98, 125, 129, 130, 131, 132, 150 |
| Etiqadi məsələlərdə qiyas etmək icazəli deyil | 11 |
| Kəlam elmi və dini münaqişələrin fəsadı | 12, 13, 72, 98, 134, 135, 137 |
| Allahın gözəl adları və uca vəsfləri barədə qeydlər | 14, 15, 16, 41, 42, 43, 65, 67, 69, 86 |
| Qəbir həyatı və Axirət günü ilə əlaqəli mövzular | 17, 18, 19, 20, 21, 23, 24, 25, 49 |


[1] Kitabda mövzular müxtəlif yerlərdə təkrarlandığına və birmənalı sıralama olmadığına görə mündəricatı bu formada, yəni “vahid mövzu və müxtəlif paraqraflar” əsasında hazırlamağı daha məqsədəuyğun bildik.

| | |
|---|---|
| | 50, 62, 63, 70, 71, 73 |
| Əhli-Sünnət etiqadına əsasən iman məfhumu | 26 |
| Səhabələrin ədaləti və fəziləti barədə | 27, 101, 105, 114, 118, 128, 141, 142, 144 |
| Əmr sahiblərinə itaətin vacibliliyi | 28, 116, 117, 119 |
| Xəvariclər barədə | 29 |
| Tövbə, qorxu və ümüd, Allah barədə yaxşı zəndə olmaq | 31, 80, 148 |
| Müxtəlif fiqhi məsələlər | 32, 33, 34, 35, 36, 39, 46, 47, 48, 53, 74, 75, 76, 79, 83, 102, 103, 104, 107, 108,109, 113 |
| Nifaq və küfür anlayışı | 37, 94 |
| Şəriət əhkamları zahirinə görə dəyərləndirilməlidir | 38, 40, 79, 111, 121 |
| Qədərə iman | 45, 52, 58, 60, 64 |
| Ölülərin eşidib-eşitməməsi məsələsi | 55 |
| Müxtəlif etiqadi mövzular | 22, 44, 54, 56, 57, 66, 81, 97 |

| | |
|---|---|
| İsra və merac barədə | 61 |
| Əhli-beytin-Haşim övladlarının və Qureyşin fəziləti | 84, 143 |
| Cəhmilər barədə | 87, 104, 136 |
| Müəllifin öz kitabı barədə yazdığı qeydlər | 95, 145 |
| Fitnələr barədə | 96 |
| Yaxşılığı əmr edib, pisliklərdən çəkindirmək | 106, 110 |
| Bidət əhlinin vəsfləri barədə | 115, 119, 122, 123, 126, 132, 136, 139, 140 |
| İnsanları imtahan etməyin icazəli olub-olmaması | 133 |